**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**Jurnal 1970-ci ildən nəşr olunur.**

**2019, № 1 (226)**

# MƏKTƏBƏQƏDƏR VƏ İBTİDAİ TƏHSİL

**(elmi-metodik jurnal)**

**1**

**2019**

## REDAKSİYA HEYƏTİ

### Baş redaktor: prof.Y.Ş.Kərimov

| | |
|---|---|
| **Aydın Əhmədov** | *Azərbaycan Respublikası Təhsil Nazirliyi, Məktəbəqədər və ümumi təhsil şöbəsinin müdiri;* |
| **Nərminə Alnağıyeva** | *Azərbaycan Respublikası Təhsil Nazirliyi, Məktəbəqədər təhsil sektorunun müdiri;* |
| **Faiq Şahbazlı** | *Azərbaycan Respublikası Təhsil İnstitutu Elmi-Pedaqoji Mərkəzinin direktoru;* |
| **Vidadi Xəlilov** | *Azərbaycan Respublikası Təhsil İnstitutunun elmi məsləhətçisi, pedaqoji elmlər doktoru, professor;* |
| **Ramiz Əliyev** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi psixologiya kafedrasının müdiri, psixologiya elmləri doktoru, professor ;* |
| **Asəf Zamanov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi işlər üzrə prorektoru, fizika-riyaziyyat elmləri doktoru, professor ;* |
| **Nurlana Əliyeva** | *Azərbaycan Slavyan Universitetinin rektoru, filologiya elmləri doktoru, professor ;* |
| **Vaqif Əmiraslanov** | *Bakı Sosial-Pedaqoji Kollecinin direktoru, tarix üzrə fəlsəfə doktoru;* |
| **Mircəfər Həsənov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru ;* |
| **Laləzər Cəfərova** | *Azərbaycan Respublikası Təhsil İnstitutu məktəbəqədər təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru;* |
| **Azadxan Adıgözəlov** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru, pedaqoji elmlər doktoru;* |
| **Həqiqət Hacıyeva** | *Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, biologiya üzrə fəlsəfə doktoru;* |
| **Zemfira Əsədova** | *Bakı şəhəri, Nizami rayonu, 175 nömrəli körpələr evi-uşaq bağçasının müdiri;* |
| **Esmira Ağayeva** | *İ. Əfəndiyev adına Elitar Gimnaziyanın ibtidai siniflər üzrə direktor müavini;* |
| **Zemfira Ağayeva** | *Bakı şəhəri, Nərimanov rayonu, 69 nömrəli körpələr evi-uşaq bağçasının tərbiyəçisi;* |
| **Bibixanım İbadova** (məsul katib) | *Azərbaycan Respublikası Təhsil İnstitutunun İbtidai təhsilin kurikulumu şöbəsinin müdiri, pedaqogika üzrə fəlsəfə doktoru.* |


Yığılmağa verilmiş 14.01.2019. Çapa imzalanmış 28.03.2019.
Kağız formatı 60x84 1/8. Şərti çap vərəqi 6,5.
Şifariş № 06. Tiraj 1000. Qiyməti 2 manat 50 qəpik.
Redaksiyanın ünvanı: AZ 1010. Bakı, Zərifə Əliyeva küçəsi, 96.
Tel. mob. (051) 623-01-15.

«RS Poliqraf» MMC-nin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.
Ünvan: Bakı, A.Məmmədov küçəsi, 113.

# MÜNDƏRİCAT

**1. Azərbaycan Respublikasında 2019-cu ilin “Nəsimi ili” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı** .......... 4
**2. Hacıyev A.** Sözün Nəsimi zirvəsi .......... 5
**3. Nəsimi İ.** “Məndə sığar iki cahan .......... 9

## *ÜMUMPEDAQOJİ PROBLEMLƏR*

**4. Sadıqova S.** Pedaqoji texnologiyalar təlim prosesinin planlaşdırılmış sistemi kimi .......... 10
**5. Cəmilzadə S.** Pedaqoji kadr hazırlığının perspektivləri .......... 14
**6. Məmmədova E.** “Yeni təlim texnologiyaları” anlayışına bir nəzər .......... 17
**7. Məmmədova İ., Həsənova G.** Təlimin keyfiyyətinin yüksəldilməsində yeni pedaqoji texnologiyalardan istifadə.... 21
**8**. Nəsiminin edamı haqqında .......... 25

## *MƏKTƏBƏQƏDƏR TƏHSİL*

**9. Baxışova Ş.** Məktəbəqədər təhsil proqramının reallaşdırılmasında inkişafetdirici təlim mühitinin rolu .......... 26
**10. Həsənova P.** Böyük məktəbəqədər yaşlı uşaqlarda idrak maraqlarının inkişafı psixi-pedaqoji problem kimi .......... 30
**11. Məmmədova Y.** Məktəbəqədər müəssisələrdə savad təlimi üzrə işin təşkili xüsusiyyətləri .......... 33

## *FƏNLƏRİN TƏDRİSİ VƏ QABAQCIL TƏCRÜBƏ*

**12. Məmmədov Z.** Riyazi oyunlar vasitəsilə şagirdlərin məntiqi təfəkkürünün inkişafı .......... 36
**13.Tağıyeva S., Qurbanova Z.** İbtidai siniflərdə məsələ həlli prosesində müasir texnologiyalardan istifadə imkanlar .......... 41
**14.** Novruz ənənələri .......... 45

## *PSİXOLOGİYA VƏ DEFEKTOLOGIYA*

**15. Əliyev R.** Kiçikyaşlı məktəblilərin psixi xüsusiyyətləri və onlara psixoloji xidmətin təşkili .......... 46

## *TƏRBİYƏ PROBLEMLƏRİ*

**16. Abbasov A.** Əhməd Yəsəvi mənəvi keyfiyyətlərə yiyələnməyin vacibliyi haqqında .......... 51
**17. Əhmədova A.** Məktəbəqədər dövrdə uşaqların inkişafında mənəvi tərbiyənin rolu .......... 53
**18. Səmədzadə F.** Məktəbəqədər yaşlı uşaqların tərbiyəsində ailənin rolu .......... 57
**19. Əliyeva V.** Məktəbəqədər yaşlı uşaqların humanizm ruhunda tərbiyəsinin vasitə və yolları .......... 60

## *SİZİN ŞƏXSİ TƏHSİLİNİZ*

**20. Həsənova S .** Nizami Gəncəvi yaradıcılığında islam .......... 64
**21. Sultanova Z.** Azərbaycan bəstəkarlarının yaradıcılığında muğam .......... 67
**22. Абутидзе Н.** Жанр романса в творчестве С. Рахманинова .......... 70

**Azərbaycan Respublikasında
2019-cu ilin "Nəsimi ili" elan edilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin
Sərəncamı**

Azərbaycan xalqının çoxəsrlik ənənələrə malik bədii və fəlsəfi fikrində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin zəngin irsi insanların mənəvi-əxlaqi kamilləşməsində bu gün də mühüm əhəmiyyətə malikdir.

Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutan Nəsimi yaradıcılığı uzun illərdən bəri elmi-ədəbi fikrin diqqət mərkəzindədir. Şairin irsinin ölkəmizdə sistemli tədqiqi və təbliği ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Nəsiminin 600 illik yubileyinin keçirildiyi vaxta təsadüf edir. Böyük söz ustasının 600 illiyinin YUNESKO-nun görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edildiyi və beynəlxalq miqyasda qeyd olunduğu həmin dövrdən etibarən Nəsimi ilə bağlı çoxlu araşdırmalar aparılmışdır. Qüdrətli şairin yaradıcılığının üzə çıxarılan əlyazma nüsxələri əsasında öyrənilməsi Azərbaycan dili və ədəbiyyatı tarixinin tədqiqində yeni mərhələ açmışdır. Nəsiminin əsərləri ölkəmizdə dəfələrlə işıq üzü görmüşdür. Şairin əsərləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, kütləvi tirajla nəşr olunaraq kitabxanalara hədiyyə edilmişdir.

Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində silsilə tədbirlər həyata keçirilmiş, onun ədəbiyyatda, incəsənətdə parlaq obrazı yaradılmış, 1979-cu ildə ölkəmizin paytaxtında heykəli ucaldılmışdır.

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyi qeyd edilmiş, 2018-ci ilin sentyabrında ölkəmizdə ilk dəfə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalı keçirilmişdir.

2019-cu ildə Nəsiminin anadan olmasının 650 illiyi tamamlanır. Azərbaycanın ədəbi-mədəni fikir tarixinin bu əlamətdar hadisəsinin dövlət səviyyəsində layiqincə keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında" 2018-ci il 15 noyabr tarixli 689 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb, həyata keçirilməsi tapşırılmışdır.

Nəsimi irsinin müasir humanitar düşüncənin tələbləri kontekstində aktuallığını, milli mədəni-mənəvi dəyərlərin təbliği baxımından xüsusi əhəmiyyətini nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

2019-cu il Azərbaycan Respublikasında "Nəsimi ili" elan edilsin.

**İlham Əliyev,**

**Azərbaycan Respublikasının Prezidenti,**

**Bakı şəhəri, 11 yanvar 2019-cu il**.

# SÖZÜN NƏSİMİ ZİRVƏSİ

**Asif Hacıyev,**
ARTİ-nin şöbə müdiri,
pedaqogika üzrə fəlsəfə doktoru, dosent
haciyev_asif@mail.ru

**Açar sözlər:** mütəfəkkir şair, sənətkar, söz, tərbiyəvi fikirlər, klassik ədəbiyyat;
**Ключевые слова:** поэт-мыслитель, мастер, слово, воспитательные идеи, классическая литература;
**Key words:** thinker poet, artist, vocabulary, educational ideas, classical literature.



Həyat yolu həqiqət axtarışında keçən, haqq yolunda öz canından keçən əqidə şairimiz İmaddədin Nəsiminin bədii və fəlsəfi irsi özündən sonrakı altı yüz illik zaman axarında həmişə sevən könülləri, düşünən beyinləri heyran etmişdir. Dini fanatizmə, dövrün ədalətsiz qanunlarına və hakimlərinə qarşı mübarizədə zəngin ideya mənbəyinə çevrilən bu bənzərsiz irs ulu Tanrı tərəfindən yaradılan insanın kamilliyə yetişmək əzmindən, onun bənzərsiz sevgi və duyğularından bəhs edir. “Həq mənəm, həq məndədir, həq söylərəm” deməklə özünü “gerçək aşiq” adlandıran şair hökmü keçən əyrilərlə, dar məqamda haqdan qaçan “murdar” məxluqlarla barışmaz mövqedə duraraq yazır:

Gəl, ey əgri, məni gör kim, cahanın padişahıyam,
Üzümə doğru bax, doğru fələkin şəmsü-mahıyam.

Şəriətəm, divanam mən, gah aşkara nihanam mən,
Həm ol müddəi dəvası, həm onun mən günahıyam.

Nəsimi, sən demə cüzvi deyilsən mim ilə nun, sin,
Vəli oldur deyən daim qamu aləm ilahıyam. (5, II c, səh. 98)

Şairin fəlsəfi şeirlərində qabarıq şəkildə nəzərə çarpan və demək olar ki, hər misrada təkrarlanan “Mən” obrazı, əslində, həyatın, yaradılışın mahiyyətini dərk etməyə çalışan insanın ifadəsidir. Nəsimi insanın yaradıcı qüvvəsinə inanmaqla onun zatını Yaradana – ulu Tanrıya bağlayır, lakin dövrün fanatik görüşlərinə qarşı çıxaraq, Yaradanın aciz varlığı kimi deyil, onu özündə axtaran və sübut etməyə çalışan “insani-kamil”, “aləmin cismi sədəfi, dürdanəsi” səviyyəsində görür. Böyük mütəfəkkir sonsuz sualları ilə isbata möhtac olmayan bu əlaqənin sirri üzərində düşünür:

Ey mana nahaq deyənlər, qandadır bəs Yaradan?
Gəl gətir isbatını, kimdir bu şeyni yaradan?

Gəl mana bir söyləgil, kimdir sənin nitqində kim,
Söyləyən, söylətdirən, eşitdirən hər yanadan?

Çünki bir şəhrin içində məscidü-meyxana var,
Əhli-həq fərq eyləməz məscidləri meyxanadan.

Çün Nəsimi on səkiz min aləmin məqsududur,
Kim bu dövrü bilmədi, sür, ta çıxa dəvvarədən. (5, II c, s. 41)

Nəsimini yaradıcı şəxsiyyət olaraq klassik ədəbiyyatımızda yaşadan, ilk növbədə, onun söz dünyasıdır. Şairin ana dilimizdə – Azərbycan türkcəsində düzüb-qoşduğu əvəzsiz şeir nümunələri yüksək poetik ifadə tərzi ilə həmişə seçilib-sevilmişdir. Canlı xalq dilinin gözəlliyindən, şirinliyindən qaynaqlanan şair sözü öz ecazkar təsiri ilə həmişə sevən, duyğulu könülləri oxşamış, ruhuna qol-qanad vermişdir. Ə.Dəmirçizadənin müşahidələrinə görə, xalq danışıq dilindən bəhrələnən bu dil həm də ədəbi dilimizin ərəb-fars mənşəli söz və tərkiblərindən təmizlənməsi yolunda başlanğıc bir mərhələ idi (2, səh.148). Dilçi-alim T.Hacıyev mütəfəkkir şairin Azərbaycan-türk mənşəli sözə həssas münasibətinin mahiyyətində yaradıcı sənətkar vurğunluğunu görərək qeyd edir:"Nəsimi sözü xalq sözündən şirə alır. Bu, Azərbaycan dilinin melodik və semantik imkanlarından şairin razılığındandır" (1, səh.52). Digər dilçi-almimiz N.Xudiyev bu fikirləri bir qədər genişləndirərək yazır: "Nəsiminin dili söz (və ifadə) – obrazlarla zəngindir. Bu baxımdan onu (Nəsiminin dilini) həqiqətən XII–XIV əsrlər Azərbaycan ədəbi dilinin yekunu saymaq və həmin mövqedən təhlil etmək mümkündür. Eyni zamanda, nəzərə almaq lazımdır ki, Nəsimi dilində sözün obrazlılıq səviyyəsi və bu obrazlılığın tipologiyası xüsusi konsepsiyaya (elmi şəkildə dərk olunmuş!) tabedir – şair öz panteist-hürufi idealını, məramını təqdim edir, sözü, mənanı, fikri həmin ideala, mərama uyğun seçir, ayırır, çeşidləyir və bəzən "məlum" sözü tamamilə naməlum bir mənada – "quş dili"ndə deyir" (4, səh. 179).

Şair sözü həqiqətin açarı, insanı ali varlıq kimi ucaldan, özünü özünə tanıdan bir nemət kimi dəyərləndirir:

Dinləgil bu sözü ki, candır söz,
Aliyü-asiman-məkandır söz.

Nazilü-münzil anla kim, birdir,
Kəndi-kənduyə tərcümandır söz. (5, II c, səh, 9).

Nəsimiyə görə, söz hər cür incidən, dürdən qiymətlidir. Mərifət əhli zövqü sözün düzlüyündən, təzəliyindən, ifadəli deyimindən alır. Şairin həmişəyaşar poetik düşüncələrinin əbədiliyini təmin edən də məhz onun söz, fikir dünyasıdır. Böyük sənətkar cilalayaraq mənalandırdğı sözün dərindən dərk edilərək duyulmasını oxucusu qarşısında bir problem kimi qoyur:

Gərci Nəsimi sözün dadını verdi, vəli
Kim bu sözü fəhm edər, kim bu xəyalı bilur? (5, II c, səh.139).

Söz ustadının tanınmış araşdırıcılarından sayılan E.Əlibəyzadə doğru olaraq belə qənaətə gəlir ki, şairin özü ilə sözü arasındakı qırılmaz vəhdət onun klassik bir sənətkar kimi tanınmasının başlıca şərtlərindəndir (3, səh.159). Sözün insan qəlbinə və idrakına qüdrətli təsir gücünə inanan şair onu mənsəb naminə alış-veriş vasitəsinə çevirən nadanlara nifrətini açıq şəkildə bildirir:

Dil bazarçısı yalandır, varmazam bazarına,
Gerçək olmaz əgri dil, inanmazam iqrarına.

Sadiq oldur, dilini könlü ilə bir eyləyə,
Əgri dildən nəsnə gəlməz, durmuşam inkarına. (5, II c, səh.60).

Şair sözə həm də yüksək zövq, əxlaqi dəyər və tərbiyə vasitəsi kimi yanaşır. Didaktik mahiyyət daşıyan şeirlərində nadanlardan uzaq olmağı, xeyir əməllərə dəstək verməyi, şər işlərdən əl çəkməyi, könül əhlinin söhbətindən ibrət götürməyi dərdlərin dərmanı kimi təsvir edir. O, insanları zalım olmamağa çağırır, çünki zalımın tarlada əkdiyi zülm, şər özünə qarşı üsyan bi-

tirər. Şair təkəbbürlülüyü böyük dərd, bəla sayır. Dünya mal-mülkünə aldanan hərisləri "həqir" – əskik, alçaq hesab edir. Yalançı nəfsə uymamağı, həqqi unutmamağı, iblisə uyub, zalım sözünə aldanmamağı tövsiyə edir. Şair qəzəllərinin birində həqiqi, saf insanı tanımağın sirrini belə şərh edir:

Hər kişinin sorman əslin, izzətindən bəllidir,
Söhbəti-irfan gorənlər xidmətindən bəllidir.

Ey Nəsimi, nəqdini nadan əlinə vermə kim,
Gövhəri dana bilir, həm qiymətindən bəllidir. (5, IIc, səh.129).

Həsimi vicdansızdan ruh, əsilsizdən xeyirxahlıq, sədəqə ummağı faydasız bilir, çünki hər qayada ləl, hər dənizdə gövhər, hər sədəfdə də mərcan olmaz. Şairin hikmət dolu fikirlərindən bəzilərini öz deyimində nəzərdən keçirək:

Yaxşılıq eylə sən, sənə yaxşılıq eyliyə xuda,
Aqibət əslinə qılır xeyr ilə şər müraciət. (5, IIc, səh. 190)

Oxu kitabi-nəfsini, dilinlə eynin sağ ikən,
Qoyma bu günü yarına, sonra sənə peşman gəlir. (5, IIc, səh. 203).

Şairə görə, özünü tanımayanlar pirlər, müdriklər sözünü qavraya bilməz. Odur ki, hər insan bu həyat güzgüsündə təmiz görünmək üçün özünü "arıtmalıdır". Qüdrətli sənətkar dediyi hər sözün qiymətini, tərbiyəvi əhəmiyyətini dərindən duyaraq, onun şirinliyindən dadan hər bir kəsi qəndə, nabata min dəfə səcdə qılan tutuquşu ilə müqayisə edir:

Bu gün Nəsimi sözünün həlavətinə irən,
Həzar səcdə qılır tuti birlə qəndü-nabat. (5, II c, səh. 180).

Hümanist şair insanların səadətə qovuşmaları üçün pis adət və əməllərdən uzaqlaşmağı, kərəm (insaf) və səxavətlə yaşamağı, haqqa tapınmağı, həyalı, ədəbli olmağı, işlərində dəqiqliyə riayət etməyi, gözəlliyə can atmağı tövsiyə edir. Şairə görə, nifrət, qeybət və ədavət, yersiz zarafat, mənasız söhbət, böhtan insanı xəstəliyə salır. Heç kimsəyə həqarətlə baxmamağı nəsihət edən mütəfəkkirin hikmətli deyimləri günümüz üçün də aktual səslənir və gənc nəslin hərtərəfli şəxsiyyət kimi formalaşmasında didaktik əhəmiyyət kəsb edir.

Şairin Azərbaycan türkcəsində yazdığı "Divan"ı həm də qədim dilimizin söz xəzinəsidir. Bu xəzinədə dilimizin tarixi inkişaf prosesində işləklikdən düşmüş onlarca sözün daşlaşaraq yaşadığını müşahidə etmək olur ki, bunlardan bəzilərinə diqqət yetirmək istərdik:

***"Ağmaq – qalxmaq, yüksəlmək":***
Fərəhdən cümlə üşşaqın fəğanı göylərə **ağdı,**
Həsəddən zahidi-xüşkün qabağında xunab oynar. (5, I c, səh. 197).

***"Al – hiylə":***
Dünya duracaq yer deyil, ey can, səfər eylə!
Aldanma anın **alına**, andan həzər eylə! (5, I c, səh. 42).

***"Alçaq – sadəlövh, sadə; müqəddəs":***
Ey tubiyi arzulayan himməti **alçaqlar** kibi,
Qəddini yarın arzula kim, tubundən əla imiş. (5, I c, səh. 317).

***"Ansız – həmin vaxt, o an":***
Həq fatihə oxudu camalın,
**Ansız** qəbul etmədi səlatı. (5, IIc, s□h. 235)

***"Arınmaq – təmizlənmək":***
Ey fəqih, endi səmadan arifə mai-təhur,
Şübhədən **arın** ki, əyyami-təharətdir bu gün. (5, I c, səh. 178).

***"Bandırmaq – bulaşdırmaq":***
Ey xirqə geyən, yol urucu zahidi-salus,
Şirkindən arın, xirqəni gəl vəhdətə **bandır**. (5, I c, səh. 258)

Aşiqin qanına **bandırmış** əlin,
Gör bu çox dəstan nə dəstan eyləmiş? (5, I c,s□h.312)

***"Bəlirmək – seçilmək, bilinmək":***

Əcəb gəncinə açılmış, çiçəklər yerə saçılmış,
**Bəlirməz** yer zümürrüddən, zümürrüd üzüdur həmdəm. (5, II c,səh. 69)

***"Biliş – bilik, təfəkkür":***

Aşinayı bilməmişsən, ey **bilişdən** yad olan,
Mərifətdən dəm urarsan, neyləyim, biganəsən. (5, I c, səh.165)

***"Burğu – çalğı aləti":***

Doğdu Məğribdən günəş, endi Məsih,
**Burğu** çalındıvü həsr oldu səhih.
Keç kinayətdən ki, rəmz oldu sərih,
Gör ki, müstəhsənmisən, yoxsa qəbih? (5, II c, səh. 265)

***"Çizginmək – fırlanmaq, dolanmaq":***

Kəbənin ehramına irməz hacının dəgməsi,
**Çizginir** dər girdinə, sürtər üzünü daşinə. (5, I c, səh. 51)

***"Edinmək – eyləmək; yayılmaq":***

Könlümün Mənsuri çünkim, zülfünü **edindi** dar,
Yəni ki, Mənsur olan zülfündə bərdar istəməz. (Nəsimi, I c, səh.64)

Ümumiyyətlə, klassik ədəbiyyatımız üçün səciyyəvi sayılan bu tipli sözlər XVIII əsrin sonlarına qədər ədəbi dilimizdə işlək olmuş və böyük sənətkarın əsərlərində də mütəmadi şəkildə işlədilmişdir. Gətirilən faktlarla yanaşı, bəzən qüdrətli şairimizin dilində yalnız ona məxsus sözlərə də rast gəlmək mümkündür. Bunlardan aşağıdakıları qeyd etmək istərdik:

***"Başaqçı" – başaq*** (buğdanın yığılandan sonra yerdə qalan sünbülləri, dənəcikləri) ***yığan, təmizləyən:***

Xırmanında hüsnünün gündür **başaqçı** ay ilə,
Utan, ey nisbət qılan, qaşi-hilali dasinə. (5, Ic, səh.53)

***"Sıymaq – sıyırmaq, götürmək":***

Lövhi-Musa cün üzündən **sıydı**, acıldı niqab,
Sirri-tövhidi əyan etdivü götrüldü hicab. (5, II c, səh. 179)

Məlumdur ki, poeziyanın, şeriyyətin ucalığı, dərinliyi şairin sözdən, onun məna çalarlarınan istifadə məharəti ilə bağlıdır. Poetik fikir bədii söz üzərində qurulur. Bu mənada sözün Nəsimi zirvəsi dedikdə, biz poeziyanın Nəsimi zirvəsini nəzərdə tuturuq.XIV əsrin sonu – XV əsrin əvvəllərində bir şairin "cahana sığmayan" ilhamından qoparaq yaranmış bu söz, poeziya zirvəsi öz əzəmətini dövrümüzə qədər qoruyub saxladığı kimi, inanırıq ki, gələcək nəsillər üçün də hifz edəcək, bənzərsiz gözəllik və vüqar simvolu olaraq qalacaqdır.

**Ədəbiyyat**


1. Azərbaycan ədəbi dil tarixi. Bakı: "Elm", 1991.
2. Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. Bakı: "Maarif", 1979.
3. Əlibəyzadə E. Ədəbi şəxsiyyət və dil. Bakı: "Yazıçı", 1982.
4. Xudiyev N. Azərbaycan ədəbi dili tarixi. Ankara, 1997.
5. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. Bakı: "Lider", 2004.


**НАСИМИНСКАЯ ВЕРШИНА ПОЭТИЧЕСКОГО СЛОВО**

**резюме**


В статье рассказывается о силе поэтического слово Насими. Отмечается, что Насими – великий поэт убеждений, избранный мыслителями мира. Его творчество – это особый этап в развитии нашей классической литературы и нашего литературного языка. Литературное наследие поэта, призывающего человека к духовному очищению и возвышению, также является источником духовной пищи для современного поколения.

**NASIMI PEAK OF THE POETIC WORD**

**summary**

The article talks about the power of the poetic word Nasimi. It is noted that Nasimi - the great poet of conviction, elected by the thinkers of the world. His work is a special stage in the development of our classical literature and our literary language. The literary heritage of the poet, who calls people to spiritual purification and exaltation, is also a source of spiritual food for the modern generation.

## ***NƏSİMİ – 650***

# Məndə sığar iki cahan…

**İmadəddin Nəsimi**

Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü məkanə sığmazam.

Ərşlə fərşü kafü-nun məndə bulundu cümlə çün,
Kəs sözunü vü əbsəm ol, şərhi-bəyanə sığmazam.

Kövni-məkandır ayətim, zatidürür bidayətim,
Sən bu nişan ilən məni, bil ki, nişana sığmazam.

Kimsə gümanü- zənn ilə olmadı həqq ilə biliş,
Həqqi bilən bilir ki, mən zənnü-gümanə sığmazam.

Surətə baxü mə'nini surət içində tanı kim,
Cism ilə can mənəm, vəli cism ilə canə sığmazam.

Həm sədəfəm, həm inciyəm, həşru-sirat əsənciyəm,
Bunca qumaşü- rəxt ilə mən bu dükanə sığmazam.

Gənci-nihan mənəm, mən uş, eyni-əyan mənəm, mən uş,
Gövhəri-kan mənəm, mən uş, bəhrəvü- kanə sığmazam.

Gərçi mühiti-əzəməm, adım adamdır, Adəməm,
Tur ilə künfəkan mənəm, mən bu məkanə sığmazam.

Can ilə həm cahan mənəm, dəhr ilə həm zaman mənəm,
Gör bu lətifəyi ki, mən dəhrü- zamanə sığmazam.

Zərrə mənəm, günəş mənəm, çar ilə pəncü- şeş mənəm,
Surəti gör bəyan ilə, çünki bəyanə sığmazam.

Zatiləyəm sifat ilə, qədriləyəm bərat ilə,
Gülşəkərəm nəbat ilə, bəstə dəhanə sığmazam.

Nara yanan şəcər mənəm, ərşə çıxan həcər mənəm,
Gör bu odun zəbanəsin, mən bu zəbana sığmazam.

Şəhd ilə həm şəkər mənəm, şəms mənəm, qəmər mənəm,
Ruhi-rəvan bağışlaram, ruhi-rəvanə sığmazam.

Tir mənəm, kaman mənəm, pir mənəm, cavan mənəm,
Dövləti-cavidan mənəm, ayinədanə sığmazam.

Gərçi bu gün Nəsimiyəm, haşimiyəm, qureyşiyəm,
Bundan uludur ayətim, ayətə, şanə sığmazam.

# PEDAQOJİ TEXNOLOGİYALAR TƏLİM PROSESİNİN PLANLAŞDIRILMIŞ SİSTEMİ KİMİ

**Sona Sadıqova,**
ADPU-nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru
Sonasadiqova2016@gmail.com



**Açar sözlər:** uşaq, fəal təlim, təfəkkür, bələdçi, problemli vəziyyət, təlim, tədqiqatçı, şagird, bacarıq və vərdişlər;

**Ключевые слова:** ребенок, интерактивное обучение, мышление, фасилитатор, проблемная ситуация, обучение, исследователь, ученик, умения и навыки;

**Key words:** child, interactive learning, thinking, facilitator, problem situation, learning, researcher, student, skills and habits.

Sosial keyfiyyətlər, biliyə yiyələnmələr, pedaqogikanın texnologiya ilə əlaqələndirilməsi görkəmli pedaqoq A.S,Makarenkonun adı ilə bağlıdır. Makarenko hələ ötən əsrin 30-cu illərində pedaqoji texnologiyalar haqqında fikir söyləmiş və onun xüsusiyyətlərini göstərmişdir. A.S.Makarenko öz məşhur "Pedaqoji poema"sında yazırdı ki, bizim pedaqogikamızda aparıcı rolu mənəvi nəsihətlər məntiqi oynadığından texnoloji məntiq əsas yer tutmamış və buna görə də pedaqoji istehsalın ən mühüm şöbələri olan texnoloji proses əməliyyatlarının qeyd olunması, müxtəlif konstruktor ləvazimatarının tətbiqi, formalaşdırma, nəzarət, buraxılış, keyfiyyətə nəzarət və saf-çürük etmə kimi əməliyyatlar aparılmamışdır.

Pedaqogikada pedaqoji texnologiyaların tədqiqatçılar tərəfindən kütləvi tətbiqi keçən əsrin 60-cı illərinin əvvəllərinə təsadüf edir. Bu, ilk növbədə Amerika və Avropa ölkələrində məktəb islahatlarının aparılması ilə əlaqədar olmuşdur. Bu sahədə bir çox Amerika və Avropa alimləri C.Korlle, B.Blum, D.Vruner, Q.Seys, J.Oskarellin, rus pedaqoqları P.J.Qalperin, N.T.Talızina, N.Yanda, J.K.Babanski, P.M.Erdmiyev, V.S.Kukuşin, V.A.Pestpalko, Azərbaycan pedaqoqlarından N.M.Kazımov, B.Ə.Əhmədov, Ə.X.Paşayev, F.A.Rüstəmov və b. göstərmək olar. Bu tədqiqatçılar ayrı-ayrılıqda *təlim texnologiyaları*, *tərbiyə texnologiyaları* anlayışlarını izah etməklə yanaşı, *pedaqoji texnologiya* anlayışına da aydınlıq gətirmişlər.

A.Mehrabov, Ə.Abbasov, Z.Zeynalov, R.Həsənov tərəfindən yazılan "Pedaqoji texnologiyalar" vəsaitində pedaqoji texnologiyalar təhsil, tədris, tərbiyə və s. texnologiyaların sistemli kombinasiyası kimi xarakterizə olunur. Burada yazılır: "Pedaqoji texnologiya mahiyyətinə görə təlim-tərbiyə prosesinin layihələndirilməsinin sistemli metodu kimi səciyyələndirilir".

Göründüyü kimi, pedaqoji texnologiyalar pedaqoji prosesin sistemli, ardıcıl və planlaşdırılmış elə bir hissəsidir ki, burada ardıcıl və qarşılıqlı əlaqəli hərəkət sistemi, dinamiklik vardır. Bu prosesdə tərbiyəçi, müəllim uşaqlar və şagirdlərlə qarşılıqlı fəaliyyətdə bir və ya bir neçə təlim-tərbiyə məqsədi həyata keçirir ki, bu da müəyyən metod və vasitələrin köməyi ilə reallaşır.

1. Pedaqoji texnologiyalar dedikdə, yalnız təlim texnologiyaları nəzərdə tutulur.
2. Pedaqoji texnologiyalar dedikdə, müəllimin texnoloji cəhətdən işləyib, hazırlamış olduğu priyomlar sistemi və tərbiyə metodları nəzərdə tutulur.

Pedaqoji texnologiyalar haqqında irəli sürülən bu baxışların təhlili göstərir ki, problemə yanaşmada yeniliklər, fərqli fikirlər olsa da, bəzi müəlliflər təlim-tərbiyə metodlarını da pedaqoji texnologiya kimi şərh etmiş və pedaqoji texnologiya anlayışının metodika anlayışı ilə eyniləşdirmişlər. Məsələnin mahiyyətinə dərindən fikir verdikdə görünür ki, "metodika" – təlim-

tərbiyə prosesində metod və vasitələrin, təlim-tərbiyə üsullarının məcmusundan ibarətdir. Təlim metodları isə, təlim mərhələlərinə uğun olaraq, müəllimin rəhbərliyi altında uşaqların müəyyən biliklərə, bacarıq və vərdişlərə yiyələnmələri, tərbiyə olunmaları, inkişaf etdirilməsi yollarıdır.

"Tərbiyə metodları müəyyən olunmuş keyfiyyətləri uşaqlarda tərbiyə etmək məqsədilə onların şüuruna, iradəsinə, hisslərinə, davranışına təsir göstərmək üçün nizama salınmış fəaliyyətdir", tərbiyənin nəticələrinə çatmaq üçün tərbiyəçinin (valideynin, müəllimin) istifadə etdiyi yol və vasitələr, üsullar sistemidir".

Respublikamızın təhsil sistemində aparılan islahatlar, tətbiq edilən yeniliklər gənc nəslə vacib olan bir çox zəruri keyfiyyətlərin formalaşmasına geniş imkanlar yaradır. Bir sıra sosial keyfiyyətlər – biliklərə yiyələnmə, yaradıcılıq,müasir elmi-texniki yeniliklərdən baş çıxarmaq, onlardan istifadə etmək, öz qabiliyyətlərini həyata keçirmək bacarıqları və s. bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Təcrübə və tədqiqatlar göstərir ki, XXI əsrdə yaşayacaq və fəaliyyət göstərəcək bu günkü uşaqların yeni dövrün tələbləri baxımından təlim və tərbiyə alması üçün ənənəvi təlim, onun metodları kifayətləndirici deyil. Buna görə də dünyanın bir sıra ölkələrinin qabaqcıl təcrübəsini öyrənməklə fəal təlim metodlarından istifadə etmək və təlim prosesini fəallaşdırmaq, təlim-tərbiyə metodlarını yeniləşdirmək, uşaqlarda fəallığın təmin edilməsinə yönələn fəal, intuitiv iş formalarından istifadə etmək, yeni təlim-tərbiyə texnologiyalarına yiyələnmək və onları tətbiq edə bilmək olduqca vacibdir.

Yeni pedaqoji texnologiyaların tətbiqi təlimin məqsədlərindən çox asılıdır. Belə ki, təlimin nəticəsi onun məqsədləri ilə sıx surətdə bağlı olduğundan hər bir müəllim təlim-tərbiyə prosesində texnoloji prosesləri planlaşdırarkən ilk növbədə bu prosesdə hansı məqsədin olmasını aydın dərk etməli və bütün vasitələrin həmin məqsədin reallaşmasına yönəltməyə çalışmalıdır.

Beləliklə, istər məktəbəqədər təhsil müəssisələrində, istərsə də orta məktəblərdə təlim texnologiyası tədris prosesinin təşkilati-metodik aləti kimi çıxış edir, bu prosesin həyata keçirilməsinin qarşılıqlı asılılığını və mexanizmini özündə birləşdirir.

Təlim prosesində şagirdlərin tədris-idrak fəaliyyətinin təşkili, idarə olunması fəaliyyətə stimullaşdırıcı istiqamətləndirmənin təşkili, öyrədici və inkişafetdirici fəaliyyət üçün şəraitin yaradılmasınan çox asılıdır.

Digər bir asılılıq müəllimin pedaqoji ustalığı, məharəti ilə bağlıdır. Belə ki, müəllim yüksək peşəkarlığı, didaktik bacarıqlara təlim-tərbiyənin nəzəri və praktik biliklərinə yiyələndikcə onun texnoloji proseslərə dair pedaqoji təfəkkürü də bir o qədər genişlənir. Keçiriləcək məşğələnin, dərsin, təşkil edəcəyi tərbiyəvi tədbirin ən xırda ünsürlərinə belə yaradıcı münasibət bəsləyir, onu bir növ yenidən "qurur" və öz potensial qabiliyyətlərini üzə çıxarır. Onun başqa tərbiyəçilərdən, müəllimlərdən fərqli cəhətləri də məhz bu fərdi üslubda, pedaqoji problemlərin həllində özünəməxsus texnologiyalardan istifadə etməsində, yəni "müəllif texnologiyaları"da özünü göstərir. Professor M.İlyasov "Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri" adlı monoqrafiyasında qeyd edir ki, müəllimin təlim-təhsil fəaliyyəti onun başlıca vəzifəsinin, yəni təhsilverici vəzifəsinin reallaşdırılmasından ibarətdir. Bu, gənc nəslin bəşəriyyətin min illər boyu toplamış olduğu maddi və mənəvi dəyərlərə yiyələnməsi məqsədilə təşkil edilən xüsusi fəaliyyət və idrak prosesidir. Bu proses nəticəsində böyüməkdə olan nəsil elmi biliklər sisteminə, həyati bacarıq və vərdişlərə, davranış mədəniyyətinə, müxtəlif fəaliyyət növlərinə yiyələnir və böyük həyata hazırlaşırlar. Məqsədyönlü və məzmunlu təşkil edilən təlim prosesi təhsilalanlara əqli, əxlaqi, emosional, iradi, əmək, iqtisadi və s. keyfiyyətlər aşılamaqla yanaşı, onlarda dünyanı dərk etmək, həyatı dəyərləndirə bilmək bacarıqları formalaşdırır və gələcək həyatda lazım olacaq bir sıra keyfiyyətlər aşılayır.

N.V.Kuzmina göstərir ki, müəllimin öz fənnini imkanlarına olan inamı onun pedaqoji fəaliyyətinin səmərəsinin kəmiyyətini təyin edir.

Yüksək peşəkarlığa malik olan, öz işinə məsuliyyətlə yanaşan, səriştəli müəllimlər müəyyən problemləri həll etmək üçün uşaqları axtarışa, yollar tapmağa, problemləri həll etmək

sәriştәsinә yiyәlәnmәyә istiqamәtlәndirirlәr. Çalışırlar ki, qarşıya qoyulmuş problem uşaqların fәal iştirakı ilә hәll edilsin.

Tәlim-tәrbiyә, tәhsil prosesinin tәşkili texnologiyası bilik, bacarıq vә vәrdişlәrin mәnimsәnilmәsinin psixoloji vә idraki әsasları ilә, yәni qavrama, anlama, dәrketmә, ümumilәşdirmә, möhkәmlәndirmә vә tәtbiqetmә mәrhәlәlәri ilә sıx bağlı bir prosesdir.

Ənәnәvi tәlim formasında aparılan dәrslәrlә interaktiv dәrslәrin müqayisәli tәhlili göstәrir ki, fәal tәlim metodu ilә tәşkil olunan dәrslәrin imkanları daha genişdir. Fәal tәlim dialoq, qarşılıqlı fәaliyyәt, әmәkdaşlıqla sәciyyәlәnir. Bu tәlimdә istifadә olunan metod vә priyomlar tәlim-tәrbiyә, tәdris prosesini xeyli intensivlәşdirir, onu uşaqlar üçün maraqlı edir, onların fәallığını artırır, tәlimin inkişafetdirici aspektini xeyli güclәndirir. Tәlim prosesindә inkişafetdirici metodların tәtbiqi müasir dövrdә fәaliyyәtә, fәal ünsiyyәtә, tәlim vә tәrbiyәnin mәqsәd vә vәzifәlәrinә yeni münasibәti әks etdirir.

Fәal tәlim metoduna aşağıdakı spesifik xüsusiyyәtlәr aiddir: tәlimin subyekt-subyekt xarakteri daşıması, uşaqların fәal öyrәnmә mövqeyi, tәfәkkürün müstәqilliyi, dәrsin әvvәlindә problemli vәziyyәtin yaradılması, iştirakçıların fәallığı vә tәlim prosesinin problemin hәllinә yönәldilmәsi, düşündürücü vә istiqamәtlәndirici suallar vasitәsilә keçirilmәsi, dәrsin dialoq şәklindә aparılması, әks-әlaqәnin yaradılması, әmәkdaşlıq vә qruplarda birgә fәaliyyәt, hәyati mәqsәdlәrә nail olmaq üçün biliklәrin yaradıcı tәtbiqi vә s.

Fәal tәlimdә istifadә olunan bir çox tәlim metodları vardır, lakin bunlardan istifadә edәrkәn fәnnin xüsusiyyәtlәri, mövzuya vә mәqsәdә uyğunluğu nәzәrә alınmalıdır.

Fәal tәlim tәfәkkürә әsaslanan tәlim olduğundan burada başlıca mәqsәd dәrsin bütün mәrhәlәlәrindә uşaqların fәallığının tәmin edilmәsi, mәntiqi, yaradıcı vә tәnqidi tәfәkkürün inkişafı vә müәllimin bәlәdçiliyi ilә axtarılan nәticәnin uşaqların özlәri tәrәfindәn әldә edilmәsinә nail olmaqdır. Klassik alman pedaqoqu A.Disterverq yazırdı: "Pis müәllim hәqiqәti tәqdim edir, yaxşı müәllim isә onu tapmağın yollarını öyrәdir".

Fәal dәrsin quruluşu tәdqiqat prosesinin mәrhәlәlәrini xatırladır. Fәal tәlim prosesindә yeni mәlumatlar uşaqların özlәri tәrәfindәn, tәdqiqat nәticәsindә әldә edilir.Tәdqiqetmә mәrhәlәsi yaradıcı xarakter daşıyır vә uşaqların fәallığı ilә hәyata keçirilir. Refleksiya mәrhәlәsindә şagird artıq öz tәdqiqat fәaliyyәtinin әsas mәrhәlәlәrini dәrk etmiş olur.

Fәal tәlimin bütün mәrhәlәlәrindә müәllim *fasilitator* (bәlәdçi) kimi çıxış etsә dә, bu mәrhәlәlәrin hamısında tәlim prosesi elә qurulur ki, sanki hәr şeyi şagirdlәr özlәri hәll edirlәr. Unutmaq olmaz ki, burada müәllimin pedaqoji ustalığı, hadisә vә proseslәri dәrindәn bilmәsi, dәrsin mәrhәlәlәri arasında әlaqә vә keçidin yaradılması, uşaqların idrak fәaliyyәtinin idarә edilmәsindә mühüm rol oynayır. Əks halda dәrsdә yaradılan fәallıq da, uşaqların fәaliyyәti dә sәmәrәsiz olacaq.

Dәrs elә bir mürәkkәb prosesdir ki, burada hәyata keçirilәn tәlim birbaşa idrak proseslәri ilә әlaqәlәnir vә onun inkişafını şәrtlәndirir, lakin bunlar özbaşına yaranmır. Bu zaman müәllimin tәlim prosesini idarә edә bilmәsi xüsusi rol oynayır. Burada kommunikativ vә tәşkilatçılıq bacarıqları müәllimin kömәyinә gәlir.

Müәllimin öz fәnninә maraq yarada bilmәk qabiliyyәti çox vaxt şagirdlәrin müәllimlik peşәsinә maraq göstәrmәlәrinә dә güclü tәsir edir. Tәlim prosesindә uşaqların idrak fәaliyyәtinin idarә edilmәsindә başlıca amillәrdәn biri bütün mәşğәlә boyu uşaqların diqqәtinin sәfәrbәr edilmәsi vә tәlim materialına yönәldilmәsidir: K.Q.Uşinski yazırdı: "Diqqәt şüurumuzun elә yeganә qapısıdır ki, zehnimizdә olan hәr bir şey mütlәq buradan keçir. Ona görә dә şagirdlәri tәlim prosesindә hәmin qapını açıq saxlamağa alışdırmaq lazımdır". Müәllim dәrs prosesindә uşaqların diqqәtini nә qәdәr çox öyrәnmәyә, bilmәyә, mәhsuldar fәaliyyәtә yönәldәrsә, bu zaman nәticә daha yüksәk olar. Hәr bir uşağın marağının tәmin edilmәsi, onların tәlim prosesinin iştirakçısına çevrilmәlәrinә nail olunması, müәllim-uşaq әmәkdaşlığının düzgün tәşkili vә nәhayәt, uşaqların bilavasitә özlәrinin hәll olunacaq probleminin axtarışına qoşulmasının tәmin edilmәsi onların idrak fәallığının artmasına vә düzgün formalaşmasına sәbәb olur.

Bunun üçün istər məktəbəqədər təhsil müəssisələrində, məktəblərimizdə, istərsə də ali təhsil müəssisələrində uğurla həyata keçirilməyə başlanılan, bir çox qabaqcıl müəllimlərin təcrübəsində özünün səmərəliliyini təsdiq edən fəal təlim metodlarından istifadə mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, bütün öyrədici mühit yalnız uşaqların məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına istiqamətləndirilməlidir. Elə təlim metodları seçilməlidir k, onların tətbiqi uşaqlarda təlimə maraq oyatsın, fikri fəallıq yaratsın və həyati bacarıqlar formalaşdırsın. Fəal təlim metodlarının tətbiqi də məhz bu məqsədə xidmət edir. Respublikamızın məktəbəqədər təhsil müəssisələrində fəal təlim metodlarının tətbiqi təhsil islahatının əsas məqsədlərindən biridir. Fəal təlim metodlarının tədris prosesinə daxil edilməsi uşaqların qeyri-fəallığının aradan qaldırılmasına, lazımi təfəkkür xüsusiyyətlərinin, yaradıcılıq qabiliyyətlərinin formalaşdırılması və təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradaraq, Azərbaycan Respublikası Təhsil İslahatı Proqramında göstərilən prinsipləri həyata keçirməyə imkan verir.

Fəal təlimin tətbiqi məktəbəqədər təhsil müəssisələrində şəraiti dəyişərək aşağıdakı qabiliyyətlərə malik şəxsiyyətin formalaşmasına imkan yaradır:

• biliklərə müstəqil yiyələnmək və yenilərini əldə etmək, bu bilikləri yaradıcılıqla tətbiq etmək;
• onlardan həyatda məqsədlərinə çatmaq üçün istifadə etmək;
• problemlərin həllində öz yoldaşları ilə əməkdaşlıq etmək;
• öz qabiliyyətlərini gerçəkləşdirmək üçün yollar axtarmaq və s.

Fəal təlim metodu tərbiyəçi və uşağın əlaqəsi, ünsiyyət prosesi deməkdir. Bu zaman tərbiyəçi tərəfindən problem qoyulur, onun həlli, mənimsənilməsi üçün şərait yaradılır. Uşaqlara yol göstərir, istiqamət verir və müəyyən çətinliklər meydana çıxarsa, onlara yardımçı olur, bir fasilitator kimi əlaqələndirici funksiyalarını yerinə yetirir. Qoyulmuş problemin həlli uşaqların hər bir fəaliyyətinin qiymətləndiriləcəyinə, ciddi, obyektiv və səmimi münasibətlərin olacağına inam nəticənin effektivliyinə zəmin yaradır. Belə bir şəraitdə uşaqlarda öyrənməyə meyil artır. Öyrənməyə meylin, fəallığın artması, təfəkkürün inkişafına xidmət edən produktiv metodlardan istifadə nəticəsində təlimin səmərəliliyi xeyli yüksəlir. Belə yanaşma zamanı təlim yalnız uşaqların yaddaşının yeni biliklərlə zənginləşməsinə deyil, həmçinin onların müstəqil düşünmək qabiliyyətinin və müstəqil olaraq bilik əldə etmək bacarığının inkişafına xidmət edir.

Yeni təlim metodlarından istifadə məşğələnin xarakterini dəyişir, uşaqları tədqiqatçılığa sövq edir, onları təlimin subyektinə çevirir. Bu metodların üstün cəhətlərindən biri də elə onların demokratik, mütəhərrik və konservatizmdən uzaq olmasıdır. Bu, hətta ən zəif, sakit, utancaq, melanxolik tipli uşaqların da fəallaşmasına gətirib çıxarır.

Ölkəmizdə həyata keçirilən təhsil islahatının məqsədi təlim prosesinin səmərəliliyini təmin etməklə yanaşı, milli və ümumbəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran, fəal və təşəbbüskar şəxsiyyət yetişdirməkdir. Bu proses ənənəvi təlimin təkmilləşməsinə, təhsildə yeni pedaqoji təfəkkür metodlarından istifadəyə ehtiyac yaradır. Yeni pedaqoji təfəkkür əsas diqqətin ilk növbədə uşaqların intellektual və yaradıcı inkişafına, məntiqi və mücərrəd təfəkkürün formalaşmasına, təhliletmə, əqli nəticə çıxarma, ümumiləşdirmə, bacarıq və vərdişlərin təşəkkülünə və s. kimi digər mühüm pedaqoji və psixoloji aspektlərə yönəldilməsini tələb edir. Bu vəzifənin uğurla həyata keçirilməsi təlim prosesinin səmərəli qurulmasından, öyrədənlərin və öyrənənlərin təlim fəaliyyətindən, bu fəaliyyətin bilavasitə həyata keçirdiyi məşğələnin təşkilindən həlledici dərəcədə asılıdır.

Hazırda yeni yanaşmaların tətbiqi təlim-tərbiyə prosesinin yüksəldilməsi vasitəsi olub, dünya təhsil sistemində təhsil sisteminin müasirləşməsinin əsas strateji istiqamətlərindən biri kimi qiymətləndirilir. Son illərdə təhsil sistemində aparılan islahatlar onun məzmununun təkmilləşməsini, fəal təlim metodlarının tətbiqini zərurətə çevirir.

Bu mənada fəal təlim metodlarının məşğələlərdə tətbiqi məsələlərinin pedaqoji aspektdən öyrənilib ümumiləşdirilməsi və qabaqcıl təcrübənin yayılması probleminin aktuallığını daha da artırır.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında təhsil üzrə Dövlət Strategiyası. Bakı, 2013.
2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: "Hüquq ədəbiyyatı",2010.
3. İlyasov M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri. Bakı: "Elm və təhsil", 2018.
4. Mehrabov A. O. Səriştəli müəllim hazırlığının problemləri. Bakı: " Elm və təhsil", 2015.
5. Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov A. Pedaqoji texnologiyalar. Bakı, 2006.



**ПЕДАГОГИЧЕСКИЕ ТЕХНОЛОГИИ КАК ПОСЛЕДОВАТЕЛЬНАЯ ПЛАНИРОВАННАЯ СИСТЕМА УЧЕБНОГО ПРОЦЕССА**

**резюме**

В статье рассказывается о педагогических технологиях, как о последовательной планированной системе учебного процесса. Отмечается, что эти технологии направлены на устранения пассивности детей, развивают навыки мышления, креативности и служат повышению качества обучения, а также способствуют реализации принципов индивидуализации, дифференсации, интеграции предусмотренный Программой Реформ Образования Азербайджанской Республики. Однако при применении педагогических технологий следует учитывать особенности занятия и их соответствие теме и целям занятия.



**PEDAGOGICAL TECHNOLOGIES AS A CONSISTENT PLANNED EDUCATIONAL PROCESS SYSTEM**

**summary**

The article describes pedagogical technologies as a consistently planned system of the educational process. It is noted that these technologies are aimed at eliminating the passivity of children, develop thinking skills, creativity and serve to improve the quality of education, as well as contribute to the implementation of the principles of individualization, differentiation, integration provided for by the Education Reform Program of the Azerbaijan Republic. However, when applying pedagogical technologies, one should take into account the particularities of the lesson and their correspondence to the theme and objectives of the lesson.


# PEDAQOJİ KADR HAZIRLIĞININ PERSPEKTİVLƏRİ


**Sevil Cəmilzadə,**
ADPU-nun Məktəbəqədər təhsilin pedaqogika və
metodikası kafedrasının dosenti,
pedaqogika üzrə fəlsəfə doktoru





**Açar sözlər:** ali pedaqoji təhsil, tədris, kadr hazırlığı, şəxsiyyət;

**Ключевые слова**: высшее педагогическое образование, учеба, кадровая подготовка, личность;

**Key words:** higher pedagogical education, teaching, preparation of cadres, the person.


Ümummilli lider H.Əliyev daim öz çıxışlarında təhsilin keyfiyyətinin artırılması, bu sahənin mükəmməlləşdirilməsi məsələsinə toxunaraq bildirmişdir ki, müəllimlər gərək yerlərində saymasın, nə qədər bilikli olsalar da, daim öz təcrübələrini artırsınlar. Dünya dinamik inkişafdadır. Bu dinamik inkişaf sürətli yeniliklər meydana çıxarır. Ona görə də təbiidir ki, müəllim 10–20 il əvvəlki səviyyəsi ilə təhsilimizin bugünkü tələblərini təmin edə bilməz. Müəllim öz üzərində daim işləməli, dünyanın elmi-texniki tərəqqi sahəsindəki nailiyyətlərindən xəbərdar olmalı, onları şagirdlərə çatdırmalıdır.

Təhsilin məzmununun yeniləşməsi bu gün aktual problem kimi qarşıda durur və bu sahədə müəyyən işlər görülür. Pedaqoji prosesin yüksək səviyyədə təşkili, təlim prosesinə yeni metod və priyomların, pedaqoji texnologiyaların tətbiqi, ənənəvi metodların yenidən qurulması təlimin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Bu vəzifələr baxımından müstəqil Azərbaycan Respublikasının təhsil sistemində, onun məzmununda, forma və metodlarında milli-mənəvi, ümumbəşəri dəyərlərə əsaslanmaqla ciddi dəyişikliklər aparılır.

Respublikamızı inkişaf etmiş ölkələr səviyyəsinə qaldırmaq üçün dövlətin qurucuları olan gənc nəsli əqli cəhətdən yetkin, zəngin elmi biliyə, geniş və hərtərəfli dünyagörüşünə malik, müstəqil fəaliyyət göstərib, hadisələri dərk etməyi, bu hadisələrin axarını sərfəli istiqamətə yönəltməyi, müstəqil qərarların qəbulunu bacaran şəxsiyyət, müasir təfəkkürə malik vətəndaş yetişdirmək tələb olunur. Bir həqiqət hamıya məlumdur ki, bu işi görənin qabiliyyət, ixtisas, peşəkarlıq səviyyəsindən danışarkən ilk növbədə keyfiyyət göstəricilərini qeyd etmək lazımdır. Buna görə də müəllimlər öz biliklərini artırmalı, tədrisə münasibətlərini dəyişməli, ona yeni təfəkkür zəminində yanaşmalıdırlar. Hər bir müəllım öz fəaliyyətində bu cəhətləri nəzərə almalı, lazım gəldikdə yeni təlim texnologiyaları barədə tələbələrə məlumat verməlidir. Bu günün məzunu sabah müvafiq müəssisələrdə yeni təlim texnologiyaları ilə işləyəcəkdir. Ona görə də ali məktəblərdə bu məsələ diqqət mərkəzində olmalıdır. Təlim-tərbiyə işlərinin səmərəliliyini artırmaq və keyfiyyətini yüksəltmək pedaqoji kollektivlərin qarşısında duran ən mühüm problemlərdən biridir.

Bu baxımdan yeni təlim metod və texnologiyaları anlayışı ali məktəb təcrübəsində mühüm yer tutmalıdır. Təhsilin demokratikləşdirilməsi, yeni pedaqoji təfəkkürün formalaşdırılması təlim metod və texnologiyalarının da inkişafına zəmin yaradır, tələbələrin müstəqilliyinə, fəallığına səbəb olur, pedaqoji yaradıcılığa təkan verir.

Yeni təlim metod və texnologiyalarının tətbiqi nəzəri əsaslara (prinsiplərə, pedaqoji-psixoloji, sosioloji, didaktik və s. tələblərə) əsaslanaraq həyata keçirildikdə elmi mahiyyət kəsb edir, zənginləşir.

Yeni təlim metodlarından istifadə tədris prosesinin təşkilinə, tərbiyəçi-uşaq münasibətlərinin dəyişdirilməsinə, onların arasında pedaqoji əməkdaşlığa, hüquq və azadlıqlarına hörmətə əsaslanan yeni münasibətlər yaradılmasını tələb edir.

Pedaqoqlarımızın bir hissəsi kadr hazırlığında ənənəvi təlim metodlarına üstünlük verir, bəziləri təlimdə yeni metod və texnologiyaların tətbiqini zəruri sayır, digərləri isə təhsildə baş verən yenilikləri artıq iş hesab etməklə, onların tələbəyə, müəllimə heç nə vermədiyini qeyd edirlər. Belə düşünənlər ciddi səhvə yol verirlər. Onu bilmək lazımdır ki, yeni təlim metod və texnologiyalarından istifadə müəllimdən yaradıcılıq əzmi, novatorluq, pedaqoji prosesə yaradıcı yanaşma bacarığı tələb edir.

Yeni metod və texnologiyaları müəllim öz bacarığı ilə yaradır. Professor B. Əhmədov haqlı olaraq qeyd edir ki, məsələ heç də metodun adında deyil, metodlar sistemindən istifadə etmək məharətində, onları düzgün əlaqələndirməkdədir.

Əsas odur ki, metod təlimdə yüksək səmərə əldə edilməsinə şərait yaratsın. Ənənəvi təlim metodlarının təkmilləşdirilməsi, ona yeni məzmun verilməsi, təlimin prinsip və metodlarından daha səmərəli istifadə olunması yeni təlim metodlarının tətbiqinə şərait yaradır, dərsə yeni didaktik məzmun, müəllimin fəaliyyətində optimal variantların seçilməsinə zəmin yaradır. Buna görə də pedaqoji kadr hazırlayan ali məktəb müəllimlərinin üzərinə mühüm vəzifələr düşür. Pedaqogika, didaktika, dərsin quruluşu, mərhələləri, tipləri, dərsə verilən müasir tələblər haqqında danışarkən bu məsələlərə təkcə ənənəvi metodlar baxımından yox, həm də yeni təlim texnologiyaları nöqteyi-nəzərindən yanaşmaqla müqayisələr aparılmalı, onların üstün cəhətləri izah edilməlidir.

Müasir dünya həyatın bütün sahələrində, o cümlədən, təhsildə baş verən dəyişikliklərlə zəngindir. Bu, insanda sosial istiqaməti formalaşdırmaq, baş verən dəyişikliklərə uyğun reaksiya vermək, yeni şəraitdə özünümüəyyənetmə, özünütənqid kimi xüsusiyyətləri üzə çıxarmaq üçün vacibdir. Bununla əlaqədar istənilən səviyyəli tədris müəssisələri sosial dəyişikliklərdən asılı olmadan inkişafa uyğun, təhlildə müstəqillik və təşəbbüs göstərməyə hazır olan yaradıcı şəxsiyyətə istiqamətlənməlidir. Belə şəxsiyyəti isə yalnız yaradıcı pedaqoq tərbiyə edə bilər. Tədris müəssisələrinin təcrübəsini yenilikçi-pedaqoq daha da fəal təmin edir. Cəmiyyət kütləvi innovasiyaları yaradıcılığın yüksək səviyyəsi kimi dəstəkləməyə daha çox meyil göstərir.

Alimlər bununla əlaqədar fikirlərini belə izah edirlər: innovasiya fəaliyyətinin cəlbediciliyi yalnız onun məhsuldar nəticələrinin hesabına deyil, həm də uşağın yaradıcı pedaqoqlar tərəfindən fənnə marağının artırılmasından asılı olur. Onların iddiaları daha da obyektivləşir və attestasiya metodu səmərəli olur.

İnnovasiyalar yeni elmi nailiyyətlərin, ideya və konsepsiyaların təcrübəyə daxil edilməsinə imkan verir. Pedaqoqun innovasiya fəaliyyətində onun qüvvəsi optimallaşır, bacarıq və fərdi keyfiyyətləri aşkara çıxır.

Məhz bu əsasda təhsilə fərdi yanaşma, pedaqoqların, uşaqların şəxsiyyət kimi formalaşmaları və inkişafı mümkün olur. Buradan da innovasiya fəaliyyəti təhsil sisteminin mükəmməlləşdirilməsində əsas istiqamət kimi çıxış edir. Bunun üçün aşağıda münasib şərtlər göstərilmişdir:

1. Həm beynəlxalq, həm də ölkənin təhsil təcrübəsində özünəməxsus innovasiya "partlayışı" müşahidə olunur. Pedaqoqların fəaliyyətinin bütün sahələrində – təhsilin məzmununun müəyyənləşdirilməsində, tədris metodlarında, idarəolunma metodlarında və s. dəyişikliklər həyata keçirilir.

2. Müəllimlərin əksəriyyəti təhsil islahatlarına və öz həmkarlarının yaradıcı axtarışlarına müsbət yanaşır.

3. Təhsildə innovasiyaların tətbiqi bütün səviyyələrdə pedaqoji sistemlərin səmərəlilik meyarına çevrilir.

4. Pedaqogika elmi məqsədyönlü surətdə innovasiya nəzəriyyəsini, pedaqoji yaradıcılığın əsaslarını, tədqiqatları inkişaf etdirir.

İntellektual potensialın inkişaf etdirilməsi və onun qorunub saxlanması, hər bir dövlətin öz qarşısına qoyduğu əsas məqsəddir. Bu, ölkənin gələcəyinə qayğı göstərmək deməkdir.

Bu gün məktəbəqədər təhsil müəssisələrinin fəaliyyətinin yenidən qurulmasına iqtisadi, sosial-mədəni, normativ-hüquqi sənədlər kompleksi imkan yaradır. Bununla əlaqədar olaraq təhsil müəssisələrinin idarəetmə sistemi çərçivəsində cəmiyyətdə baş verən hadisələri özündə əks etdirən yeni sistemin yaradılması vacibdir.

Müasir cəmiyyətin inkişafı təhsilin qarşısında yeni tələblər qoyur. Bunu nəzərə alaraq, yetişməkdə olan nəslin imkanlarını inkişaf etdirmək, ona elmin əsaslarını öyrətmək, fiziki, əqli, intellektual imkanlarını, meyil, maraq və idrak qabiliyyətlərini nəzərə alaraq uşaqları şəxsiyyət kimi tərbiyə etməkdən ibarətdir.

Təcrübəyə əsasən bu qənaətə gəlirik: təhsil o zaman keyfiyyətli olur ki, tədris prosesini istiqamətləndirən və onu inkişaf etdirən müəllimlərin bilikləri kifayət qədər təkmilləşdirilmiş və yeniləşdirilmiş olsun, müasir tələblərə cavab versin.

Təhsilin demokratikləşdirilməsi, dünya təhsil sistemınə inteqrasiya tədris müəssisələrində müasir pedaqoji prosesin, texnologiyaların təşkili yeni pedaqoji təfəkkürün formalaşmasına təkan verir. Bu vəzifələri yerinə yetirmək üçün müasir tələblərə, yeni pedaqoji təfəkkürə cavab verən tərbiyəçilərin hazırlanması vacibdir. Təhsil sisteminə tətbiq edilən müasir pedaqoji texnologiyaların, innovasiyaların məqsədi gələcək kadrların intellektual və peşəkar inkişafına təkan verməkdir.

Əgər əvvəllər müəllim əsas informasiya mənbəyi sayılırdısa, indi o, informasiya mənbələri ilə tələbə arasında vasitəçi funksiyasını yerinə yetirir. O, tələbəyə müxtəlif təyinatlı informasiya mənbələri ilə səmərəli iş metodlarını, proseslərini öyrətməlidir. Bütün bu xüsusiyyətlər ali təhsilin, o cümlədən, pedaqoji təhsilin məzmun və texnologiyalarını təkmilləşdirməyi tələb edir. Müasir pedaqoji təhsilin məqsədi informasiya və innovasiyalar cəmiyyətinin tələblərinə uyğun müəllim kadrları hazırlamaqdır.

Bütün bunlar onu deməyə əsas verir ki, təhsil sistemində artıq yeni düşüncə tərzi, pedaqoji prosesə müasir yanaşma bərqərar olmalı, kadr hazırlığına üstün mövqedən yanaşılmalıdır. Təlim-tərbiyə sisteminə tətbiq edilən yeni təlim texnologiyalarının, innovasiyaların son məqsədi gələcək kadrların ümumi intellektual inkişafına təkan verməkdir.

Bütün bunlar onu göstərir ki, kadr hazırlığı çox ciddi və zəruri məsələdir. Bu məsələ hamını düşündürməli və narahat etməlidir, çünki kadr hazırlığı lazımi səviyyədə olmasa, təhsilin keyfiyyətindən danışmaq qeyri-mümkündür.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramı. Bakı, 1999.
2. Əhmədov B. Təlim metodları və onların sırasında evristik müsahibənin yeri. Bakı, "Azərbaycan məktəbi" jurnalı, 1983, №6.
3. "Təhsil problemləri" qəzeti, 2002, 31 oktyabr, 6 noyabr.
4. Veysova Z. Təlim-tərbiyə prosesinin xüsusiyyətləri. "Azərbaycan müəllimi" qəzeti, 2002, 9–16 may.
5. KərimovY. İbtidai təlimdə inteqrasiya. "Azərbaycan müəllimi" qəzeti, 2001, 6–12 oktyabr.

**ПЕРСПЕКТИВЫ И ОБЯЗОННОСТИ ПОДТОВКИ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ**
**резюме**

В статье рассказывается о перспективах и обязанностях подготовки педогогических кадров. Отмечается, что способы нового педагогического мышления должны основываться к педагогическому процессу в системе нового оброзования. Нельзя говорить о качестве обучения и образования, если подготовка кадров не будет в нужном уровне.

**PROSPECTS AND RESPONSIBILITIES OF TRAINING PEDAGOGICAL PERSONNEL**
**summary**

The article describes the prospects and responsibilities of training pedagogical personnel. It is noted that the methods of the new pedagogical thinking should be based on the pedagogical process in the system of new education. It is impossible to say the quality of training and education, if training is not at the right level.

# "YENİ TƏLİM TEXNOLOGİYALARI" ANLAYIŞINA BİR NƏZƏR

**Esmira Məmmədova,**
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
pedaqogika üzrə fəlsəfə doktoru, baş müəllim



**Açar sözlər:** interaktiv təlim, tədqiqat, metod və priyomlar, təlim texnologiyaları ;
**Ключевые слова:** интерактивный метод обучения, исследование, методы и приемы, технология;
**Key words:** interactive method of teaching, research, methods and techniques, the types of lessons, technolgies.

Müasir dövrdə yeni texnologiyaların, təlim metodlarının tətbiqi müəllimin, onun əməyinin, nəticə etibarilə, şagirdlərlə iş metodlarının da əsaslı şəkildə dəyişməsini tələb edir. Şagirdlərin bilik almaq, müstəqil axtarışlar aparmaq, yaradıcı fəaliyyət göstərmək, yaddaşa, təfəkkürə istinad etmək, eyni zamanda öyrənmək maraqlarına nəzarət və qiymətləndirməyə münasibətləri dəyişməli, fəaliyyətləri yenilənməlidir.

Müəllimin və dərsliklərin az qala yeganə informasiya mənbəyi hesab olunduğu vaxtlar çoxdan keçib.İndi mətbuat, radio, televiziya, internet şagirdlərə coşqun informasiya seli verir. Bütün bunlar, ağılla yanaşıldıqda, pedaqoji vəsait arsenalına, müəllimin köməkçisinə çevrilə bilər.

Keçən əsrin əvvəllərində texniki inqilab baş verdi, əsrin ortalarında isə təlimin texniki vasitələrindən istifadə geniş vüsət aldı. Bu dövrdə pedaqogikada təlim prosesini "texnolojiləşdirmək" cəhdləri çox olmuşdur. XX əsrin ikinci yarısınadək təlimdə müxtəlif texniki vasitələrdən istifadəyə diqqət yetirilmişdir. O zaman bəzi pedaqoqlar belə hesab edirdilər ki, texnologiyalar kütləvi təlim təcrübəsini dəyişəcək, hər şey yenidən qurulacaqdır. Belə şəraitdə müəllimə o qədər də ehtiyac olmayacaq.

Bu gün də dünya pedaqogikasında təlimin texniki vasitələrindən, onun təlimedici imkanla-

rından maksimal dərəcədə istifadə olunur. İnformasiyanın həcminin artması, texniki vasitələrin fərdi iş imkanları verməsi müasir mərhələdə ənənəvi kütləvi informasiya vasitələrindən (tədris radiosu, televiziya verilişləri) yeni informasiya texnologiyalarına (elektron hesablama maşınları, kompüter sistemi, mikroelektron qurğular) keçidə əsaslanır.Tədris prosesinin texnikiləşdirilməsinin tərəfdarları təlimin səmərəliliyinin yüksədilməsinin səbəbini həmin vasitələrdən istifadədə görürlər.

Hələ keçən əsrin 50-ci illərinin ortalarında bütövlükdə təlimin qurulmasında texnoloji yanaşmaya üstünlük verilməyə başlandı. Pedaqoji metodların texnologiyası, başqa sözlə, tədris prosesinin qurulması – *təlim texnologiyaları* anlayışı meydana çıxdı. Bunun ilk övladı *proqramlaşdırılmış təlim* oldu. Onun xarakterik əlaməti təlim məqsədinin dəqiqləşdirilməsi idi. İlk on ildə proqramlaşdırılmış təlimin nəticələrini Amerika pedaqoqu U.Şrammın dedikləri ilə qısa şəkildə belə şərh etmək olar: "Proqramlaşdırılmış təlim bir növ avtomatik repetitordur. O, şagirdləri 1) Qısa, məntiqi, əlaqəli addımlarla irəli aparır; 2) Demək olar ki, səhv buraxmır; 3) Düzgün cavablar verir; 4) Nəticəni çatdırmaq yolu ilə bilikləri tez möhkəmləndirir; 5) Cavaba ardıcıl yaxınlaşmaqla hərəkət edir" [3, səh.171]. Bu isə təlimin məqsədidir.

XX əsrin 60-cı illərində təlimə proqramlı yanaşmanı fraqmentlər şəklində deyil, ardıcıl surətdə həyata keçirmək tələbi irəli sürülür. Yayılmış bu nöqteyi-nəzər proqramlaşdırmanı, didaktik materialların hər hansı qaydaya salınmış komplektini tamamilə hazırlanmış hesab etmək kimi qəbul olunur. Tam işlənmiş təlim proqramlarının "texnoloji" anlamı onun əksinə irəli sürülür. O, aşağıdakıları özündə birləşdirir: tədris məqsədli tam komplektin tərtibi; meyarlar, onların ölçülməsi və qiymətləndirmə, təlim şəraitinin dəqiq təsviri. Bütün bunlar tam "təlimedici komplekt" anlayışına uyğun gəlir.

70-ci illərdə sistemli yanaşmanın təsiri tədricən pedaqoji texnologiyaların ümumi quraşdırılmasına gətirib çıxarır: didaktik problemi, tədris prosesini dəqiq verilmiş məqsəd baxımından idarə olunması, təsviri və tərifinə əsaslanmalıdır.

Beləliklə, texniki inqilab texnikanı fəaliyyət sisteminə gətirdi. Texnika elmi-pedaqoji prosesə gəldi. XX əsrin sonlarında Avropada tədrisin texniki vasitələrindən istifadə edilməsi *tədris texnologiyaları* adı ilə geniş yayılmışdır. N.V.Kuzmin yazmışdır: "Təlim texnologiyaları elmilik, sistemlilik, davamlılıq, təlim, tərbiyə və inkişafın vəhdəti, kollektiv xarakterli tədris prosesində şagirdlərin fərdi xüsusiyyətlərinin də hesaba alınması fəaliyyəti və s. əhatə edir [3, səh.172].

"Texnologiya yunan sözü olub, *techne – sənət*, *ustalıq; loqos – elm* sözlərindən götürülmüşdür. Texnologiya istehsalat prosesinin həyata keçirilməsi vasitələri və qaydaları haqqında bilikləri özündə cəmləşdirir. Xalçanın, parçanın toxunması, materialın yun və ya pambıq olması, toxunma qaydası, hansı dəzgahda, necə toxunması, naxışların necə salınması, texnika və əl əməyinin yeri və ilmələrin xarakteri nəzərə alınır. Təsadüfi deyil ki, bu sahədə ali təhsilli texnoloqlar hazırlanır. [3, səh.174]

*Təlim texnologiyaları* geniş məfhum olub, bəzilərinin istəyinə rəğmən, metodla eyniləşdirilə bilməz, məsələn, savad təlimi dövründə hərflərin əl yazısının öyrədilməsi xüsusi texnologiya tələb edir. "D" hərfinin düzgün yazılışını öyrənmək məqsədilə müəllim əl yazısı olan əyani vasitələrdən istifadə edir, yazı taxtasında onun elementlərini yazır və bu elementləri birləşdirmə qaydalarını göstərməklə hərəki fəaliyyətdən istifadə edir. Elementləri yazarkən və birləşdirərkən izahat verir. Şagirdlər hərfin elementlərini birləşdirmək, onu rabitəli – bir dəfəyə yazmaq üzrə məşq edirlər. Bu zaman onların intellektual qabiliyyətləri hərəki bacarıqlarla birləşir. Bununla da "d" hərfinin yazılışının texnologiyası başa çatır.

Bu sadə misal əsasında belə qənaətə gəlmək olur ki, texnologiya, bəzilərinin zənn etdikləri kimi, hər hansı interaktiv metodla əvəz edilə bilməz. Bir çox hallarda təlim texnologiyası hər hansı mövzunun tədrisi prosesində təlimin *cütlərlə, qruplarla, dəyirmi masa* formalarında, kollektiv təşkilini xarakterizə edən vasitə, metod, priyom və müəllim fəaliyyətinin məcmusundan ibarət olur.

Bu gün bütün beynəlxalq nəşrlərdə texnologiyanın yeni anlayışı şərh olunur. Onlara əsasən belə qənaətə gəlmək olur ki, təlim texnologiyaları sadəcə təlimdə texniki vasitələrdən və kompüterdən istifadə demək deyil.O, prinsipləri aşkara çıxarmaq, təhsilin səmərəliliyini yüksəldən faktorları təhlil etmək yolu ilə dərs prosesinin optimallaşdırılması məqsədinə xidmət göstərir. Onun mahiyyəti tədris prosesinin tam idarə olunmasıdır.

Bu gün texnoloji yanaşmanın iki imkanı mövcuddur: ya müəllimi öyrədici qurğularla əvəz etmək, onunla xudahafizləşmək, ya da onun rolunu məsləhətlə, təşkilati vəzifələrlə məhdudlaşdırmaq. Pedaqoji cəmiyyət ikinci tərəfi daha real hesab edir. Burada təlimin mərhələləri üzrə elmi cəhətdən əsaslandırılmış konkret məzmun, məqsədlər, onlara çatmağın metod və vasitələri işlənib hazırlanır.

Hələ K.D.Uşinskinin dövründə pedaqogikanın incəsənət olmasından bəhs edilirdi. İncəsənət xüsusi istedada, intuisiyaya malik adamların əməyi nəticəsində yaranır, inkişaf edir. Texnologiya isə elmə əsaslanır. Deməli, yaxşı müəllim, pedaqoq olmaq üçün elmə əsaslanmaq lazımdır. V.P.Bespalko yazırdı: "Yaxşı, elmı əsaslanmış təlim və tərbiyə texnologiyası pedaqoji ustalıq deməkdir" [3, səh.174].

Elmi cəhətdən əsaslandırılmış təlim texnologiyası fəaliyyətin elmi təhlil üzərində qurulduğunu bildirir. Təlim texnologiyası mükəmməlləşə və dəyişə bilər. N.V.Basova yazırdı: "Təlim texnologiyası... ənənəvi pedaqogikada *fəal metodlu təlim* adlandırılır: bunlar problemli, proqramlaşdırılmış, uyğunlaşan təlimi, işgüzar oyunları əhatə edir, lakin təlim metodları deyil, məhz təlim texnologiyalarıdır ki, o da elmi yanaşmaya, diaqnostik, konkret məqsədə, tələbləri dərk etmə fəaliyyətinin təcrübəsinə, layihələnmə və başqa xüsusiyyətlərə əsaslanır ki, bu, pedaqoji texnologiyalara da xasdır. Belə ki, pedaqoji texnologiyalar bu və ya digər didaktik metodlara əsaslanır. Bu yolla bütün ümumdidaktik metodlardan istifadə oluna bilər" [3, səh.175].

N.V.Basovanın dediyinə görə, bu gün *inteqrativ metod* adlanan bəzi metodlar çoxdan məlum olmuşdur. Onun sözlərindən bu da məlum olur ki, həmin iş formaları metod deyil, texnologiyadır.Texniki vasitələrin mənimsənilməsi nisbətən tez və asan başa gələn prosesdir. Çalışmaq lazımdır ki, müəllimin fəaliyyətində hər hansı texniki vasitə ilə verilmiş vərdişlər avtomatlaşdırılmış olsun.

Beləliklə, pedaqoji fəaliyyət vasitələri bilavasitə metodlarla əlaqədardır. Çox vaxt pedaqoqlar özləri yeni metod yaradırlar. Bununla yanaşı, "metod" və "vasitə" anlayışları üst-üstə düşmür. Belə ki, dərslik təlimin vasitəsidir, onunla iş isə müxtəlif metodlarla aparılır. Hər şey məqsəd, vəzifə və priyomların kompozisiyasından asılı olur.

Metod, öz təbiətinə görə, mürəkkəb və çoxcəhətli anlayışdır. Hər bir metod özündə müxtəlif tərzləri birləşdirir. Tərz metodun tərkib hissəsi, onun bir ünsürüdür. Müsahibə metodu tətbiq olunarkən müəllim müxtəlif tərzlərdən istifadə edir: suallar qoyur, səhv cavabları islah edir, nəticələr çıxarır. Təlim metodları çox (100-dək) olsa da, onların təsnifatında vahidlik yoxdur.Təlimin başlıca məqsədi şagirdlərin şüurunda dünyanın düzgün, dolğun mənzərəsini yaratmaqdan, onların intellektual inkişafını və tərbiyəsini təmin etməkdən ibarətdir. Dünyanın şüurda əks etdirilməsi isə özünəməxsus formalarda–təsəvvürlər, anlayışlar və qanunlar şəklində həyata keçirilir. Təlim metodları məhz bu məqsədə xidmət etməlidir. Təlim metodları müxtəlif ədəbiyyatlarda verilir və onların ən səmərəliləri dərsin, demək olar ki, hər bir hissəsində tətbiq edilə bilər.

Texnika həmişə vasitə olmuş və vasitə olaraq da qalır. Texnika insanı güclü edir, onun əməyini səmərələşdirir, lakin heç vaxt müəllimi əvəz edə bilməz. Bu gün yeni pedaqoji təlim texnologiyaları məktəblərimizə yol açıb və bacarıqlı müəllimlərin fəaliyyətində öz səmərəliliyini nümayiş etdirir..

Texnologiya problemi üzrə Azərbaycanda aparılan araşdırmalar içərisində Rusiya Təhsil Akademiyasının həqiqi üzvü, prof. A.O.Mehrabovun və prof. Ə.Ağayevin fikirləri böyük maraq doğurur. Prof. A.O. Mehrabov problemə geniş planda yanaşmış, texnologiyanın mahiyyətini daha düzgün açmışdır. O, *texnologiya* anlayışını belə izah edir. "Texnologiya ümumi halda ətraf

aləmin öyrənilməsi və müvafiq dəyişikliklərin aparılması, materiallar istehsalı və mənəvi dəyərlər sisteminin formalaşdırılması ilə bağlı insanlar tərəfindən tətbiq olunan, elmi və praktik cəhətdən əsaslandırılmış fəaliyyət sistemidir ” [4, səh.9]. Sonra müəllif təhsil texnologiyalarına müxtəlif yanaşmalar üzərində dayanır. Bu yanaşmalardan biri tədris prosesi üçün müxtəlif metodların, vasitələrin, tədris avadanlığının, təlimin işlənməsi və tətbiqidir. Daha sonra o, pedaqoji texnologiyaların dərs prosesinin bütün komponentlərinin birgə fəaliyyət sistemi olduğunu bildirir. O, təlim texnologiyalarına nisbətən pedaqoji texnologiyaların daha geniş əhatəyə malik olduğunu göstərir.

Bildiyimiz kimi, təlimin səmərəsi, keyfiyyəti metod və vasitələrin düzgün seçilib, tətbiq edilməsi ilə əlaqədardır. Qeyri-səmərəli metodlar və vasitələrlə yüksək təlim-tərbiyə nəticələrinə nail olmaq mümkün deyil. Təlim metodları qarşıda duran didaktik məqsədə nail olmaq üçün istifadə edilən yollara deyilir. Təlim metodu tədris prosesinin ünsürlərindən biri olub, digərləri ilə vəhdətdə çıxış edir. O, təlimin məqsəd və məzmununa xidmət göstərir: məqsəd və məzmun dəyişdikdə metod da dəyişir. Bəs ümumiyyətlə, yeni təlim texnologiyaları dedikdə, nə başa düşülür? Təhsil tədqiqatçılarının araşdırmaları bu metodlarla bağlı apardıqları hansı nəticələrə gətirib çıxarmışdır?

İbtidai siniflərdə yeni pedaqoji texnologiyaların tətbiqində əsas məqsəd şagirdi fəallaşdırmaqdır. Yeni pedaqoji texnologiyaların tətbiqi zamanı təlimin başlıca ideyası nəyi isə birlikdə icra etmək deyil, öyrənməkdir. Bu isə, təbii olaraq, müasir təlim texnologiyalarında metod və vasitələrdən istifadəni tələb edir. Müşahidələr göstərir ki, təlimin keyfiyyətinin yüksəldilməsində müasir təlim texnologiyalarından, metod və vasitələrindən istifadənin daha geniş imkanları vardır. Ona görə də hər bir ibtidai sinif müəllimi müasir təlim metodlarından istifadənin imkanlarını düzgün müəyyənləşdirməyi bacarmalıdır. İbtidai sinif müəllimlərinin onlardan səmərəli istifadə etməsi hazırkı dövrdə zəruri və vacib məsələlərdən biridir. Professor F.B.Sadıqov təlim metodlarından istifadə haqqında belə yazmışdır: “Unutmaq olmaz ki, təlim metodları sinif kontingentinin bütün üzvlərinin fəallaşdırılmasını təmin etdiyi üçün hər bir mövzunun öyrədilməsində bilavasitə səciyyəvi xarakter daşıyan interaktiv metodlardan istifadə edilməsi məqsədəuyğun sayıla bilər” [4, səh.18].

Pedaqoji ədəbiyyatlarda verilən bu xüsusiyyətləri ümumiləşdirərək, belə qruplaşdırmaq mümkündür:

- müəllim tərəfindən dərsin mövzusunu açmaq üçün atılan ilk addım olan problemli vəziyyətin yaradılması;
- problemli vəziyyətin həlli zamanı şagirdlərin tədqiqatçılıq imkanlarının inkişaf etdirilməsi üçün onların mövqelərinin müəyyənləşdirilməsi;
- müəllim tərəfindən verilən yeni biliklərin şagirdlər tərəfindən müstəqil dərk olunması, onların mənasının açılması və mənimsənilməsi üçün şəraitin yaradılması.

Belə imkanlar müasir təlimdə şagirdlərin hərtərəfli düşünmə, müxtəlif problemlərin həlli yollarını sərbəst müəyyənetmə, yaradıcı tətbiqetmə qabiliyyətlərini formalaşdırır. Bunun üçün müəllim yeni təlim texnologiyalarından mövzuya məqsədəuyğun istifadə etməyi öyrənməli və tətbiqini bacarmalıdır.

Müasir dövrdə məqsəd təlimin təşkilində əsas rol oynayır. Pedaqoji fəaliyyətin hər addımı məqsədin necə qoyulmasından asılıdır.Yalnız qarşısına aydın məqsəd qoyan adam uğurla irəliləyə bilər.Təlim məqsədinin müəyyənləşdirilməsi heç də asan iş deyil. Məqsəd hər bir fəaliyyətin xarakterini, iş sistemini formalaşdırır. “Məqsəd insanın şüurlu fəaliyyətinin əvvəlcədən düşünülmüş nəticəsini müəyyən edən kateqoriyadır” desək, yanılmarıq.

Məqsəd – psixoloji baxımdan insan fəaliyyətinin fərz edilən nəticəsinin ideal obrazıdır. Məqsədin müəyyənləşdirilməsi əqli fəaliyyətin funksiyasıdır. “İnsan, fəaliyyətində bu və ya digər məqsədi izləyən, müəyyən motivlərlə hərəkət edən bir şəxsiyyət kimi fəaliyyət göstərir.” [3, səh.25]

Məqsədin pedaqoji aspekti onun tərbiyedici xarakterindən asılıdır. A.S.Makarenko məqsədi müəllimin ən professional, əsas keyfiyyəti adlandırır: “Mən həmişə öz qarşımda məqsədi, cəhd etdiyim, can atdığım nümunəni, idealı görməliyəm”. [3, səh.25]

**Ədəbiyyat**


1. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikası. Bakı: “Nasir”, 2003.
2. Kərimov Y.Ş. Ana dilinin tədrisi metodikasının nəzəri problemləri. Bakı: “Nasir”, 2005.
3. Kərimov Y.Ş. Təlim metodları. Bakı: R.S. “Poliqraf MMC”, 2009.
4. Mehrabov A., Abbasov Ə., Həsənov R. Pedaqoji texnologiyalar (R.Qəndilovun redaktəsi ilə). Bakı: “Mütərcim”, 2006.
5. Rəhimov A.N. Ana dilinin tədrisi metodikası. Bakı: “Nurlan”, 2003.
6. Басова Н. Б. Педагогика и практическая психология. Ростов н/Д: «Феникс», 2000.


**ВЗГЛЯД НА КОНЦЕПЦИЮ НОВЫХ ТЕХНОЛОГИЙ ОБУЧЕНИЯ**

**резюме**


В статье рассказывается о новых технологиях обучения. Отмечается, что интерактивный метод обучения основывается на новые исследования современных знаний. Поэтому активный метод планируется на основе соответсвующего графика. Основой берется ход урока, которая подразделяет мотивацию, проведение исследования, вывод итогов и т.д.


**A LOOK AT THE CONCEPT OF NEW TEACHING TECHNOLOGIES**

**summary**


The article tells about new learning technologies. It is noted that the interactive method of education is based on new studies of modern knowledge. Therefore, the active method is planned on the basis of the corresponding schedule. The basis of the course of the lesson is taken, which divides motivation, conducting research, the withdrawal of results, etc.


# TƏLİMİN KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ


**İsmət Məmmədova,**
ARTİ-nin böyük elmi işçisi,
E-mail: ismet.memmedova@mail.ru;
**Günay Həsənova,**
Sumqayıt şəhər 4 nömrəli məktəbin müəllimi





**Açar sözlər:** yeni pedaqoji texnologiyalar, təfəkkür prosesi, müqayisə, təhlil;

**Ключевые слова:** новые педагогические технологии, процесс мышления, анализ, сравнение;

**Key words:** new teaching technologies, thinking process, analyze, comparison.




Dunyada gedən qloballaşma həyatın bir cox sahələrinə öz təsirini gostərir.Təhsildə aparılan islahatlar da məhz həmin zərurətlərdən yaranmışdır. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nda təhsilin keyfiyyətinin yuksəldilməsi, yeni təlim metodlarından səmərəli istifadə edilməsi başlıca vəzifə kimi qarşıya qoyulmuşdur.

Təhsildə yeni yanaşmaların tətbiqi dünya təhsil sistemində təhsilin əsas strateji istiqamətlərindən biri kimi qiymətləndirilir. Son illərdə respublikamızda, bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də böyük islahat proqramı həyata keçirilir. Cəmiyyətdə baş verən köklü dəyişikliklər getdikcə milli təhsil sistemində də öz əksini tapır.

Yeni pedaqoji texnologiyalardan istifadə təhsilin keyfıyyətinin artırılmasının əlverişli yollarından biri hesab edilir. Yeni pedaqoji texnologiyalar təlim prosesində interaktiv metodların tətbiqi ilə reallaşır. Bu texnologiyalar məhz müasir dövrün təhsil sahəsində xüsusi əhəmiyyət kəsb

edən təlim metodikasıdır.Yeni pedaqoji texnologiyaların xarakterik xüsusiyyətləri aşağıdakılardır:

• Şagirdlər müəllimin rəhbərliyi ilə təlim problemini araşdırır, həll edirlər, o isə istiqamət verir və müvafiq şərait yaradır.

• Təlim prosesi və texnologiyalardan istifadə dəqiq layihələşdirilir.

• Şəxsiyyətyönümlülük və inkişafetdiricilik prinsipləri həyata keçirilir.

• Şagirdlərin müstəqil fəaliyyət göstərmələri üçün tədris materialı optimal şəkildə seçilir və tərtib olunur.

• Şagirdlərin təlim fəaliyyəti istiqamətləndirilir – fəaliyyətin əsas prinsipləri, metodları, nəzarət və nəticələrin qiymətləndirilməsi məsələləri izah edilir.

Yeni pedaqoji texnologiyalar, ümumilikdə təlimin yeni konsepsiyası dörd əsas prinsip əsasında fəaliyyət göstərir:

• şagirdyönümlülük;
• müstəqil və birgə təlim fəaliyyəti imkanlarının yaradılması;
• təlimin inteqrativliyi;
• təlimin məzmun və nəticələrinin təlimalanların məktəbdən sonrakı həyat fəaliyyəti və cəmiyyətlə əlaqəli olması.

Təlimin müvəffəqiyyətlə həyata keçirilməsi yollarından biri "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nda göstərildiyi kimi, yeni pedaqoji texnologiyalardan istifadədir. Prof. Y.Kərimov bu gün bütün nəşrlərdə texnologiyanın yeni anlamının olduğunu qeyd edərək yazır: "...onlara uyğun olaraq, belə bir qənaətə gəlmək mümkündür ki, pedaqoji texnologiya sadəcə olaraq təlimdə texniki vasitələrdən və kompüterdən istifadə demək deyil. O, prinsipləri aşkara çıxarmaq, təhsilləndirmənin effektivliyini yüksəldən faktorları təhlil etmək yolu ilə təhsil prosesinin optimallaşdırılmasının priyomlarını işləyib hazırlamaq məqsədinə xidmət edir. Onun mahiyyəti tədris prosesinin tam idarə olunmasıdır".(4)

Pedaqoji texnologiyalar yalnız təhsilin elementi kimi deyil, həm də onun məqsədi, məzmunu, prosesi və nəticəsi kimi xidmət göstərir.

Yeni təlim texnologiyaları əsasında həyata kecirilən təlim prosesinin ozunəməxsus prinsipləri vardır. Bu prinsipləri iki cür qruplaşdırmaq olar:

a) şagirdi rəqabətəqabil, sosial, hərtərəfli inkişaf etdirməyə xidmət göstərən təlim-tərbiyə prinsipləri;

b) interaktiv təlim zamanı rəhbər ideyalar kimi qəbul edilən prinsiplər.

Şagirdi rəqabətəqabil, sosial, hərtərəfli inkişaf etdirməyə xidmət göstərən təlim-tərbiyə prinsipləri "Azərbaycan Respublikasında təhsil İslahatı Proqramı"nda öz əksini tapmışdır. Bunlar aşağıdakılardır:

1. ***Demokratikləşdirmə*** – təhsil prosesinin demokratikləşdirilməsində maraqlı olan bütün tərəfləri təhsil prosesində fəal iştiraka cəlb etmək deməkdir.

2. ***Humanistləşdirmə*** – təhsilin humanistləşdirilməsi, o cumlədən, yaradıcı, inkişaf qabiliyyətli şəxsiyyətin formalaşdırılması şagirdə munasibətin dəyişilməsini nəzərdə tutur.

3. ***Diferensiallaşdırma*** – təlim prosesi şagirdlərin imkanlarının nəzərə alınması prinsipi ilə qurulur.

4. ***Fərdiləşdirmə*** – təhsildə şagirdlərin fərdi maraq və tələbatlarının nəzərə alınması deməkdir.

5. ***İnteqrasiya*** – fənlərin oyrənilməsi zamanı fənlərarası əlaqələrin aşkar edilməsi əsasında qlobal təfəkkürün formalaşdırılmasının vacibliyini nəzərdə tutur.

6. ***Humanitarlaşdırma*** – təhsildə şəxsiyyətin yaradıcı inkişaf prosesinin şərti kimi cıxış edir və onun məzmununun formalaşmasına yeni yanaşmaları nəzərdə tutur.

Yeni pedaqoji texnologiyaların tətbiqi prosesində müəllim şəxsiyyəti, onun rolu haqqında prof. A.Mehrabov yazırdı: "...Təkcə texnologiya, yaxud onların cəmi, pedaqoji praktika kifayət

etmir. Bunun üçün ümidverici, inkişafetdirici texnologiyaların fədakar, aparıcı müəllim şəxsiyyəti ilə birləşməsi lazımdır. Ona görə də yeni texnologiyalardan danışarkən qeyd edilməlidir ki, onlardan tətbiqi yaradıcılıq tələb etməklə, texnologiyaların prinsip və təlimatlarına, digər tərəfdən müəllimin istiqamət götürdüyü mədəni situasiyaya söykənməli, həm də bu zaman tətbiqetmə müəllimin və şagirdlərin şəxsiyyətinə istiqamətləndirilməlidir".(2)

Təhsil sistemində yeni təlim texnologiyalarının tətbiqi təlim prosesinin səmərəliliyini, keyfiyyətini yuksəldən əsas amil olduğundan, belə nəticəyə gəlmək olar:

- Tədris nəticəyönümlü proses olduğundan, məqsədi əvvəlcədən muəyyənləşdiril-miş və şagirdə istiqamətləndirilmiş təlim həyata kecirilməlidir.
- Tədris və təlim texnologiyaları  bir-biri ilə sıx bağlı olduğundan daim qarşılıqlı əlaqədə götürülməlidir.
- Tədris prosesi hər birinin öz rolu və statusu olan bir neçə fərdin əməkdaşlığından irəli gələn sosial bir proses olub, daimi  inkişaf rejimində fəaliyyət göstərməlidir.
- Tədris prosesi qarşılıqlı əlaqələrin xarakterindən, mühitin xüsusiyyətlərindən, təhsil müəssisələrinin əhatəsindən asılı olub, onların daxili quruluşundan irəli gələn verbal və sensor davranışların məcmusunu özündə birləşdirməlidir .

Müəllimlər yeni texnologiyalardan istifadə etməklə dərsləri daha maraqlı edən, şagirdləri, sağlam mühakimələr irəli sürməyə, real həyata tətbiq edəcəkləri məzmunu başa düşməyə yardım göstərən mühüm vasitələrə çevirə bilərlər. Deməli, yeni təlim metodları təhsilin məzmununu daha yaxşı mənimsəmək və şagirdlərin müstəqil cavab vermələri məqsədilə tələb olunan təfəkkür prosesini inkişaf etdirmək üçün çox faydalıdır.

Yeni pedaqoji texnologiyaların hər hansı variantının uğurlu alınması üçün müəllimlərdən təlim şəraitini, şagirdlərin hazırlıq səviyyələrini və psixoloji xüsusiyyətlərini nəzərə almaqla işə yaradıcı yanaşmaq tələb olunur. Yaradıcı yanaşma və pedaqoji ustalıq müvəffəqiyyətin rəhnidir. Təhsilin yeni pedaqoji texnologiyalar əsasında qurulmasında, təşkilatçılıq, istiqamətvericilik vəzifəsini öz üzərinə götürən müəllim şagirdlərdə əsl fəallıq yaratmış olur.

Fəal və müstəqil yaradıcılıq qabiliyyətinə malik olan, daim özünütəhsilə və özünütəkmilləşdirməyə maraq göstərən şagirdlərin hazırlığı problemi məktəbin qarşısında qoyulan mühüm məsələlərdən biridir. Muəllimin bələdciliyi ilə dərsdə problemi şagirdlərin özləri tərəfindən həll olunması təlimin əsas ideyasıdır. Müəllim (bələdçi, fasilitator) tədqiqatların aparılması istiqamətində şagirdlərə şərait yaradır, istiqamət verir, təlim prosesini əvvəlcədən layihələndirir.

Muəllim tədris prosesini elə təşkil etməlidir ki, şagird mustəqil fəaliyyət vərdişlərinə yiyələnsin, öz bilik və bacarıqlarını obyektiv qiymətləndirməyi öyrənsin, qarşısına qoyulan problemin həllini tapsın. Muəllim materialı dərindən bilməli, hər bir dərsə yaradıcı yanaşmalı, mütəmadi olaraq yeni texnoloji metodlar axtarmalı, şagirdin  psixologiyasını oyrənməlidir.

Müasir təlim texnologiyalarının təhsil prosesinə daxil edilməsi şagirdlərin qeyri-fəallığının aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin formalaşdırılmasına, təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradaraq, respublikamızda təhsil sahəsində islahat proqramında göstərilən demokratikləşdirmə, humanisləşdirmə, diferensiallaşdırma, fərdiləşdirmə, inteqrasiya və humanitarlaşdırma prinsiplərini həyata keçirməyə imkan verir.

Dərsdə müasir təlim texnologiyalarını tətbiq etməklə, ənənəvi təlim sistemini dəyişərək ona tədqiqat xarakteri vermək, biliklərin mənimsənilməsi prosesində şagirdi əsas sima etmək və onu təlimin subyektinə çevirmək mümkündür. Belə ki, bu prosesdə müəllim biliklər aləminin *bələdçisi,* şagird isə *kəşfiyyatçı* rolunu oynayır. Geniş imkanlara malik yeni təlim texnologiyalarından olan blok dərsləri, əqli hücum, qrup məşğələləri, başqa metodlardan istifadə etdikdə müsbət nəticələrə yiyələnmiş oluruq.

Yeni təlim texnologiyaları şagirdlərdə sərbəst düşünmək və işləmək bacarıqlarını artırır, müqayisə etmək, nəticə çıxarmaq qabiliyyətlərini inkişaf etdirir.

Yeni təlim texnologiyaları şagirdlərə aşağıdakı keyfiyyətləri aşılamalıdır:

- müstəqil düşünmək, sərbəst fikir söyləmək;

• öz təcrübəsini və biliyini təhlil etmək qabiliyyəti;
• özünü qiymətləndirmək;
• əməkdaşlıq etmək;
• başqalarını dinləmək;
• öz fikirlərini arqumentlərlə izah və sübut etmək;
• birgə həll yollarını müəyyənləşdirmək və qərar çıxarmaq.

*Yeni təlim texnologiyaları* bunlardır: dialoq, treninq, yarımqruplar üzrə iş, didaktik oyunlar, rollu oyunlar, işgüzar səs-küy, cütlər və qruplar, söz assosiasiyaları, fikir sıçrayışı, əqli hücum.

Yeni texnologiyalar bir sıra xüsusiyyətləri ilə ənənəvi təlim metodlarından fərqlənir: şagirdlərin tədqiqat fəaliyyətinə cəlb edilmələri, müəllim tərəfindən problem-situasiyanın yaradılması, şagirdlər tərəfindən biliklərin müstəqil əldə olunması və s.

Yeni texnologiyaların tətbiqi ilə həyata keçirilən dərs müşahidəsi aşağıdakıları deməyə əsas verir:

- Müasir təlim texnologiyaları motivasiya probleminin həllini asanlaşdırır.
- Şagirdlərin təlim fəallığı təmin edilir.
- Biliklərin qarşılıqlı ünsiyyət, əməkdaşlıq şəraitində əldə edilməsinə imkan yaranır.
- Təlim zamanı şagirdlərin yaddaşını yeni elmi biliklərlə zənginləşdirilir, onların düşünmə qabiliyyətləri müstəqil şəkildə, müntəzəm inkişaf etdirilir.
- Konstruktiv öyrənmə şagirdlərin tədqiqatçılıq qabiliyyətlərinin inkişafını təmin edir.

Apardığımız müşahidələr belə bir qənaətə gəlməyə əsas verir ki, hər bir şagirdin və bütövlükdə konkret sinfin ümumi, fərdi-psixoloji xüsusiyyətlərinin və mənimsəmə imkanlarının nəzərə alınması zəminində keçilmiş materialların qavranılması və onların ideya məzmununun dərk olunması işini uğurla həyata keçirmək mümkündür.

Yeni təlim texnologiyaları dərsə qədərki hazırlıq prosesində müəllimin, dərsdə isə şagirdlərin fəallığını tələb edir.

Müəllimlər şagirdləri gələcəyə hazırlamaqla bərabər, onların həyatının maraqlı qurulmasına çalışmalıdırlar.

Yeni təlim texnologiyalarının tətbiqi zamanı təlimin təhsilləndirici, inkişafetdirici, tərbiyələndirici funksiyaları özünü daha qabarıq şəkildə büruzə verir.

Yeni təhsil sisteminin əsas məqsədi təhsilalanın şəxsiyyət kimi formalaşmasına, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsinə zəmin yaratmaqdır. Bunun üçün ümumtəhsil məktəblərində yeni təlim texnologiyalarını tətbiq etməklə təlimin keyfiyyətinin yüksəldilməsinə nail olmaq lazımdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, Bakı, 2013.
2. Аббасов З. Педагогические технологии и инновации в учебной деятельности школьников. Москва: “Школьные технологии”, №5,2002.
3. MehrabovA., Abbasov Z., Zeynalov Z., HəsənovR. Pedaqoji texnologiyalar. Bakı: “Mütərcim”, 2006.
4. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: “Maarif”,1982.
5. Kərimov Y. Təlim metodları. Bakı: “Poliqraf”, 2009.

**ИСПОЛЬЗОВАНИЕ НОВЫХ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ В ПОВЫШЕНИИ КАЧЕСТВА ОБРАЗОВАНИЯ**

**резюме**

В статье раскрывается сущность, характерные признаки и принципы использования новых педагогических технологий. Новые педагогические технологии констатируются как основной фактор повышения качества обучения. Отмечается, что при систематическом, научном и последовательном использовании педагогических и новых технологий обучения у учащихся формируются такие качества как анализирование, сравнение и творческие способности.

**USE OF NEW PEDAGOGICAL TECHNOLOGIES IN IMPROVING EDUCATION QUALITY**
**summary**
The article reveals the essence, characteristic features and principles of the use of new educational technologies. New pedagogical technologies are stated as a major factor in improving the quality of education. It is noted that with the systematic, scientific and consistent use of pedagogical and new learning technologies, students form such qualities as analysis, comparison and creative abilities.

# *NƏSİMİNİN EDAMI HAQQINDA…*

**“İmadəddin Nəsiminin qətli hekayəsi”** iqtibasla **“İlam ən-nubəla bitarix Hələb əş-Şəhra”**da geniş əks olunub (Məhəmməd Raqib ibn Mahmud ibn Haşim ət-Təbbaq əl-Hələbi). Akademik **Ziya Bünyadovun** bu əsər barədə ilk dəfə “Elm və Həyat” jurnalında dərc etdiyi (sonradan bir çox KİV-lərdə dərc olunub) məqalə sayəsində Nəsiminin qətlinin bütün təfərrüatları aydınlaşıb: **“Nəsiminin qətli əmir Yaşbək ibn Abdullah Yusifinin vaxtında olub. Ona qarşı ittiham Hələbin Ədalət Sarayında şeyximiz ibn Xətibin və Şəmsəddin ibn Əminnəddövlənin hüzurunda irəli sürülüb. Həmin an şeyxin naibi İzzəddin, malikilərin qazılar qazısı Fəthəddin və hənbəlilərin qazılar qazısı Şihabəddin də orada olublar.**

**…İttiham ilə onun əleyhinə hənəfilərin qazılar qazısı İbn əş-Şənqasi çıxış edib. Bu hadisə qazıların, Hələb üləmasının hüzurunda baş verib və naib Yaşbək ona (*Nəsimiyə* – Z.B.) deyir: “Söylədikləini sübuta yetirməlisən, yoxsa səni öldürəcəyəm!”**

**Bu sözləri eşitcək İbn əş-Şənqasi ittihamdan imtina edir. Nəsimi isə ittihamları inkar edir və iki dəfə kəlimeyi-şəhadətdən savayı başqa bir söz demir. Bu anda hənbəlilərin şeyxi Şihabəddin malikilərin qazısı Fəthəddindən yuxarı başa keçib və fitva verib ki, Nəsimi zındıqdır, tövbəsi qəbul olunmadan öldürülməlidir.**

**O, (*Şihabəddin* – Z.B.) Fəthəddindən yuxarı başa keçib oturarkən, Fəthəddin kənara çəkilir və Şihabəddin ona deyir: “Nə üçün onun qətlinə fitva verilməsin?” Fəthəddin deyir ki, olmaya öz əlinlə ona ölüm hökmü yazmaq istəyirsən?” Şihabəddin: “Bəli!” – deyə cavab verir. Sonra o, fitva sənədini yazır, öz yazısını şeyximiz ibn Xatibə, qalan qazı və üləmaya təqdim edir. Onlar fitvaya razılıq vermirlər və Fəthəddin ona deyir: “Qazı və üləma səninlə razı olmadıqları halda, ona necə ölüm hökmü kəsə bilərəm?”**

**Əmir Yaşbək isə söyləyir: “Mən onu öldürə bilmərəm, çünki sultan Müəyyəd göstəriş verib ki, onu məsələdən xəbərdar edim. Sultanın Nəsimi barəsində nə kimi sərəncam verəcəyini gözləməliyəm”.**

**Məclis bununla dağılır və Nəsimi Ədalət Sarayında dustaq qalır. Onun işi ilə sultan əl-Müəyyədi tanış etdilər. Bundan sonra Yaşbəkə göstəriş gəlir ki, dustaq zindana köçürülsün. Nəsimini aparıb, qala həbsxanasına salırlar. Sonra isə Sultan Müəyyədin sərəncamı gəlir ki, Nəsimi öldürülsün, dərisi soyulsun, yeddi gün Hələbdə carmıxa çəkilib bəyan edilsin, sonra da cəsədi doğransın, bir qismi Əlibəy Zülqədərə və onun qardaşı Nəsrəddinə göndərilsin…”**

**Əziz RZAZADƏ,**
***Strateq.az***

# MƏKTƏBƏQƏDƏR TƏHSİL PROQRAMININ REALLAŞDIRILMASINDA İNKİŞAFETDİRİCİ TƏLİM MÜHİTİNİN ROLU

**Şərafət Baxışova,**
ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası və metodikası
kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru
Sharafat_baxishova1960@mail.ru



**Açar sözlər:** inkişafetdirici təlim, кurikulum, metodlar, formalar, vasitələr, prinsiplər, keyfiyyətin yüksəldilməsi, dünyəvi və ictimai elmlər;

**Ключевые слова**: развивающее обучение, курикулум, методы, формы, средства, принципы, повышение качества, мировые и общественные науки;

**Key words:** developing training, curriculum, methods, form, funds, principles, improving the quality, global and social sciences.

Hazırda məktəbəqədər təhsil müəssisələrində tətbiq olunan "Məktəbəqədər təhsil proqramı (kurikulumu)" mühüm dövlət sənədi kimi məktəbəqədər yaşlı uşaqlarla aparılan təlim-tərbiyə işlərinin məzmununu, məqsədini və vəzifələrini özündə əks etdirir. Məktəbəqədər təhsilin proqramının (kurikulumunun) hazırlanmasında məqsəd təlim prosesinin elə təşkilidir ki, körpələrin inkişafı təmin olunsun.

Təlimin inkişafetdirici məqsədi psixoloji aspekti reallaşdırır və uşaqların fəaliyyət prosesində qazandıqları təcrübəni mənimsəmə yolu ilə həyata keçirir ki, bu da tərbiyəçinin istiqamətverici rolu və uşaqların birgə fəaliyyəti zamanı özünü büruzə verir.

İnkişafetdirici məqsəd bilavasitə praktik məqsədin reallaşdırılması ilə əlaqədardır. Bu, onunla izah olunur ki, uşaq gələcək həyatında, fəaliyyətində istifadə olunacaq bilikləri ifadə etmək bacarığını mənimsəyir, baş verən konkret məzmunlu real hadisələri (linqvistik, riyazi, estetik və s. aspektlərdə) başa düşür.

Məktəbəqədər dövrün xüsusiyyətləri uşağın inkişafının sonrakı mərhələlərindən fərqlənir. Hər hansı xüsusi bilik, bacarıq, vərdişlərin qazanılması, müxtəlif növ fəaliyyətin mənimsənilməsinin əsası məhz bu dövrdən başlayır və uşağın ümumi inkişafını təmin edir. Uşaqların idrak fəaliyyətinin gücləndirilməsi probleminin mahiyyətinə gəldikdə isə bu, onların təlim prosesində bütün zehni qüvvələrini fəallıqla işlətməsini, təlim prosesində müstəqil hərəkət etməyə çalışmasını, səy göstərməsini tələb edən mühüm didaktik prinsipdir. Məhz buna görə də məşğələyə verilən tələblərin yerinə yetirilməsi həm təlim metodlarının səmərəli tətbiqi, məzmuna və yaş qrupuna görə düzgün seçilməsini, həm məşğələlərarası əlaqəni, xüsusilə uşaqların müstəqil fəaliyyətini təşkil etməklə həyata keçirilə bilər.

Məktəbəqədər təhsil proqramı hazırlanarkən uşaq fəaliyyətinin təmin olunması və bacarıqların formalaşması, onun bir subyekt kimi inkişaf etməsi üçün müvafiq təhsil şəraitinin yaradılması nəzərə alınmışdır. Məzmunda standartların verilməsi, onların təhsilalanlara istiqamətləndirilməsi, uşaqyönümlülüyü ifadə edir. Bu keyfiyyət uşaqlara nəyi, necə və kiminlə öyrənmək, oynamaq istədiklərini aydınlaşdırmağa imkan yaradır. Bu yanaşma uşaqları fəaliyyətlərə təşəbbüs etməyə, öz yollarını müəyyənləşdirməyə istiqamətləndirir. Öz təcrübələrinə, onları əhatə edən ətraf mühitlə fəal ünsiyyətə əsaslanaraq yeni bilik və bacarıqlar əldə olunmaqda uşaqlara şərait yaradır.

Uşaq fəaliyyətinin təmin olunması və formalaşması, onun bir subyekt olaraq inkişaf etməsi üçün müvafiq təlim şəraitinin yaradılması mühüm amil kimi nəzərə alınmışdır.

Araşdırmalardan belə aydın olur ki, inkişafetdirici təlimin əsas komponentlərindən biri də

qrup otağında emosional, xoş mühitin yaradılmasıdır. İnkişafetdirici mühitin yaradılmasında lazım olan psixoloji tələblər bunlardır:

- Mühit müasir erqonomikanın bütün tələblərinə cavab verən, uşaq fəaliyyəti üçün rahat olmalıdır.
- Uşaq fəaliyyətinin inkişafında yeni, perspektivli səviyyəyə nail olmanı təmin etməlidir.
- Mühitin baza komponentləri uşaqların, böyüklərin fəaliyyətinin makro və mikromühitləri ilə mütənasib, həmçinin miqyasca uyğun olmalıdır.
- Uşağın aktual, yaxın gələcək və perspektiv inkişafının, konkret fəaliyyət növlərinin əşyavi əsasının gücləndirilməsi əsasında yaradıcı bacarıqların inkişafının tələbatlarını təmin etməlidir.

Uşaqların yaş xüsusiyyətləri nəzərə alınmalıdır.

Təlim-tərbiyə prosesinin müxtəlif subyektlərinə interaktiv metodların tətbiqi onlarda tələb olunan keyfiyyətlərin formalaşmasına səmərəli şərait yaradır. Bu halda uşaqlarda aşağıdakı xüsusiyyətlər inkişaf edir:

- ümumi işə qoşulmanın (əməkdaşlığın) dərk edilməsi;
- şəxsi refleksiya;
- fəaliyyətlərində şəxsi mövqeyin fəal təşəkkülü;
- öyrədən və digər öyrənənlər tərəfindən hər bir öyrənənin işinin qiymətləndirilməsi.

Qrup otağında fəaliyyətə:

- qrupun formalaşdırılması;
- uşaqların idraki fəallığının yüksəldilməsi;
- qruplarda refleksiv proseslərin təhlili və özünütəhlil vərdişlərinin inkişafı daxildir.

Qrup-öyrədən əlaqələrində təlim prosesinin təşkilinə qeyri-standart münasibətlərin yaradılması; təlim materiallarının təmkinlə mənimsədilməsi; təlim-tərbiyə prosesində şəxsiyyətlərarası qarşılıqlı təsirlərə motivasiya bacarıqlarının qazanılmasına geniş imkanlar açılır.

Qruplarla iş zamanı aşağıdakılar həyata keçirilir:

- kiçik qruplarda qarşılıqlı təsirlərin və ünsiyyət vərdişlərinin inkişafı;
- qrupda istiqamətləndirmə birliyinin formalaşdırılması;
- hadisələrin gedişindən asılı olaraq sosial münasibətlərin məharətlə dəyişdirilməsinin rəğbətləndirilməsi;
- birgə fəaliyyətin mənəvi norma və qaydalarının qəbul edilməsi.

"Məktəbəqədər təhsilin proqramı (kurikulumu)" təhsilin inteqrativliyi əsas prinsip kimi nəzərdə tutulmuşdur. Bu sənəddə təhsildə məşğələlərarası inteqrasiyaya xüsusi əhəmiyyət verilir. Müxtəlif inkişaf sahələri üzrə biliklərin inteqrasiyası uşaq təfəkküründə ətraf aləm haqqında vahid, sistemli dünyagörüşünün formalaşmasına kömək edir. İnteqrativ kurikulum uşaqyönümlü, şəxsiyyətyönümlü təhsilin fəlsəfəsidir və təlim strategiyalarının qurulmasında böyük rol oynayır. Qeyd olunan konsepsiyada ümumi təhsilin pillələri, onlar arasında əlaqənin, ardıcıllığın gözlənilməsi, bilik, bacarıq və vərdişlərin təhsil pillələri üzrə konsentrik inkişaf etdirilməsi vacib pedaqoji tələb kimi qoyulmuşdur.

Məktəbəqədər təhsilə inteqrativ yanaşmanın tələbləri aşağıdakılardan ibarətdir:

- ətraf aləm haqqında tam təsəvvürlərin formalaşdırılması əsasında tərbiyə və inkişafın prioritet məqsədlərinin, vəzifələrinin reallaşdırılması;
- yalnız məzmun deyil, həm də tərbiyənin, inkişafın formal məqsəd və vəzifələrinin həyata keçirilməsi;
- proqramın müxtəlif bölmələrinin məzmun komponentlərinin və məzmundaxili əlaqələrinin gücləndirilməsi;
- tərbiyə, təlim metod və priyomlarının qarışılıqlı təsiri (metodiki inteqrasiya);
- uşaq fəaliyyəti növlərinin sintezi;

- təlimin təşkilinin inteqrativ formalarının tətbiqi: mürəkkəb strukturu olan inteqrativ məşğələlər, onların dövriliyi, mövzu günləri və s.

Araşdırmalardan görünür ki, uşaq bağçalarında inkişafetdirici təlimin təmin olunmasında pedaqoji prosesin yüksək səviyyədə təşkili, onun elmi-pedaqoji cəhətdən əsaslandırılmış, planlı, məqsədyönlü idarəolunmasından, rəhbərlik və nəzarətdən çox asılıdır. İdarə edənin və idarə olunanın pedaqoji prosesdə fəal, məqsədyönlü iştirakı bu prosesin səmərəliliyinə gətirib çıxarır.

İnkişafetdirici təlimin həyata keçirilməsi əhəmiyyətli dərəcədə uşaqların öyrənmə motivlərindən asılıdır.Təlim motivasiyasının gücləndirilməsi onun səmərəliliyinin yüksəldilməsinin mühüm şərtidir. Psixoloqlar müəyyənləşdirmişlər ki, güclü motivasiya fəaliyyətin məqsədinə güclü təsir edir. Bu zaman motivin məqsədə doğru yönəlməsi müşahidə olunur. Buradan belə qənaətə gəlmək olar ki, uşaqların təlimdəki müvəffəqiyyətləri üçün öyrənmənin dərin motivasiyası, davamlı idraki maraqları daha güclü olmalıdır.

Müşahidələr göstərir ki, tərbiyəçi mövzunun praktik əhəmiyyətini nə qədər geniş açarsa, müasir problemlərlə əlaqəsini hərtərəfli təhlil edərsə, öyrənməyə maraq əhəmiyyətli dərəcədə artar.

İdraki maraqların stimullaşdırılmasında ən güclü vasitə təlim prosesində onu inkişaf etdirən oyunlardır, lakin bu prosesdə yalnız marağı əsas götürmək düzgün olmazdı. Eyni zamanda uşaqda iradə, məsuliyyət hissi də formalaşdırımalıdır. Heç bir məsləhət, nəsihət və hədə-qorxu həqiqi öyrənmə motivlərini yaratmır. Yalnız inandırma və arqumentlərlə buna nail olmaq mümkündür.

İnkişafetdirici təlimin təşkili formaları belə müxtəlif olduğu halda, onlardan hər hansınısa ən münasibi kimi təbliğ etmək sadəlövhlük olardı.Pedaqogikada təlim-tərbiyə vəzifələrini yalnız metodlar birləşməsi ilə deyil, həm də təlim prosesinin təşkilati formaları ilə həlli imkanları müəyyən edilmişdir. Bununla bərabər, müasir didaktika təlimin formalarını fasiləsiz olaraq təzələməyi, ümumi tərbiyəyə yeni yanaşmaların tətbiqini tövsiyə edir. Uşaqlarla daha tez-tez söhbətlər, görüşlər, diskussiyalar aparmaq vacibdir. *Söhbət* elə formadır ki, məşğələdə və ya ondan kənar vaxtlarda hər hansı bir məsələ müzakirəyə qoyulur, onun ətrafında fikir mübadiləsi aparılır. Əksər hallarda söhbətlər əvvəl öyrənilmiş biliklərin ümumiləşdirilməsinə, sistemləşdirilməsinə və həyati faktlarla əlaqələndirilməsinə həsr edilir.

Beləliklə, araşdırmalar göstərir ki, inkişafetdirici təlim prosesində məşğələnin təşkilinin didaktik tələblər baxımından təkmilləşdirilməsinə ehtiyac vardır. Məşğələnin təşkilinə verilən didaktik, pedaqoji-psixoloji tələblərin nəzərə alınması, yeni yanaşmaların tətbiqi inkişafetdirici təlim prosesində daha yüksək nailiyyətlərin əldə olunmasına imkan yaradar.

İnkişafetdirici təlimi təmin etmək üçün yalnız məqsədləri mürəkkəbləşdirmək və motivasiyanı gücləndirmək kifayət deyil. Təhsilin məzmununa müəyyən dəyişikliklər etmək zəruridir. Son illərin psixoloji və pedaqoji tədqiqatlarında elmin əsaslarının, məzmunun seçilməsinə, quruluşuna yeni yanaşmalara böyük əhəmiyyət verilir. İnformasiya axını şəraitində materialın kiçik həcmdə verilməsi tendensiyası məqsədəuyğun deyil. Təlim materialı uşaqlara əvvəlcə ümumi, geniş şəkildə verilir ki, uşaqlar məzmunu ümumilikdə mənimsəyə bilsinlər, sonra isə onun tərkib hissələri konkret təhlil olunur.

Təlimin məzmununun informativ həcminin yüksəldilməsi meyarları aşağıdakılardır:

- uşaqların yaş, psixoloji və fizioloji imkanına uyğunluğu;
- verilən vaxtın nəzərə alınması, beynəlxalq təcrübə, təlim materialları bazasının olması, başqa təlim şərtləri meyarlarına uyğun bilik, bacarıq və vərdişlərin ciddi seçilməsi;
- tərbiyəçilərin diqqətinin əsas anlayışların, bacarıq və vərdişlərin öyrədilməsi üzrə işin aparılmasına yönəldilməsi,təlim materialını izah edərkən əsas məsələnin uşaqlara dəqiq çatdırması.

Yuxarıda deyilənlərdən belə qənaətə gəlmək olar ki, məktəbəqədər təhsil müəssisələrində inkişafetdirici təlim şəraitində təhsilin məzmununun və strukturunun təkmilləşdirilməsinin əsas istiqamətlərini aşağıdakı kimi səciyyələndirmək mümkündür:

a) məzmunun üç əsas funksiyasının (təhsil, tərbiyə və şəxsiyyətin formalaşdırılması) kompleks həyata keçirilməsinə istiqaməti gücləndirmək;

b) yaşa müvafiqliyi saxlamaqla hər bir məşğələnin informativ tutumunu yüksəltmək;

c) materialın bölmələrlə verilməsinin, təlim prosesində ümumiləşdirmələrin rolunu artırmaq, ümumiləşdirici məşğələlərin keçirilməsi;

ç) məşğələlərarası əlaqənin gücləndirilməsi;

d) oyun və tapşırıq seçimini yerinə yetirməklə yanaşı, daha çox inkişafetdirici tapşırıqların həll edilməsi;

e) təlim prosesində alqoritmik göstərişlərin tətbiqi;

ə) İKT ilə təchizi;

f) təlim bacarıqlarının və vərdişlərinin formalaşdırılması.

İnkişafetdirici təlimin tətbiqində uşaqların idrak fəallığını, öyrənməni stimullaşdıran metod və priyomların, məşğələnin təşkili formalarının, vəsaitlərin səmərəli tətbiqinin böyük əhəmiyyəti vardır. Burada uşaqlarda hər hansı problemin həlli tələbatını, idrak proseslərinin fəallaşdırılmasının gücləndirilməsində söhbətlərin, diskussiyaların, tədqiqatçılığın, rollu oyunların, şagirdlərin müstəqil işinin rolu əvəzsizdir.

**Ədəbiyyat**

1.Azərbaycan Respublikasında məktəbəqədər təhsil Proqramı (kurikulumu). Bakı: TPİ, Təhsil Texnologiyaları Mərkəzi, 2014.

2.Əliyeva Ş.Q. Məktəbəqədər təhsilin aktual problemləri. Bakı: "Elm", 2010.

3.Выготский Л.С. Детская психология. Собрание сочинения. в 6-ти томах, Т.4. Под ред. А.В. Запорожца и др. Москва: «Педагогика», 1984.

4.Виноградова Е.А. Дошкольное образование: состояние и основные проблемы развития (социологический анализ). Афтореф дисс. канд. социолог. наук. Екатеринбург, 2001.

**РОЛЬ РАЗВИВАЮЩЕГО ОБУЧЕНИЯ В ЭФФЕКТИВНОЙ РЕАЛИЗАЦИИ КУРРИКУЛУМА ДОЩКОЛЬНОГО ОБРАЗОВАНИЯ**

**резюме**

В статье раскрывается сущность содержания новой программы – куррикулума дошкольного образования, которая служит повышению качества обучения и воспитания детей дошкольного возраста. Это документ, в котором указываются пути, формы, методы и средства, контроль, оценивание и механизмы, определяющие уровень развития детей. Определены также принципы, которые обеспечивают развивающее обучение.

Автор отмечает, что цель современного дошкольного образования заключается в том, чтобы воспитывать и развивать активных, ответственных и конструктивных личностей, которые смогут быть субъектом мировых и общественных наук.

**THE ROLE OF DEVELOPING TRAINING IN THE EFFECTIVE REALIZATION OF THE SCHOOL CURICULUM EDUCATION**

**summary**

The article reveals the nature of the content of the new program – Curriculum preschool education programs which improve the quality of training and education of pre- school children. This document which indicated shows ways, forms, methods and tools, monitoring, evaluation and mechanisms that determine the level of development of children. We have also identified princips which provide development training.

The author notes that the aim of the modern pre-school education for future, which is to educate and develop active responsible and constructive personalities who will be the subject of world and governmental sciences.

# BÖYÜK MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA İDRAK MARAQLARININ İNKİŞAFI PSİXOLOJİ-PEDAQOJİ PROBLEM KİMİ

**Pərişan Həsənova,**
ADPU-nun baş müəllimi
e-mail- perisanhesenova@gmail.com



**Açar sözlər:** məktəbəqədər dövr, idrak sahəsi, idrak maraqları, qabiliyyət, yaradıcı fəaliyyət;
**Ключевые слова:** дошкольный возраст, познавательная сфера, познавательные интересы, способности, творческая деятельность;
**Key words:** preschool age, cognitive sphere, cognitive interests, abilities, creative activity.

Hazırda təhsilin bütün pillələrində olduğu kimi, məktəbəqədər təhsil sahəsində də köklü dəyişikliklər həyata keçirilməkdədir. Bu dəyişikliklər dövlət tərəfindən təsdiq olunmuş məktəbəqədər təhsil proqramında öz əksini tapmışdır. Bu sənəd Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 16 iyul tarixli, 137 nömrəli qərarı ilə təsdiq edilmiş "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı"na əsasən hazırlanmışdır. Sənədə əsasən, uşaqların dörd inkişaf sahəsi müəyyən olunmuşdur. İnkişaf sahələrindən biri olan idrakın inkişafı məktəbəqədər yaşlı uşaqlarda öyrənməyə həvəs və maraq formalaşdırır. Kurikulumda qeyd olunduğu kimi, məktəbəqədər yaşlı uşağın idrak fəaliyyətində sistemlilik, ardıcıllıq, əlaqəlilik, həyat şəraitinə uyğunlaşmaq və həyata tətbiqetmə mühüm şərt hesab olunur. "İdrakın inkişafı prosesində uşaqlar təmasda olduqları əşyaların adlarını, əlamətlərini, xüsusiyyətlərini düzgün ifadə edir, bu barədə məntiqi mühakimə yürütmək, düzgün, sadə ümumləşdirmələr aparmaq, əqli nəticəyə gəlmək kimi bacarıqlar nümayiş etdirirlər. Uşaqların idrakın inkişafı üzrə yerinə yetirdiyi tapşırıqlar onların məntiqi mühakimə yürüdə bilmək bacarıqlarını, intuisiyalarını, məkan və zaman haqqında təsəvvürlərini genişləndirir" (1).

Bəzən belə suallar eşitmək olur: "İdrak hara, uşaq hara? Uşaqda idrak axtarmaq nə dərəcədə doğrudur?" Mütəxəssis olmayan insana bu mülahizələr inandırıcı gəlir. Əslində isə, sadə dillə desək, idrak – yeniliklərin kəşfidir. Yetkin insana elə gəlir ki, dünyada daha yeni heç nə yoxdur, hər şey kəşf olunmuşdur. Uşaq aləmində isə hər şey yenidir. Onlar yeni öyrəndikləri hər şeyə maraq göstərir, kəşf kimi baxırlar. Diqqət bu marağa yönəldilməsə, öyrənilənlər hafizədə qalmasa, təhlil-tərkib olunmasa, uşaqlar yenini dərk edə, onun əlaqə və asılılıqlarına, yəni cisim və hadisələr dünyasındakı münasibətlər sisteminə yiyələnə də bilməzlər. Məhz sərbəst seçim, sərbəst düşüncə və mənimsəməyə əsaslanan təhsil sistemi məktəbəqədər yaşdan başlayaraq uşaqlarda öyrənmə – idrak fəaliyyətinin inkişafını zəruri etmişdir.

Uşağın ümumi inkişafı və şəxsiyyətinin formalaşmasında idrak fəaliyyətinin əhəmiyyəti danılmazdır. Bütün dərketmə prosesləri idrak fəaliyyətinin təsiri altında inkişaf edir. İdrak yalnız zehni proseslərin deyil, şüurlu fəaliyyətin digər proseslərinin məcmusu kimi fikri əməliyyatların da fəallığını tələb edir.

İdrak fəaliyyəti uşaqlardan kifayət qədər əqli güc və gərginlik sərf olunmasını tələb edir. İntellektual əməliyyatların həyata keçirilməsinə hazırlıq lazımi dərəcədə olmadığından buna hər uşaq yiyələnə bilmir. Ona görə də mənimsəmə problemi yalnız bilikləri öyrənmək deyil, uzunmüddətli, davamlı diqqət, əqli gücün gərginliyini və iradi səy tələb edən prosesdir.

Müasir pedaqoq və psixoloqların məktəbəqədər yaşlı uşaqların təliminin müxtəlif aspektlərinin öyrənilməsinə yönələn tədqiqatları göstərir ki, uşaqların intellektual inkişafının məhsuldarlığı bütövlükdə yalnız təlim prosesindən, biliklərin verilməsindən deyil, eyni zamanda bu ikitərəfli prosesdə əks-əlaqədən, uşağın mövqeyindən, fəallığından da çox asılıdır.

Uşaqların maraq və qabiliyyətləri anadangəlmə olmur. Onların idrakı yaradıcı-məhsuldar fəaliyyətdə özünü büruzə verir, formalaşır. Bu vərdişlərin və qabiliyyətlərin aşkar olunması üçün uşaqların maraq və meyillərini erkən yaşlardan dəstəkləmək zəruridir. Elə şərait yaratmaq lazımdır ki, uşaq bu prosesdə öz maraqları ilə qarşılaşsın və öyrəndiklərini fəaliyyətində tətbiq etsin.

İdrak marağı – dərketməyə tələbat və onun təsiri ilə reallaşan fəaliyyətdir. İdraki maraq hər bir uşağa məxsusdur, lakin onun dərəcəsi və istiqaməti bütün uşaqlarda eyni deyil. İdrak maraqlarının inkişafı yeni bilik və bacarıqların əldə edilməsini nəzərdə tutur. Məktəbəqədər müəssisədə keçirilən məşğələlər müxtəlif intellektual bilik və bacarıqların əldə edilməsinə istiqamətlənir.

M.İ.Lisinanın fikrinə görə, idraki fəallığın inkişafı və formalaşmasının həlledici amili uşağın böyüklərlə – pedaqoq və valideynlərlə ünsiyyətidir. Bu prosesdə uşaq bir tərəfdən hadisələrə, əşyalara fəal maraqlı münasibət nümayiş etdirir, digər tərəfdən – öz davranışını idarə edən metodları mənimsəyir, yeni situasiyalarda təqdim edilmiş məsələlərin həllində çətinlikləri aradan qaldırır.

İdrak marağının inkişafının əsasını uşağın praktik və tədqiqatçılıq fəaliyyəti təşkil edir. Belə idrak proseslərinin müvəffəqiyyətlə yekunlaşması faktı birinci dərəcəli əhəmiyyət kəsb edir. Bu yolla müxtəlif emosiyalarla yeni biliklər əldə edilir.

İdraki hərəkətlərin təşkili uşağın artıq inkişaf etmiş tələbatlarına, hər şeydən əvvəl, onun böyüklərlə ünsiyyət tələbatına – hərəkətlərinin, davranışlarının, fikirlərinin və düşüncələrinin böyüklər tərəfindən dəstəklənməsinə əsaslanmalıdır.

İdraki maraqların tərbiyəsi əqli tərbiyənin ümumi sistemində – məşğələlərdə, oyunlarda, əmək təlimində, ünsiyyətdə həyata keçirilir və heç bir xüsusi məşğələ tələb etmir. Marağın inkişafının əsas şərti uşaqların ətrafda baş verən hadisələrlə ətraflı tanışlığı və onlara fəal münasibətin tərbiyə edilməsidir, məsələn, balaca oğlanı quşların xarici görünüşü, davranışı, müxtəlifliyi maraqlandırır. Buna görə də valideynə məsləhət vermək lazımdır ki, uşağa quşlar haqqında kitab oxusun, şəkillər göstərsin, onları təbiətdə, televiziyada müşahidə etdirsin.

Uşaqlara fərdi yanaşma çox vacib şərtdir. Utancaq, cəsarətsiz uşaqların ətrafda baş verənlərə maraq göstərməmələrinə səbəb onların özlərinə əminliyinin olmamasıdır. Onlara xüsusi diqqət göstərmək lazımdır: maraqlarını vaxtında aşkarlamaq, səylərini dəstəkləmək, uğur qazanmağa kömək göstərmək, digər uşaqlarla xeyirxah münasibətlər qurmağa sövq etmək və s. Uşağın marağını formalaşdırmaq üçün əvvəlcə onda inam, fikirlərini ifadə etmək bacarığı formalaşdırmaq lazımdır.

Hər bir uşağa həssaslıq və diqqət göstərərkən tərbiyəçi onun fərdi xüsusiyyətlərini nəzərə almalıdır, çünki hər hansı pedaqoji təsirə reaksiya uşaqların fərdi xüsusiyyətlərindən asılıdır. Tərbiyəçi-pedaqoq uşağın məktəb təlimində yeni şəraitə alışması üçün maneə törədən davranış çatışmazlıqlarını, bəzi neqativ cəhətləri vaxtında aradan qaldırır.

Fleqmatik, xolerik, sanqvinik, melanxolik uşaqlara müxtəlif yanaşmalar tələb olunur. Qarşıda gözlənilən məktəb təlimi mövqeyindən uşaqlara tətbiq olunan fərdi yanaşmanın, səmərəli taktikanın öz inkişafını ailədə və müəllimlərin müvafiq yanaşmalarında davam etdirməsi çox mühüm məsələdir.

Qrupda pedaqoqun müsbət emosional atmosfer yaratması uşaqlar arasında ünsiyyət mədəniyyətini möhkəmləndirir, onların dostluq əlaqələri məktəb kollektivinə alışmaları üçün zəmin yaradır.

Tərbiyəçinin qrupda etibarlı və rəğbətli dostluq münasibətləri qurması üçün aşağıdakıları bilməsi zəruridir:

- Bütün uşaqlara daim maraq və xeyirxah münasibət ifadə etməlidir.
- Uşaqlarla ünsiyyətdə emosional ifadələr işlədir. Onların fəaliyyətinə öz münasibətini bildirir ki, uşaqlar emosiyaları "oxuya" bilsinlər. Bunsuz qarşılıqlı anlaşma və kontakt mümkün olmur;
- Uşaqların tərbiyəçi ilə və bir-biri ilə ünsiyyətini xüsusi diqqətin predmeti kimi qəbul etməlidir.

İdrak marağının yaradılmasının əsas vasitələri didaktik məşğələlər və oyunlardır. Tərbiyəçinin uşaqlara təlimverici və inkişafetdirici təsiri onların diqqətini cəlb etməklə həyata keçirir. Nə etmək, nəyə baxmaq, eşitmək üçün göstərişlər verir, əyani vəsaitlərdən istifadə edir. Məzmunun müəyyənləşdirilməsi, fəaliyyətin istiqaməti uşaqlarda maraq, praktik və əqli fəallıq oyadır, qavramanın iradiliyinin, şüurluluğunun yüksəlməsinə təsir göstərir.

Məktəbəqədər yaş dövründə tərbiyəçi uşaqların əşyalarla tanışlığını elə planlaşdırır ki, onların diqqətini cəlb etsin, maraq oyatsın. Pedaqoq əşyanı elə təqdim edir ki, o, "özü haqqında məlumat versin", daha doğrusu, onun müxtəlif əlamətləri aydın görünsün.

Uşağın sualı təcrübəli tərbiyəçidə onun maraqlarının müəyyən istiqaməti, fikirlərinin yetkinliyi, həyati problemlərin dərk olunmasına cəhd edib-etməməsi haqqında təsəvvür yaradır. Sual vermək bacarığı onu göstərir ki, uşağın diqqəti hər hansı bir hadisəyə yönəlib, onu müşahidə edir, onlar arasında əlaqələri qura bilir. Sualda məlum məsələ ilə yenisi arasında əlaqəni qəbul etməyə tələbat yaranır. Uşaqlar bəzən onlara məlum olan suallarla böyüklərə təkrarən müraciət edirlər. Bununla onlar ünsiyyəti davam etdirmək, qarşısındakı insanın fikrini öyrənmək istəyirlər. Başqasının mövqeyi yeni suallar vermək üçün motiv yaradır. Sual vermək qabiliyyətini, həyat məsələlərinə maraqlı münasibəti daim inkişaf etdirmək idrak fəallığının tərbiyəsi üçün zəruridir. Bununla kifayətlənmək olmaz. Uşaqlarda biliklərə olan tələbatdan istifadə edərək tərbiyəçi onun maraqlarını istiqamətləndirməli və müstəqil cavab tapmaq qabiliyyətini aşılamalıdır.

Uşaqların suallarına cavab təsdiq və ya inkar formasında, qəti xarakter daşımamalıdır. Onlar əşya və hadisələri daha dərindən dərk etməyə, yalnız zahiri əlamətləri deyil, həm də aralarında əlaqələri görməyə kömək edən qısa söhbətlərlə müşayiət olunmalıdır. Uşağın sualına cavab həmişə konkret ola bilməz: onu hərdən hekayənin məzmununa daxil etmək, bədii obrazlar vasitəsilə çatdırmaq olar.Tərbiyəçi verilən suallar içərisində ən vacibini seçməyi bacarmalı və uşağın fikrini düzgün istiqamətləndirməlidir.

Uşaqlara müxtəlif suallarla müraciət etmək vacibdir. Bu suallar onların idrakını fəallaşdırır, müqayisələr, mülahizələr etməyə, qərarlar verməyə imkan yaradır. Bu, yeni biliklərin əldə edilməsinə tələbat yaradır.

Düzgün təşkil olunmuş təlim prosesində böyük məktəbəqədər yaşlı uşaqlar məlum biliklərdən istifadə edərək yeni fikir söyləməyi zəruri edən çətin tapşırıqları böyük məmnuniyyətlə yerinə yetirirlər.

Beləliklə, uşaqlarda idrak qabiliyyətlərini genişləndirməyə cəhd göstərmək, baş verən hadisələrə müdaxilə etmək, ətraf aləmə münasibətdə özünü təsdiqləmək tələbatı müşahidə olunur.

Uşaqlarda informasiyaların qəbul edilməsi, nizama salınması imkanlarının məhdudluğu daxil olan məlumatları mükəmməl təhlil etməyə imkan vermir.Ona görə də pedaqoq və valideynlərlə ünsiyyət böyük rol oynayır. Məktəbəqədər müəssisədə idrak fəallığının inkişafının əsasını uşaqların əqli tərbiyəsinin səmərəli metodlarının axtarışına istiqamətlənmiş, yaradıcı yanaşma və uşaqların fəal idrak fəaliyyəti təşkil edir.

## Ədəbiyyat


1. Məktəbəqədər təhsilin proqramı (kurikulum). Bakı, 2012.
2. Kərimov Y.Ş. Uşaq bağçasında nitq inkişafının metodikası. Bakı: "Maarif", 1985.
3. Həsənov M., Ağayev Ş. Məktəbəqədər yaşlı uşaqlarda oyun və əmək fəaliyyətinin təşkili. Bakı, 2001.
4. Həsənova P. Məktəbəqədər yaşlı uşaqların sosial-mənəvi inkişafı (dərs vəsaiti). Bakı, 2017.
5. Uşaq Hüquqları Konvensiyası.Bakı,1998.
6. Məktəbəhazırlıq qruplarında işin təşkili metodikası. YUNİCEF, 2017
7. Əmrahlı L. Məktəbə psixoloji hazırlığın əsasları. Bakı, 2008
9. Əliyev R.İ. Altıyaşlıların təlim motivlərinin öyrənilməsi. "İbtidai məktəb və məktəbəqədər tərbiyə", 1987, №3.
10. Выготски Л.С. Избранные психологические исследования. Изд-во АПН РСФСР, Москва, 1995.


### РАЗВИТИЕ ПОЗНАВАТЕЛЬНЫХ ИНТЕРЕСОВ У СТАРШЫХ ДОЩКОЛЬНИКОВ КАК ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКАЯ ПРОБЛЕМА


**резюме**

В статье рассказывается о важности познавательной деятельности в общем развитии ребенка и формировании его личности. Воспитание интереса и любопытства у детей осуществляется в общей системе психического здоровья – обучение, игры, трудовое обучение, общение и отсутствие специальной подготовки. Отмечается, что основным условием развития интереса является обширное знакомство детей с окружающими событиями и активное и волнующее отношение к ним.

**DEVELOPMENT OF COGNITIVE INTERESTS IN SENIOR PUPILS AS A PSYCHOLOGICAL AND PEDAGOGICAL PROBLEM**

**summary**

The article describes the importance of cognitive activity in the overall development of the child and the formation of his personality. The raising of interest and curiosity in children is carried out in the general system of mental health - training, games, labor training, communication, and lack of special training. It is noted that the main condition for the development of interest is an extensive familiarity of children with the surrounding events and an active and exciting attitude towards them.

# MƏKTƏBƏQƏDƏR MÜƏSSİSƏLƏRDƏ SAVAD TƏLİMİ ÜZRƏ İŞİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

**Yeganə Məmmədova,**
ADPU-nun Məktəbəqədər təhsilin pedaqogikası
və metodikası kafedrasının müəllimi
E-mail: yeganememmedova.doc@gmail.com

**Açar sözlər:** məktəbəqədər yaşlı uşaqlar, savad təliminə hazırlıq, oxu və yazı texnikası;

**Ключевые слова:** дети дошкольного возраста, подготовка к обучению грамоте, техника и чтения письма;

**Key words:** preschool children, preparation for literacy training, reading and writing technique.



Gənc nəslin tərbiyəsinin kiçik yaşlardan düzgün təşkilini həyata keçirmək məktəbəqədər tərbiyə müəssisələrinin qarşısında duran ən ümdə vəzifələrdən biridir. Bu dövrdə uşaqların ana dilinə yiyələnmələri təlim-tərbiyə işinin düzgün həyata keçirilməsindən çox asılıdır. Uşaqlara ana dilinin zənginliklərindən istifadə etməyi öyrətmək təlimin bütün mərhələlərində həyata keçirilməlidir. Məşhur rus pedaqoqu K.D.Uşinski qeyd etmişdir: “Ana dili hər bir əqli inkişafın və bilik xəzinəsinin əsasıdır. Uşaq ana dilini öyrənərkən yalnız şərti səsləri öyrənmir, eyni zamanda doğma ana dilinin döşündən mənəvi həyat və qüvvət içir. Ana dili təbiəti uşaqlara heç bir tərbiyəçinin izah edə bilmədiyi bir şəkildə izah edir” [5, səh.13]. Nitqi normal inkişaf etməyən uşağın ümumi inkişafından, xüsusilə təfəkkürünün inkişafından söz açmaq olmaz.

Ana dili tədrisi məktəbəqədər tərbiyə müəssisələrində böyük pedaqoji əhəmiyyəti olan məsələdir. Uşaqların təfəkkür səviyyəsini müəyyənləşdirməkdə və onun inkişaf yolunu təmin etməkdə ana dili tədrisinin ümumi təlim sistemində rolu son dərəcə böyükdür. Ana dili məşğələlərində uşaqlar öyrəndikləri biliklər əsasında məlumat mübadiləsi aparır, öz fikirlərini düzgün, səlis ifadə etmək üçün müvafiq sözlər axtarır, tapdıqları sözləri fəal lüğətlərində işlətməyə çalışırlar. Buna görə də tərbiyəçilər səylə çalışmalı, məşğələlərdə nitq inkişafının müxtəlif cəhətlərini – söz yaradıcılığını, nitqin qrammatik cəhətlərini və rabitəli nitqin inkişafını təmin etməlidirlər.

Hazırlıq qrupunda uşaqların tədris fəaliyyəti, plan üzrə hərəkət etmək, tapşırığı müstəqil yerinə yetirmək, tərbiyəçini dinləməyi bacarmaq fəaliyyəti formalaşır. Məktəbə gələrkən uşaqlar müşahidə aparmağı, müqayisə etməyi, sadə səbəb-nəticə əlaqələrini müəyyənləşdirməyi bacarmalı, təbiət hadisələri, insanlar, onların əməyi, qarşılıqlı əlaqələri haqqında məlumatlara yiyələnməlidirlər.

“Məktəbəqədər müəssisələrdə nitq inkişafı geniş, əhatəli olmaqla yanaşı, savad təliminə hazırlıq məşğələlərini də əhatə edir. Dil açdıqları dövrdən körpələrdə nitqin səs mədəniyyəti, səsləri düzgün tələffüz etmək üzrə çalışmalar, uşaqların lüğət ehtiyatının zənginləşdirilməsi, cümlə quruluşu üzrə işlər, nəticə etibarilə savad təliminə xidmət edir”. [6,səh.32]

Savad anlayışı uşağın oxumaq və yazmaq üzrə ilkin vərdişlərə yiyələnməsini nəzərdə tutur. Məlumdur ki, uşaq bir yaşından danışmağa başladığı, şifahi nitqə yiyələndiyi halda, yazılı nitqə

ən tezi beş ildən sonra yiyələnir. Uşağın ilkin oxu texnikasına yiyələnməsinin əsasında onun şifahi nitq sahəsində qazandığı vərdişlər durur. O, böyük hərflərin çap şəkli ilə tanış olduqdan sonra asanlıqla oxu texnikasına yiyələnir. Hərflərin yazılması, onların bitişdirilməsi üzrə vərdişlərə yiyələnmək çətin proses olub, nisbətən uzun vaxt tələb edir.

Uşağın savad təliminə hazırlanmasının əsasında nitqin səs mədəniyyətinin düzgün təşkili durur. Uşaq məktəbə gedənədək fonematik eşitmə bacarığına yiyələnməli, dilimizin bütün səslərini düzgün tələffüz etməyi, sözdə səslərlə hərflərin sayını və sırasını müəyyənləşdirməyi, bir hərfə görə fərqlənən sözləri tapmağı bacarmalıdır. Prof. Y.Ş.Kərimov bu haqda yazır: “Səs mədəniyyətinə səslənən nitqi xarakterizə edən xüsusi tələffüz keyfiyyətləri (səs tələffüzü, diksiya və s.), səs ifadəliliyinin elementləri (intonasiya, sürət və s.) ifadəliliyin hərəki vasitələri (mimika, jest), həmçinin nitq ünsiyyəti mədəniyyətinin elementləri (nitqin ümumi tonallığı, danışarkən duruş vəziyyəti və hərəki vərdişlər) daxildir”. [5, səh. 56]

Danışarkən sözü axıra qədər tələffüz etməmək, səs, heca buraxmaq və artırmaq, bir səsi başqası ilə əvəz etmək, sözlərin yerini dəyişik salmaq, nitqdə yerli şivə xüsusiyyətlərinə yol vermək bu dövr üçün xarakterikdir. Belə nöqsanlar uşaqların oxu texnikasına yiyələnmələrinə mane olur və yazıda da əksini tapır. Ona görə də müəllim uşaqların tələffüzünə müntəzəm nəzarət etməli, düzgün tələffüz nümunəsi göstərməklə onların aradan qaldırılmasına nail olmalıdır.

Zəruri hallarda uşağın loqopedə göstərilməsi təmin edilməlidir. Səslərin təhrif olunması çox vaxt onların aydın qavranılmaması ilə bağlıdır. Səslənmə etibarilə yaxın olan ***s-ş, ş-y, s-z, ç-c, q-ğ, r-l, d-t, b-p*** və s. səslərin hecalarda paralel tələffüzünü tələb etmək lazımdır. Belə səslərin fərqləndirilməsinə sözlərin səs təhlili prosesində nail olmaq mümkündür.

Savad təlimi dövründə uşaqların lüğət ehtiyatının zənginləşdirilməsi dərsliyin sütunlarında verilmiş sözlərlə başlanır. Mətnin lüğəti uşağın həyatı, ətraf aləm haqqında sözlərlə zəngindir. Sütunlardakı sözlər bəzən müxtəlif sahələrə aid olduğundan uşaqlar onların mənasını başa düşmürlər. Müəllim belə sözlərin səs-hərf təhlilini aparmalı, kəsmə əlifbanın köməyi ilə düzüm lövhəsində düzdürməlidir.

Savad təliminə hazırlıq nitq inkişafı ilə yanaşı, uşaqların oxu və yazı təliminə hazırlanmalarını ön plana çəkməyi tələb edir.Bu proqram tələbinin yerinə yetirilməsi tərbiyəçidən savad təliminin (oxu, yazı, nitq inkişafı, kalliqrafiya) incəliklərinə bələd olmağı tələb edir.

Uşaq məktəbəqədər müəssisədə ana dilindən praktik şəkildə istifadə etməyə başlayır, lakin nitqin köməyi ilə həyata keçirdiyi qaydaları dərk etmir. Oxu texnikasına yiyələnməyin ilk addımları sxemlər və kartoçkalar üzərində oyun xarakterli məşqlər hesab olunur. Tərbiyəçi cümlələri, sözlərin, hecaların və səslərin ifadə olunduğu sxemlələrlə uşaqları tanış etməlidir. Onlar bilməlidirlər ki, cümlədəki bitmiş fikir sözlərin düzgün sıralanmasını tələb edir.Ona görə də cümlədə neçə söz varsa, onun sxemində sözü əks etdirən o qədər işarə olmalıdır. Onlar öyrənirlər ki, sözü hecalara bölmək mümkündür. Hecalar da hərflərə bölünür, məsələn, “Arzu oynayır” cümləsinin sxemi belədir:



Uşaqlar bu sxemlər üzərində işləyərkən müəyyən vərdişlər qazandıqdan sonra uzanan və uzanmayan səslərlə tanış olurlar. Beləliklə, onlar sözün hecalara ayrılmasında saitlərin rolu haqqında praktik məlumata yiyələnirlər. Sözdə neçə sait varsa, o qədər də hecanın olduğunu öyrənirlər.

Məktəbəqədər dövrdə uşaqların yazıya hazırlanmaları da xüsusi diqqət və səy tələb edir. Səliqəli, gözəl yazı vərdişlərinə yiyələnmək üçün əlin kiçik motor əzələlərinin yazıya hazırlanması vacibdir. Uşağın yazıya başlaması onun yazı ləvazimatları ilə tanışlığı və onlardan istifadə edə bilməsi ilə bağlıdır. Uşaq dəftər, sətir xətti, karandaş, qələm və onları tutmaq qaydası ilə tanış olmalıdır. Yazarkən dəftərin aşağı sol küncünü sinənin ortasına yönəltməyi, sağ əllə qələm tutmağı, onun ucu ilə tutulduğu yer arasında 2 sm məsafə saxlamağı, sol əllə dəftəri tutmağı, sağ qolun dirsəyini stolun kənarından azacıq kənara çıxarmağı, sinəsini stola dayamamağı, çi-

yinləri dik tutmağı, başı azacıq aşağı əyməyi, gözlə dəftər arasında 20–25 sm məsafə saxlamağı öyrətmək vacibdir. Oxu və yazıya belə hazırlıq sonralar uşaqların ilkin oxu və yazı texnikasına müvəffəqiyyətlə yiyələnmələrinə imkan verir.

"Savad təlimi dövründə oxu və yazı texnikası üzrə məşğələlərin cansıxıcı xarakter daşımasının qarşısını almaq məqsədilə uşaqları məktəbəqədər oyun və əyləncə aləmindən ayırmamaq lazımdır. Hər beş-on dəqiqədən bir yumoristik əhvalat danışmaq, tapmaca, yanıltmac, oyun-nəğmələr, kiçikhəcmli şeir, hekayə, təmsil və nağıllar oxumaq uşaqların yorğunluğunu aradan qaldırır, marağını artırır, diqqətini daim oyanıq saxlayır. Uşaqlarla dialoqa geniş yer vermək, onlarda suala cavab vermək, dialoqa qoşulmaq bacarıqlarını inkişaf etdirmək lazımdır. [8, səh. 98] Bu məqsədlə süjetli şəkillər komplektindən, uşaqların ekskursiya, gəzinti, oyun və əyləncələrdə gördüklərindən istifadə etmək olar.

Altıyaşlıların təliminin müvəffəqiyyətli və cəlbedici olması üçün düşündürücü və inkişafetdirici oyunlardan istifadə olunmalıdır. Oyun zamanı uşaqlar sərbəst olur, yeniliyi asanlıqla qavraya bilirlər. Oyun zamanı uşağın təfəkkürü, yaddaşı, müşahidəçilik qabiliyyəti, diqqəti daha asanlıqla inkişaf edir.

Tərbiyəçi hər bir məşğələyə vaxtında hazırlaşmalı, üzərində iş aparılacaq materialı diqqətlə seçməli, məşğələdə istifadə ediləcək iş formalarını, metod və priyomları müəyyənləşdirməlidir. O çalışmalıdır ki, təlim yükü uşaqların idrak imkanlarından nə ağır, nə də yüngül olsun. Nitq inkişafı üzrə iş uşaqların fiziki imkanlarına müvafiq olmaqla onların fikir və fəaliyyətini hərəkətə gətirməli, təfəkkürünü, yaddaşını inkişaf etdirməli, müqayisə, ümumiləşdirmə, əqli nəticəyə gəlmə bacarıqlarına yiyələnmələrini təmin etməlidir. Bütün bunlara nail olmaq üçün nitq inkişafı üzrə iş birtərəfli deyil, kompleks şəkildə aparılmalıdır. Bu dövrdə uşaqların nitqi elə inkişaf etdirilməlidir ki, sərbəst, düzgün, sürətli, ifadəli, şüurlu, qrammatik-orfoepik, leksik çalışmaları yerinə yetirməyə, gördükləri, eşitdikləri, yerinə yetirdikləri haqqında kiçikhəcmli hekayələr qurub, müstəqil danışmağa hazır olsunlar.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Proqramı (kurikulumu) (3-6 yaş). Bakı, 2012.
2. Baxışova Ş.A. Məktəbəqədər təhsil müəssisələrində uşaqların nitq inkişafı. Bakı, 2012.
3. Cəfərova L.,Əhmədova A.,Rəhimova S. Muasir uşaq bağçalarında təlimin təşkili. Bakı, 2011.
4. Kərimov Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı: "Nasir", 1997.
5. Məktəbəqədər təhsilin dövlət standartı və proqramı. 16 iyul, 2010-cu il.
6. Məmmədova A.M. Uşaq bağçasında beşyaşlıların məktəbə hazırlanması. Bakı, ADPU-nun nəşriyyatı, 2007.


**ОРГАНИЗАЦИОННЫЕ ОСОБЕННОСТИ РАБОТЫ ПО ОБУЧЕНИЮ ДЕТЕЙ ГРАМОТЕ В ДОШКОЛЬНОМ УЧРЕЖДЕНИИ**

**резюме**


В статье рассказывается об организационных особенностях по обучению детей грамоте в дощкольном учреждении. Он также охватывает дошкольное образование, учебники, публичное чтение и простые учебные занятия. Со времени развития языка, речи у детей, правильного произношения звуков голоса, обогащения словарного запаса детей, работы над предложениями и, в конечном счете, служат обучению. Отмечается, что педагог должен готовиться к каждому семинару своевременно, тщательно выбирать материалы, которые будут использоваться, и определять рабочие листы, методы и рекомендации, которые будут использоваться.


**ORGANIZATIONAL FEATURES OF WORK ON LEARNING CHILDREN IN PRESCHOOL ESTABLISHMENT**

**summary**


The article tells about the organizational features of teaching children to read and write to the board institution. It also covers preschool education, textbooks, public reading and simple study sessions. Since the development of language, speech in children, the correct pronunciation of the sounds of voices, enrichment of the vocabulary of children, work on the sentences and, ultimately, serve learning. It is noted that the teacher should prepare for each seminar in a timely manner, carefully select the materials to be used, and determine the worksheets, methods and recommendations to be used.

# RİYAZİ OYUNLAR VASİTƏSİLƏ ŞAGİRDLƏRİN MƏNTİQİ TƏFƏKKÜRÜNÜN İNKİŞAFI

**Zaman Məmmədov,**
ADPU-nun müəllimi, əməkdar müəllim,
"Ən yaxşı müəllim" müsabiqəsinin qalibi



**Açar sözlər:** riyazi oyunlar, tamamlama, komanda, yarış, inteqrasiya, fikir, Qarabağ hadisələri, tarixi günlər ;

**Ключевые слова:** математические игры, завершение, команда, соревнование, интеграция, идея, карабахские события, исторические даты ;

**Key words:** math games, completion, team, competition, integration, idea, Karabakh events, historical dates.

Şagirdlərdə riyaziyyata maraq oyatmaq məqsədilə dərsdə və sinifdənxaric işlərdə riyazi oyunların təşkilinin böyük əhəmiyyəti vardır. Riyazi oyunlar tədris prosesinin ayrılmaz hissəsi olmaqla yanaşı, onu tamamlayır, inkişaf etdirir."Oyun" sözünü eşidəndə uşaqlar çox sevinir, mövzuya xüsusi maraq göstərirlər.

Hər bir mövzu üçün elə oyun və çalışmalar seçilməlidir ki, bunlar materialın qavranılmasına və möhkəmləndirilməsinə kömək etsin. Tədrıs materialına əyləncəli elementlər daxil edəndə mənimsəmə asanlaşır. Yaxşı olar ki, oyunlar uşaqlar yorulduqda, səviyyələri nəzərə alınmaqla aparılsın. Yadda saxlamaq lazımdır ki, oyun könüllü olmalıdır. Oyun vaxtı uşağa irad tutmaq, onu danlamaq olmaz. Bu zaman onda oyuna maraq azalır. Oyun uşaqları yormamalıdır. O, ilk dəfə keçirilirsə, sürətlə aparmaq olmaz.

Riyazi oyunların aparılması məzmunu və metodikası haqqında bir neçə nümunəni nəzərdən keçirək.

***1."Tamamlama" oyunu.*** Şagirdlərdə şifahi hesablama vərdişlərinin formalaşmasında tamamlama metodundan istifadə etməyin böyük əhəmiyyəti vardır. Bu metodlar ən çox I, II və III siniflərdə öyrənilən mövzular möhkəmləndirilərkən tətbiq olunur.

Tamamlama metodu müxtəlif variantlarda tətbiq oluna bilər. Bu metoddan istifadə olunarkən ilk mərhələdə oyun xarakterində olur, sonra çalışmalar şəklində davam etdirilir. Şagirdlər ya dairə şəklində, ya da kiçik qruplarla əyləşirlər. Onlardan birinin əlində top olur. Bir nəfər topu başqasına atır və istənilən ədədi deyir (Əgər müəllim birinci onluq dairəsində ədədləri öyrədirsə, 10-a əsasən tamamlamağı, sonrakı onluqları tədris edirsə, verilən ədədləri 20-yə, 30-a, 40-a, 100-ə görə tamamlamağı tapşırır).

Məsələn, oyunçulardan biri deyir: "8". İkinci oyunçu topu tutub, cavabda "12" deyir (iyirmi ədədini almaq üçün çatışmayan ədəd qədər). Cavabdan sonra özü tapşırıq verir: " 17". Növbəti oyunçu topu tutub, ona cavab verir: "3" və s. Oyun get-gedə sürətlənir. Kim 3 dəfə səhv edərsə, o, ayaq üstə durur. Oyunda bütün sinif iştirak edir. Top tez-tez onu gözləməyən oyunçuya düşür, nəticədə hesablamalarda uşaqların əksəriyyəti iştirak edir. Oyun 5–7 dəqiqədən çox çəkmir. Tez və daha çox düzgün cavab verənlər qalib sayılırlar. Müəllim "Yüzlük" mövzusunun tədrisi zamanı bu metoddan istifadə edə bilər. Tutaq ki, bir dərsdə şagirdləri ikirəqəmli ədədlərin 100-ə qədər tamamlanması üzərində çalışdırmaq lazımdır. Bunun üçün yazı taxtasında "100" yazıb, uşaqlara deyır:

–Mən sizə müxtəlif ədədlər deyəcəyəm. Siz isə bu ədədləri 100-ə qədər tamamlamalısınız. Məsələn, mən sizə 25 deyəndə, siz bunun üzərinə o qədər təklik gəlməlisiniz ki, 100 alınsın. Mən cavab vermək üçün kimi çağırsam, o, 75 deməlidir.

Bundan sonra iş sürətlə davam etdirilir. Müəllim 3–5 dəqiqə ərzində bütün sinifdən soruşur.

Həyatda, alqı-satqı zamanı, ümumiyyətlə, çıxma əməlində həmişə tamamlama metodundan geniş islifadə olunur, məsələn, alıcı aldığı şey üçün 36 manat verməli olduqda kassaya 100 manat verərsə, kassir qalan pulu ona qaytararkən tamamlama metodu ilə hesablayacaq. Şifahi hesablamanın bu metodunu bütün siniflərdə tətbiq etmək olar.

Yuxarıdakı misallarda ancaq nəticəni sabit götürdük, lakin toplananlardan hər hansı birini belə hesablamaq olar. Müəllim şagirdlərə belə göstəriş verır:

–Mən müxtəlif ədədlər söyləyəcəyəm, sız isə onlardan hər birinin üstünə eyni ədədi, məsələn, 8 ədədini gəlin (bu ədədi yazı taxtasında da yazmaq olar). Mən sizə “27” dedikdə, siz də “ürəyinizdə” buna 8 əlavə edir və 35 alırsınız. Sizi çağıranda 35 deyın. Diqqət! Başlayırıq!

Bundan sonra məşğələ sürətlə aparılır. *Müəllim*: 7! *Şagird*: 15! *Müəllim:* 20! *Şagird:* 28! və s. deyir.

Aydındır ki, sabit toplanan kimi müxtəlif ədədlər götürülə bilər. Aşağı siniflərdə bunlar birrəqəmli, həm də ikirəqəmli ədədlər ola bilər.

***2. "Dinməzcə" oyunu.*** Bu oyun üçün bir kvadrat, mərkəzində və çevrə boyunca rəqəmlər yazılmış dairə götürülür (başqa həndəsi fiqurlar da ola bilər).







Mərkəzdə yazılmış rəqəmin yanında hesab əməllərindən birinin işarəsi yazılır. Bu ədəd sabit komponent sayılır. Oyun prosesi belədir: Hazırlanmış əyani vəsait yazı taxtasından asılır. Tutaq ki, dairənin mərkəzində 6 rəqəmi, bunun yanında da toplama (“+” işarəsi) durur. Şagirdlərdən biri yazı taxtasına çağırılır.

Müəllim çevrə üzərindəki ədədlərdən birini göstərir. Şagird ürəyində bu ədədin üstünə mərkəzdəki ədədi gəlir və cavabı yazı taxtasında yazır. Müəllim çevrə üzərindəki başqa bir ədədi göstərir, şagird yenə bunun üstünə mərkəzdəki ədədi əlavə edir və nəticəni yazı taxtasına yazır. Müəllim işarə ilə rəqəmi göstərir, şagird də dinməzcə hesablayır və nətiçəni yazır. Şagirdlər yanlış cavab gördükcə dinməzcə əllərini qaldırır və səhv buraxılmış olduğuna işarə edirlər. Buna görə də həmin oyuna “Dinməzcə” adı verilir. Bu oyunun həm təhsil, həm də tərbiyəvi əhəmiyyəti vardır: intizamı möhkəmləndirir, şagirdlərin məsuliyyətini artırır. Vurma və bölmə əməllərinin tədrisi zamanı bu oyundan geniş istifadə olunmalıdır.

***3. “Dairəvi misallar” oyunu.*** Müəllim misallar yazılmış kartoçkaları şagirdlərə paylayır və onları belə başa salır:

– Hər bir misalın birinci ədədi özündən əvvəlki misalın cavabına bərabər olur.

| | | | | |
|---|---|---|---|---|
| 4·5 | 20·5 | 100-65 | 35:7 | 5 ·12 |
| 60:4 | 15-8 | 7·9 | 63-51 | 12:3 |

–Uşaqlar, hansı misalı istəsəniz, həll etməyə başlayın. Birinci misalı həll edəndən sonra bundan alınan cavabla başlayan misalı axtarın. Misalların həllini axıradək davam etdirin. Əgər aldığınız cavabla başlayan misal tapmasanız, deməli, haradasa səhv etmisiniz. Ona görə həlli yoxlamalısınız.

Müəllim sonuncu cavabın ilk misaldakı birinci ədədə bərabər olduğunu uşaqlara deməyə də bilər. Bu halda müəllim həmin qaydadan istifadə edərək, həllin düzgün olub-olmadığını asanlıqla yoxlaya bilər. Yoxlama belə aparılır: Müəllim şagirdlərdən birini çağırır və aldığı cavabın hansı misaldan başladığını soruşur. Bu iki ədəd bərabər olarsa, misalların hamısı düz həll

edilmişdir.

Uşaqlar böyük həyəcanla hesablamaları aparır və sonuncu ədədlərin bərabər olmasına çox sevinirlər.

Dairəvi misalları müstəqil tərtib etməyin yolunu da uşaqlara öyrətmək lazımdır. Tutaq ki, birinci misal belədir: 17–15, cavabda 2 alırıq. Bu ədəddən də ikinci misalı başlayırıq: 2+12 və beləliklə, axırıncıdan (17–15) başqa sonrakıları tərtib edirik:17–15; 2+12; 14–3; 11+9; 20–8; 12–2. Axırıncı misalı elə tərtib etmək lazımdır ki, onun nəticəsi birinci misalın başladığı ədədə (17-yə) bərabər olsun. Beləliklə, axırıncı misal 10+7 olur və zəncir qapanır. Bu oyunu sinifdə, kollektiv şəkildə də aparmaq olar. Müəllim yazı taxtasına dairəvi misallar yazır (əlbəttə, dəyişik sıra ilə), uşaqlardan biri ilk misalı, sonrakı şagird ikinci misalı həll edir. Şagirdlər bu işi davam etdirir və bütün misallar həll olunur. Uşaqlara dairəvi misallar yazılmış kartoçkalar paylanır. Kartoçkalar, hərəsində 6 misal olmaqla, konvertlərə yerləşdirilir. Oyunu fərdi, müstəqil iş kimi təşkil etmək olar. Tapşırığı birinci yerinə yetirən şagird qalib sayılır. Dərsdə öyrənilən mövzuya uyğun misallar seçib, bu oyunu dəfələrlə oynamaq olar. Aparılan hesablamaların düzgünlüyünün uşaqların özlərinin yoxlamalarına imkan verdiyinə görə, bu oyundan il ərzində dəfələrlə istifadə edilə bilər.

***4.“Kollektiv hesablama” oyunu.*** Sinif 3 komandaya (sinifdəki sıraların sayına görə) bölünür. Sonuncu partalara bir vərəq qoyulur, bu vərəqin sətrinin başlanğıcında hər hansı ədəd, məsələn, 5 yazılır. Aparıcının işarəsi ilə həmin kağızı sıralara ötürmək lazımdır. Birinci şagird 5 ədədinə vahid, ikinci birincinin cavabına iki, üçüncü ikincinin cavabına 3 və s. əlavə edir. Şagirdlərin hər biri şifahi hesablama apararaq, yalnız cavabları yazır. Sırada 12 nəfər vardırsa, vərəqdə: 5, 6, 8, 11, 15, 20, 26, 33, 41, 50, 60, 71, 83 ədədləri yazılmalıdır.

Komandalar yarışırlar. Düzgün cavablar yazılmış vərəqi birinci gətirən komanda qalib hesab olunur.

Bundan sonra ikinci, deyək ki, üzərində 100 ədədi yazılmış vərəq birinci partadan başlayaraq ötürülür. Birinci şagird 100-dən vahid, ikinci onun cavabından iki, üçüncü ikincinin cavabından 3 və s. çıxmalıdır. Kağız axırıncı partaya çatanda onu aparıcıya verirlər. Sırada 12 uşaq oturmuşdursa, kağızda: 100,99, 97, 94,90, 85,79,72, 64, 55,45, 34, 22 ədədləri olmalıdır.

***5. “Fikirdə tutulan ədədi tap” oyunu.*** Fikirdə tutulmuş ədədləri tapmağa aid, ən sadələrdən tutmuş mürəkkəblərə qədər müxtəlif oyunlar keçirmək olar.

Bu növ oyunlara bir neçə nümunə: Müəllim toplamaya aid bir misalı, məsələn, 7+13=20 misalını şagirdlər görmədən yazı taxtasında yazıb, üstünü örtür. Hansı misalı yazdığını tapmağı şagirdlərə təklif edir. Müəllim deyir: “Mən ikı ədədi toplayıb, 20 aldım. Bunlar hansı ədədlərdir?” Şagirdlər cəmləri 20 olan bir çox toplananları kombinasiya edir, nəhayət, 7+13 misalını tapırlar. Vurmaya aid də belə misallar vermək olar. “Mən iki ədədi vurdum və hasildə 48 aldım. Tapın görək, bunlar hansı ədədlərdir?” Şagirdlər müxtəlif vuruqların bir-birinə vurulmasından yaranan misallar (1·48; 2 •24; 3 • 16; 6·8; 12·4; 16·3; 48 • 1) söyləyirlər. Nəhayət, yazı taxtasında yazılmış misalı tapılır.

***Başqa bir oyun.*** Müəllim yazı taxtasında bir neçə misal yazır:

| | |
|---|---|
| 6+9 | 6·6 |
| 7+8 | 6·9 |
| 17–9 | 9·8 |
| | 7·6 |

O, şagirdlərdən birini çağırıb, arxası yazı taxtasına tərəf durmağı tapşırır. Bu zaman müəllim bu şagirdin hesablayacağı misalı bütün sinfə göstərir. Bundan sonra həmin şagird üzünü yazı taxtasına çevirir.Əgər şagird müəllimin sinfə göstərdiyi misalı tapıb, hesablamışsa, yoldaşları “Düzdür!” deyirlər. O, misalı tapmayıb, başqasını hesabladıqda sinif susur.

Şagird işi davam etdirir və bəzən bir sütun misalın hamısını həll etməli olur. Uşaqlar belə sadə oyunla da çox maraqlanırlar. Bu növ oyunlar I və II siniflər üçün yararlıdır. III–IV siniflərdə onları mürəkkəbləşdirmək olar, məsələn, uşaqlar hər hansı ədədi fikirlərində tuturlar.

Şagird müəllimin söylədiyi bir ədədi, məsələn, 17-ni həmin ədəddən çıxır, aldığı ədədi 2-yə vurur və nəticəni söyləyir. Şagirdlər tərsinə hesablama yolu ilə fikirdə tutulmuş ədədləri tapmağı bacarmalıdırlar.

***Misal*** : “Fikrinizdə 60-dan böyük və 40-dan kiçik olmayan bir ədəd tutun. Bu ədədi 2-yə bölün və alınan ədəddən 16-nı çıxın. Neçə alındı?” Tutaq ki, şagird cavabın 12 olduğunu söyləyir.

***Həlli.*** Fikrinizdə tutduğunuz ədədin yarısından 16 çıxdınız, 12 alındı. Deməli, fikrinizdə tutduğunuz ədədin yarısı 12+16=28 imiş. Fikrinizdə tutduğunuz ədədin yarısı 28 olduğu üçün bütöv ədəd 28·2=56 olacaqdır. Bu oyun şagirdləri çox maraqlandırır. Əvvəla, bu oyun tərsinə hesablama yolu ilə yoxlamaya əsaslanır, ikincisi, şagirdləri mürəkkəb düsturların tərkibi və təhlili ilə tanış edir.

***6. “Qarabağ hadisələri. Tarixi günlər, milli bayramlar” oyunu.*** Müəllim şifahi hesablamaları “Oxu”, “Azərbaycan dili”, “Təbiətşünaslıq” və başqa fənlərin tədrisi ilə əlaqələndirə bilər. Bu, dərsi daha da maraqlı edir, şagirdləri fəallaşdırır. Unutmamalıyıq ki, yaddaşımız unutqanlığa məruz qalır. Unutqanlıq ucbatından tarixən ermənilər başımıza olmazın münasibətlər açmış və biz dədə-baba torpaqlarımız olan İrəvan, Zəngəzur, Göyçə və s. ərazilərimizi itirmiş, nəticədə Qarabağ faciələri ilə üzləşmişik. Ona görə də müəllim riyaziyyat dərslərində şifahi hesablamalar apararkən dərsini elə qurmalıdır ki, mütləq bu tarixi hadisələr uşaqların yaddaşında dərin iz buraxsın və ermənilərə qarşı nifrət hissi tərbiyə olunsun. Bir sıra misal və məsələlərin həlli zamanı həmin hadisələri, tarixi günləri və bayramları şagirdlərin təsəvvüründə möhkəmlətmək olar.

Müəllim şagirdlərə belə sualla müraciət edir: – Xocalı faciəsi nə vaxt olub? Şagirdlər cavab verə bilmədikdə ona nəticəsi 26 olan hər hansı bir misalı həll etmək tapşırılır: 56–30=26, yaxud “Azalan 7 və 8 ədədlərinin hasili, çıxılan 6 və 5 ədədlərinin hasilidir. Fərqi tap.”

1) 7·8–6·5=56–30=26. Şagird misalı düzgün həll etdikdən sonra cavab müəyyənləşdirilir: “26 fevral, 1992-ci il Xocalı faciəsi günüdür”.

Müəllim misalları ifadə şəklində və komponentlərin adlarını deyərək, riyazi imla şəklində ifadə edir. Şagirdlər misalı həll edib cavabı deyirlər. Cavabda alınan rəqəmin hansı hadisəyə uyğun gəldiyini bir daha şagirdlərin yadına salır. Beləliklə:

1) Xocalı faciəsində neçə nəfər şəhid olmuşdur?

100-ə 6 ədədlərinin hasilinə 23 və 10 ədədlərinin fərqini əlavə et.

100·6+23–10=613 (Xocalı facıəsində şəhid olanların sayı )

2) Xocalı faciəsində neçə qadın şəhid olmuşdur? Azalan 206, çıxılan 100. Fərqi tap.

206–100=106 (Xocalıda şəhid olan qadınların sayı)

3) Xocalıda 1–18 yaşlarında neçə uşaq və gənc şəhid olmuşdur. Birinci toplanan 50, ikinci toplanan 3-lə 3-ün hasili. Cəmi tap.

50+3·3=59 (1 yaşdan 18 yaşına qədər şəhid olan yeniyetmələrin sayı)

4) Xocalıda neçə nəfər yaşlı və ahıl insan şəhid olmuşdur? 10 və 7 ədədlərinin hasili hansı ədəddir?

10·7=70 (yaşlı və ahıl insanların sayı).

5) Neçə uşaq hər iki valideynini itirmişdir? Bölünən 100, bölən 4-dür. Qisməti tap.

100 : 4=25 (hər iki valideynini itirmiş uşaqların sayı)

6) Neçə uşaq valideynlərindən birini itirmişdir? Birinci toplanan 2 ilə 100-ün hasili, ikinci toplanan 6 ilə 5-in hasili. Cəm neçədir?

2·100+6·5=200+30=230 (valideynlərindən birini itirmiş uşaqların sayı)

7) Xocalı faciəsində neçə nəfər əlil olmuşdur? Azalan 587, çıxılan 100, fərqi tap.

587–100=487 (Xocalı faciəsində əlil olanların sayı)

8) Xocalı faciəsində neçə nəfər itkin düşmüşdür? Birincı toplanan 100, ikinci toplanan 10-la 5-in hasili, cəmi tap.

100+10·5=150 (itkin düşənlərin sayı)

Misalı oxu:

9) Xocalı faciəsində neçə nəfər əsir düşmüşdür? 1000+275=1275 (əsir düşənlərin sayı)

10) 100-lə 60-ın fərqindən 20 ədədini çıx.

(100–60)–20=20. 20 noyabr – 1991-ci il ermənilər tərəfindən Xocavənd (Martuni) rayonu Qarakənd yaxınlığında vertolyot vurulmuşdur.

11) İşğal olunmuş ərazilərimizin tarixindən: 6 ilə 3-ün hasili: 6·3=18 (1992-ci il, fevralın 18-də Xocavənd rayonu işğal olunub).

12) 6·10–51=9 (9 may, 1992-ci il – Şuşanın işğalı günü).

13) 10+7–0=17 (17 may, 1992-ci il – Laçının işğalı günü).

14) 6 ilə 7-nin hasilini 7-yə bölərək, alınan ədədi deyin:
6·7:7=42:7=6 (6 aprel, 1993-cü il – Kəlbəcərin işğalı günü).

15) Birinci toplanan 20, ikinci toplanan 30-la 10-un qisməti. Cəmı tap. 20+30:10=23 (23 iyul, 1993-cü il – Ağdamın işğalı günü).

16) Azalan 63, çıxılan 40. Fərqi tapın.
63–40=23 (23 avqust, 1993-cü il–Cəbrayılın işğalı günü).

17) 55–24=31 (31 avqust, 1993-cü il – Qubadlının işğalı günü).

18) 9 və 5 ədədlərinin hasilindən 4 və 5 ədədlərinin hasilini çıxın.
9·5–4·5=25 (25 oktyabr, 1993-cü il – Zəngilanın işğalı günü)

19) 60–(32+8)=20 (20 yanvar, 1990-cı il – Şəhidlər günü – Ümumxalq Hüzn günü)

20) 49 ədədinin 7-yə bölünməsindən alınan qismətdən 15 və 13 ədədlərinin fərqini çıx.
49:7–15–13=5 (5 oktyabr – Müəllimlər günü).

21) Azalan 23, çıxılan 5, fərqi tapın.
23–5= 18 (18 oktyabr – Dövlət Müstəqilliyi günü).

22) Azalan 33, çıxılan 15, fərqi tapın (18 sentyabr – Milli Musiqi günü).

23) Bölünən 60, bölən 5, qisməti tapın.
60:5=12 (12 noyabr – Azərbaycan Respublikasının Konstitusiyası günü).

24) 81–64=17 (17 noyabr – Milli Dirçəliş günü)

25) 55–24=31 (31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik günü).

26) 100:50=2 (2 fevral – Azərbaycan Gəncləri günü).

27) 90–(50+32)=8 (8 mart – Beynəlxalq Qadınlar günü).

28) 20 və 4 ədədlərinin hasilindən 20 və 3 ədədlərinin hasilini çıx.
20 • 4–20•3=20 (20 mart – Novruz bayramı).

29) Azalan 65, çıxılan 34, fərqi tap.
65–34=31 (31 mart – Azərbaycanlıların Soyqırımı günü).

30) 100 və 10 ədədlərinin qismətini 1 və 1 ədədlərinin hasilinə vur.
(100:10) ·(1· l)=l0 10 may – Ümummilli lider Heydər Əliyevin ad günü).

31) 34–18:3=28 (28 may – Respublika günü).

32) 45:45=1 (1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi günü).

33) Azalan 9 və 5 ədədlərinin hasili, çıxılan 23 və 7 ədədlərinin cəmi. Fərqi tapın.
9·5–23+7=45–30= 15 (15 iyun – Milli Qurtuluş günü).
Azalan 96, çıxılan 50 və 20 ədədlərinin cəmi. Fərqi tapın.

34) 96–(50+20)=26 (26 iyun – Silahlı Qüvvələr günü).

***7. Təbiətşünaslıq fənni ilə əlaqəli oyunlar***

1) "Azərbaycan" sözündə neçə hərf var? (10).
"Azərbaycan" sözündəki hərflərin iştirakı ilə 10 rayon adı yazın.

| | |
|---|---|
| 1. A | 6. A |
| 2. Z | 7. Y |
| 3.Ə | 8. C |

4.R 9. A
5.B 10. N

2) Bakıdan başqa adı 4 hərfdən ibarət olan daha 5 rayon mərkəzinin, şəhərin adını deyin və s.

Beləliklə, bu formada təşkil olunan oyunlar uşaqların riyazi, məntiqi təfəkkürünün inkişafında və vətənpərvərlik tərbiyəsində böyük rol oynayır.

**Ədəbiyyat**

1. Ümumtəhsil məktəblərinin I–IV sinifləri üçün fənn kurikulumları. Bakı, "Təhsil", 2008.
2. Həmidov S.S. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası. Bakı, ADPU-nun nəşriyyatı, 2012.
3. Məmmədov Z.Z. Riyaziyyatdan ibtidai sinif müəllimlərinə kömək. Bakı, ADPU-nun nəşriyyatı, 2013.
4. Abbasov N.R., Mahmudov B.H., Mahmudova E.H. İbtidai siniflərdə riyazi oyunlar, əyləncəli məsələlər və riyaziyyat testləri. Bakı: "Səda", 1998.

**РАЗВИТИЕ У УЧЕНИКОВ МАТЕМАТИЧЕСКОГО И ЛОГИЧЕСКОГО МЫШЛЕНИЯ ПУТЕМ МАТЕМАТИЧЕСКИХ ИГР**

**резюме**

В статье речь идет о развитии у учеников математического и логического мышления путем математических игр. Приводится примеры из разных логический и математиеских игр. Автор так же использовал материалы , исторические даты в построении таких игр и это актуально.

**DEVELOPMENT IN STUDENTS OF MATHEMATICAL AND LOGICAL THINKING BY MATHEMATICAL GAMES**

**summary**

The article deals with the development of pupils of mathematical and logical thinking through mathematical games. Examples from various logical and math games are given. The author also used materials, historical dates in the construction of such games and this is relevant.

# İBTİDAİ SİNİFLƏRDƏ MƏSƏLƏ HƏLLİ PROSESİNDƏ MÜASİR TEXNOLOGİYALARDAN İSTİFADƏ İMKANLARI

**Samirə Tağıyeva,**
ADPU-nun Riyaziyyat və onun ibtidai kursunun tədrisi metodikası kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru,
E-mail: sama-qasa@mail.ru;
**Zəhra Qurbanova,**
ADPU-nun magistrantı
E-mail: qurbanovaz@bk.ru



**Açar sözlər:** ibtidai siniflər, məsələ həlli, müasir texnologiyalar, əyani vəsaitlər;

**Ключевые слова:** начальная школа, решение проблемы, современные технологии, наглядные пособия;

**Key words**: primary school, issue solution, modern technology, visual aids.



İbtidai siniflərdə riyaziyyat təliminin müvəffəqiyyəti şagirdlərin məsələ həll edə bilmək bacarığı ilə müəyyənləşir.

I–IV siniflərdə məsələ həlli zamanı müasir texnologiyalardan istifadə dedikdə, əsasən, təlim prosesində istifadə olunan müasir metod, forma və vasitələr nəzərdə tutulur. Sözsüz ki, məsələ həlli zamanı seçilən vasitə və metodlar kiçikyaşlı şagirdlərin yaş səviyyələrinə və mövzuya uyğun olmalıdır. Belə olduqda, şagirdlərin həm elmi biliklərə yiyələnmə bacarığı, həm də psixoloji inkişafı təmin olunur.

İbtidai siniflərdə, hər bir mövzunun tədrisində olduğu kimi, məsələ həlli zamanı da təlim prosesinin əsas məqsədləri yerinə yetirilməlidir. Məsələ həlli zamanı şagirdlər həm təhsil almalı, həm tərbiyə olunmalı, həm də inkişaf etməlidirlər.

İbtidai siniflərdə məsələ həllinin təhsil funksiyası şagirdlərdə riyazi bilik, bacarıq və vərdişlər sisteminin formalaşmasına xidmət edir. Əsas riyazi anlayışların formalaşması, onlar arasındakı əlaqələrin müəyyənləşdirilməsi, riyazi dilin mənimsənilməsinə xidmət və s. məsələlər, əsasən, təhsilləndirmək funksiyasını yerinə yetirir.

Təlim öyrənmə prosesi olduğu üçün burada həm pedaqoji, həm də psixoloji əsasların özünəməxsus mövqeyi vardır. Kiçikyaşlı məktəblilərdə məsələ həlli prosesinə marağın əmələ gəlməsi, təlim prosesində onların fəallığının yüksəldilməsi, diqqətin toplanması, təfəkkür, nitq və s. psixi proseslərin inkişafında təlim vasitə və metodlarının xüsusi yeri vardır.

Araşdırmalar göstərir ki, riyaziyyat dərslərində kiçikyaşlı məktəblilərin psixoloji yüksəlişi onların psixi proseslərinin inkişafı kimi başa düşülür. İbtidai sinif şagirdləri məsələ həlli zamanı bəzi mücərrəd anlayışları başa düşmürlər. Bu da məsələnin səhv həllinə gətirib çıxarır. Mücərrəd anlayışların şagirdlər tərəfindən başa düşülməsində, əsasən, əyani və texniki vasitələr mühüm rol oynayır. Şagirdlər məsələnin şərtini əyani şəkildə dərk edərkən onu daha yaxşı başa düşürlər.

Hər bir dövrün xarakterinə uyğun olaraq, didaktikanı başlıcanı necə öyrətmək problemi təlimin qarşısında pedaqoji, psixoloji və metodik məsələ kimi durur. Texniki tərəqqi ilə əlaqədar olaraq, təlim prosesində yeni riyazi metodların və müasir texnologiyaların yaranmasına tələb artmışdır. Riyaziyyat təlimi üçün müqayisə, ümumiləşdirmə, mücərrədləşdirmə, proqramlaşdırma və s. metodlar məqsədəuyğun hesab edilir. Riyaziyyat dərslərində bu metodların hər birinin tətbiqi müxtəlif təlim vasitələri və formaları ilə yekunlaşdırılmalıdır. Bu metodlardan biri də riyaziyyat təlimində ***modelləşdirmə*** kimi göstərilir. Məsələ həll edilərkən modelləşdirmənin daha səmərəli tətbiqində müasir texnologiyalardan ("ağıllı lövhə", video, planşetlər, slaydlar və s.) istifadə əvəzsiz hesab olunur.

Apardığımız tədqiqatlara əsasən, ibtidai siniflərdə öyrənilən məsələlər ***sadə*** **və** ***mürəkkəb*** olmaqla iki yerə ayrılır. I sinifdə toplama və çıxmaya aid, II–IV siniflərdə isə vurma, bölmə, mötərizəli ifadələrə və s. aid məsələlər verilir. Bu məsələlərin həlli zamanı müəllim inteqrasiya edərək, məsələnin şərtinə uyğun tərbiyəvi təsir göstərə bilər. Bu zaman müəllim müasir texnologiya olan "ağıllı lövhə", video, planşetlər, slaydlardan belə istifadə edə bilər. Təlim prosesində bu texniki vasitələrdən istifadə etmək şagirdlər üçün həm maraqlıdır, həm də öyrənmə səviyyəsini artırmış olur.

I sinif riyaziyyat dərsliyində (Bakı,"Radius", 2016) 62-ci səhifədəki 4-cü məsələdə həm əyaniliyin, həm də modelləşdirmənin təmin olunmasına üstünlük verilir: "Məsələləri şəkil çəkməklə həll edin. Sonra şəkilləri elə dəyişin ki, "ədədin ikiqatına bir əlavə" modelinə uyğun olsun."

1) Meydançada 4 oğlan, 4 qız oynayırdı. Meydançada cəmi neçə nəfər oynayırdı?



2) Nərgizin 3 qara, bir o qədər də qırmızı karandaşı var. Nərgizin cəmi neçə karandaşı var?



3) Qabda iki qırmızı, bir o qədər də yaşıl alma var. Qabda cəmi neçə alma var?



Məsələnin həlli: Müasir təlim prosesi şagirdyönümlü olduğu üçün müəllim məsələnin həlli zamanı şagirdlərin marağını nəzərə almalıdır.

I. Müəllim uşaqların meydançada hansı oyunları oynadıqlarını soruşur. 1) Sonra isə o, uşaqlardan kimin futbol oynamağı sevdiyini soruşur. O, öncədən hazırladığı PPT vasitəsilə

"ağıllı lövhə"də 4 oğlan, 4 qız futbolçu şəkillərinə sinifdə futbol oynamağı xoşlayan uşaqların şəkillərinin baş hissəsini əlavə edir. Müəllim daha sonra yazı taxtasındakı futbolçuları saymağı tapşırır: 4+4=8 . 2) Müəllim futbol oynamağı xoşlayan uşaqlara (4 oğlan, 4 qız) məsələdəki say qədər futbolçu geyimi paylayır. Uşaqlar onları geyinib, yazı taxtasının qarşısına çıxırlar. Sonra futbolçuları saymaq tapşırılır: 4+4=8

II. Müəllim uşaqlara 3 qırmızı və 3 qara karandaş götürməyi, onları saymağı tapşırır. Müəllim sinfə 3 qara, 3 qırmızı karandaşın təsvir olunduğu animasiya nümayiş etdirir. Sonra isə uşaqlara karandaşları saymağı tapşırır: 3+3=6

III. 1) Müəllim hər uşağa öz planşetində iki yaşıl, iki qırmızı alma çəkdiri. Sonra onları sayırlar: 2+2=4. 2) Müəllim uşaqlara plastilindən iki yaşıl, iki qırmızı alma düzəltməyi tapşırır. Sonra onları sayırlar: 2+2=4. 3) Müəllim videoçarxla bir ağacın üstündə iki yaşıl, iki qırmızı alma olan animasiya göstərib, onların nə qədər olduğunu soruşur.

İbtidai siniflərdə hərəkətə aid olan məsələlər şagirdlərə daha mücərrəd görünür. Bu zaman vacibdir ki, şagirdlər o məsələnin şərtini hərəkətli formada görsünlər. Təlim prosesində bunu məhz müasir texnologiyaların ("ağıllı lövhə", video, planşetlər, slaydlar və s.) vasitəsilə həyata keçirmək mümkündür.

Məsələ həlli prosesində kiçikyaşlı məktəblilərin bilik, bacarıq və vərdişlərinin, onların riyazi təfəkkürünün inkişaf səviyyəsini və öyrənməyə marağının səviyyəsini müəyyənləşdirmək üçün məsələlər bu mövzuda olmalıdır. Məsələlərin həlli prosesində həm öyrənmə obyekti, həm də öyrətmə vasitəsi pedaqoji və psixoloji baxımdan biliklərin ümumiləşdirilməsinə xidmət edir.

İbtidai siniflərdə şifahi həll olunan riyazi məsələlərin də böyük əhəmiyyəti vardır. Məsələləri şifahi həll edən kiçikyaşlı şagirdlərin həm zehni fəaliyyəti fəallaşır, həm də fəndaxili və fənlərarası əlaqələrin aşkar edilməsi sayəsində təlimin keyfiyyəti yüksəlir. Təlim prosesində şagirdlərin əldə etdikləri biliklərin həyati biliklər olduğunu bilmələri öyrənmə prosesini sadələşdirir, təlimin motivasiyasını artırmış olur.

Elmi idrak metodu olmaq etibarilə ***modelləşdirmə*** insanın cisim və hadisələrin oxşar xassə və əlamətlərini mücərrədləşdirmək və onların arasındakı münasibətləri müəyyənləşdirməkdən ibarətdir. Bu metodun köməyi ilə problemi öyrəndikdə eyni qayda ilə tədqiqi bilavasitə çətin bir prosesin xarakter və mahiyyəti haqqında müxtəlif fikirlər irəli sürülür.

Bu metod hər hansı bir problemi insanın özünə daha münasib bildiyi formadan istifadə edərək mənimsəməsinə şərait yaradır, yəni insan özü üçün problemin sadə, başa düşülən modelini düzəldir.Təsadüfi deyil ki, rəssamlar, filosoflar, təbiətşünaslar, şairlər və riyaziyyatçılar modelləşdirmə metodundan tez-tez istifadə edirlər. Onların hər biri cəmiyyətin özünəməxsus modelini yaradaraq fəaliyyət göstərirlər. Burada zehni mücərrədləşdirmə aparılarkən müşahidə olunanların təsvirində yüksək dəqiqlik tələb edilir. Şairlər, rəssamlar həqiqəti keyfiyyətə görə, təbiətşünaslar və riyaziyyatçılar isə kəmiyyətə görə təsvir edirlər. İbtidai siniflərdə məsələ həlli zamanı müasir texnologiyalardan ("ağıllı lövhə", video, planşetlər, slaydlar və s.) istifadə edilməsi həm təlim prosesində əyaniliyin təmin olunmasına şərait yaradır, şagirdlərin yeni bilikləri daha yaxşı qavramalarına imkan verir. Beləliklə, ibtidai sinif müəllimi bilməlidir ki, riyaziyyat fənni üzrə məzmun standartları ***bilik*** və ***fəaliyyətə*** ayrılır. Bilik özü də *deklarativ* (məlumat xarakterli biliklər, məsələn, anlayış, tərif, fakt), *prosedural* (fəaliyyətin icrasına dair prosedur qaydaları əhatə edən) və *kontekstual* (problemin həlli yolu ilə əldə olunan yeni biliklər) kateqoriyalara, fəaliyyət isə 3 takso- nomiyaya (*idraki, emosional* və *psixomotor)* ayrılır. Riyaziyyat dərslərində həll olunacaq məsələlərin siniflər üzrə mürəkkəbləşməsi də məhz biliyin və fəaliyyətin növlərindən asılı olur, məsələn, I, II siniflərdə həll olunacaq məsələlər daha çox deklarativ və prosedural olur. III və IV siniflərdə məsələlərin həlli zamanı isə kontekstual biliklərə üstünlük verilir. Bildiyimiz kimi, kiçikyaşlı məktəblilərin əsas fəaliyyəti təlim olsa da, onlar hələ də oyundan tam ayrılmış sayılmırlar. Aparılan araşdırmalara, əsasən, deyə bilərik ki, ibtidai siniflərdə təşkil olunan dərslərin çoxu oyun üzərində qurulduqda daha səmərəli nəticə verir. Bəzi pedaqoqlar deyirlər ki, uşaqlar oynayaraq öyrəndiklərini daha tez

mənimsəyir və unutmurlar. Belə ki, ibtidai siniflərdə riyaziyyatın təlimi prosesində didaktik oyunlardan geniş istifadə edilir. Hətta ibtidai sinfin riyaziyyat dərsliklərnə baxdıqda görürük ki, hər mövzuya uyğun didaktik oyun verilib. Müəllim bu oyunları elə təşkil etməlidir ki, onlar şagirdlərin marağına uyğun olsun, təlim prosesini zənginləşdirsin və qarşıda duran vəzifəni tamamlasın. İbtidai sinif riyaziyyat fənninin müasir pedaqoji texnologiyalarından sayılan didaktik oyunlar kiçikyaşlı məktəblilərin mənimsəmə qabiliyyətini yüksəltməklə yanaşı, idraki inkişafına da müsbət təsir edir. Müəllim didaktik oyunu keçirərkən əsas məqamlardan biri onun şərtlərinin izah olunmasıdır. Müəllim oyunu şagirdlərə elə izah etməlidir ki, kiçikyaşlı məktəblilər onu düzgün oynamaqla yanaşı, biliklərini də möhkəmləndirmiş olsunlar. Sözsüz ki, müəllim bunu *əyanilik* və *modelləşdirmə* vasitəsilə həyata keçirə bilər. III sinif dərsliyində (“Riyaziyyat”, Bakı, “Radius”, 2016, 152səh.) 57-ci səhifədəki məsələni oxuyuruq: “Cədvələ görə məsələləri həll edin. Məsələləri kağızdan kəsilmiş pullar üzərində araşdırın”.

| alınan mallar | qiyməti |
|---|---|
| karandaş | 1man.50qəp. |
| stiker | 1man.40qəp. |
| kitab | 3man.20qəp. |
| plastilin | 1man.50qəp. |
| çanta | 5man.70qəp. |

1. Gülnaz 3 qutu plastilin almaq istəyir. O, nə qədər pul ödəməlidir?
2. Camalın 6 manat pulu var. O, bu pula neçə qutu karandaş ala bilər?
3. Nəzrin 1 kitab və 2 qutu stiker almaq istəyir. Onun 5 manatı var. Nəzrinin istədiklərini almağa pulu çatarmı?
4. Cədvələ görə bir məsələ qurun. (6, səh.57)

Bu məsələlərin həlli zamanı, şərtdə deyildiyi kimi, pul modellərindən istifadə olunması daha məqsədəuyğun sayılır, lakin bununla yanaşı, müəllim “ağıllı lövhə”nin tətbiqi ilə bu məsələlərin daha asan yolla həllinə nail ola bilər. PPT təqdimatda bir mağaza verə bilər. Orada cədvəldə adları göstərilən əşyalar olmalıdır. Müəllim o əşyaları qeyd edərək alıb, pullarını verə bilər. Bu, uşaqlar üçün həm yaddaqalan, həm də maraqlı olacaqdır.

Məsələlərin həlli:

1) Gülnaz 3 qutu plastilinə 4man.50 qəp. pul verdi. 1man.50qəp. x 3= 4man.50 qəp.
2) Camal 6 manat pula 4 qutu karandaş ala bilər. 6 man.: 1man.50qəp. =4
3) Nəzrin istədiklərini ala bilməz, çünki 1 kitab – 3man.20qəp. və 2 qutu stiker – 2man.80qəp – 6 man edir. 3man.20qəp. + 2man.80qəp.= 6 man.

Dördüncü şərt uşaqların yaradıcılığına əsaslanır. Müəllim çalışmalıdır ki, uşaqları məsələdəki problemlərə istiqamətləndirə bilsin.

İbtidai siniflərdə aparılan didaktik oyunları məqsəd, vəzifə, məzmun və tətbiqinə görə aşağıdakı növlərə ayırmaq olar: ***sözlü oyunlar***; ***riyazi oyunlar; əyani oyunlar.***

Bildiyimiz kimi, sözlü oyunlardan, əsasən, oxu və Azərbaycan dili dərslərində istifadə olunur. Riyazi oyunlar riyaziyyat dərslərində tətbiq edilir. Riyazi oyunlar, adından da göründüyü kimi, kiçikyaşlı məktəblilərin şifahi hesablama bacarıqlarının inkişafına xidmət edir. Oyun zamanı elə şərait yaradılmalıdır ki, kiçikyaşlı məktəblilər həll edəcəkləri məsələ üzərində düşünsünlər.

İbtidai siniflərdə təşkil olunan əyani didaktik oyunlar zamanı kiçikyaşlı məktəblilər məsələnin şərtini əyani görür və müqayisə edərək, cavabı daha asan tapırlar. Belə oyunlar şagirdlərdə müşahidə, müqayisə və təfəkkür qabiliyyətlərini inkişaf etdirmiş olur.

Beləliklə, müasir pedaqoji texnologiyalar təlimin keyfiyyətini artırmaqla yanaşı, şagirdlərin marağını da təmin etmiş olur. İbtidai siniflərdə riyaziyyat təlimi prosesində müasir pedaqoji texnologiyalar dedikdə, interaktiv metod və fəaliyyətlər nəzərdə tutulur.

**Ədəbiyyat**

1. Həmidov S.S. Məktəbin ibtidai siniflərində məsələ həllinin təlim metodikası, Bakı, 2003.

2.Qubaxlu B. Riyaziyyat dərslərində məsələ həlli üzrə bacarıqların inkişafı. "Məktəbəqədər və ibtidai təhsil", 2012 №4.

3.Əsədova İ. İbtidai siniflərdə məsələ həlli. " Məktəbəqədər və ibtidai təhsil", 2012, №3.

4.Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika.Yeni kurs. Bakı: "Nurlan", 2007.

5.Qəhrəmanova N.M., T.C.Əsgərova. Riyaziyyat.I siniflər üçün dərslik, Bakı: "Radius", 2016.

6.Qəhrəmanova N.M., Əsgərova C.S., Qurbanova L.X. "Riyaziyyat" (Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün dərslik). Bakı: "Radius", 2016.

**СПОСОБЫ ИСПОЛЬЗОВАНИЯ СОВРЕМЕННЫХ ТЕХНОЛОГИЙ**
**В НАЧАЛЬНЫХ КЛАССАХ ВО ВРЕМЯ РЕШЕНИИ ЗАДАЧ**

**резюме**

В статье определены способы использования современных технологий в процессе принятия решений в начальной школе. Использование современных технологий в решении задач в младших классах отличается своей оригинальностью. Создание и выбор задач в начальных классах требует специальных навыков от учителя. Потому что проблемы в младших классах влияют на психолого-педагогическое развитие детей. Поэтому очень важно выбрать инструменты, которые более эффективны в решении проблем.

**METHODS OF USYNG MODERN TECHNOLOQIES IN THE INITIAL**
**CLASSES DURING THE SOLUTION OF TASKS**

**summay**

The article identifies ways to use modern technologies in primary school decision-making. The use of modern technologies in the problem-solving process at primary grades differs in its originality. Creating and selecting issues in elementary grades requires special skills from the teacher. Because issues in elementary grades affect children's psychological and pedagogical development. So, it is very important to select the tools that are more effective in addressing issues.

# ***NOVRUZ ƏNƏNƏLƏRİ***

**Azərbaycanda Novruzun yaranma mərhələlərini əks etdirən dörd ünsürlə ( su, od, yel və-torpaq) bağlı mərasimlərin qeyd olunması ənənələrini özündə birləşdirir: su çərşənbəsi, od çərşənbəsi, yel çərşənbəsi və torpaq çərşənbəsi.**

***Su çərşənbəsinə* "Əzəl çərşənbə", "Sular Novruzu" da deyirlər. Su çərşənbəsində su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür. Su ilə bağlı müxtəlif şənliklər keçirirlər. Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Hələ gün doğmamışdan hamı su kənarına gedir, əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, suyun üzərindən atlanır, yaralıların yarasına su səpirlər. Xalqın inamına görə, su çərşənbəsində "təzə su"dan keçənlər, azarını, bezarını onun üstünə tökənlər il boyu xəstəliklərdən uzaq olarlar. Həmin gün su kənarında müxtəlif mərasimlər keçirilir, qədim türklərdə su tanrıları sayılan Aban və Yadanın şərəfinə nəğmələr oxunur. Su çərşənbəsi ilə əlaqədar çoxlu sayda inanclar, fallar, türkəçarələr, bayatılar, əfsanələr və rəvayətlər var.**

***Od çərşənbəsi* qeyd olunan ikinci çərşənbədir. Xalq arasında "Üskü çərşənbə", "Odlu çərşənbə" kimi tanınan bu çərşənbə qədim insanların Günəşə, oda olan müqəddəs inamından irəli gəlir. Adət-ənənəyə görə, bu gün tonqal qalayır, alovun üzərindən tullanmaqla daxildə olan bütün çirkabı və azar-bezarları yandırırlar.**

***Yel çərşənbəsi* xalq arasında "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə" kimi tanınan ilaxır çərşənbələrin üçüncüsüdür. İnama görə, bu çərşənbədə oyanan yel, külək artıq oyanmış olan suyu, odu hərəkətə gətirir. Şifahi xalq yaradıcılığında Yelin tanrı olması ilə bağlı müxtəlif nəğmə, əfsanə, rəvayətlər və s. yaranmışdır. Novruz şənliklərində icra olunan Yel baba mərasimi öz kökü etibarilə qədim əcdadlarımızın Yel tanrısına etiqadı ilə bağlıdır.**

***Torpaq çərşənbəsi* Novruz ərəfəsində qeyd olunan sonuncu çərşənbədir. Xalq arasında "Yer çərşənbəsi", "İlaxır Çərşənbə" və ya "Torpaq çərşənbəsi" adlanır. İnama görə, Torpaq çərşənbəsi yetişəndə torpaq artıq əkinə hazır olur və ona toxum səpmək olar. Rəvayətə görə, insanların ərzaq qıtlığından əziyyət çəkdikləri bu gündə Su, Od və Yel birlikdə Torpaq xatunun yeraltı məbədinə qonaq gəlir, burada yatmış Torpağı oyadırlar.**

# KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ VƏ ONLARA PSİXOLOJİ XİDMƏTİN TƏŞKİLİ

**Ramiz Əliyev,**

ADPU-nun Ümumi psixologiya kafedrasının müdiri,
psixologiya üzrə elmlər doktoru, professor.
E-mail: ramizeliyev1954@mail.ru



**Açar sözlər:** kiçikyaşlı məktəblilər, psixi inkişaf, məktəb psixoloqu, özünüdərk-etmə, tərbiyəvi təsir, birgə fəaliyyət;

**Ключевые слова:** младшие школьники, психическое развитие, школьный психолог, самосознание, воспитательное воздействие, совместная деятельность;

**Key words:** young schoolchildren, mental development, school psychologist, self-understanding, educational impact, mutual activities.

Təlim fəaliyyəti prosesində, ümumiyyətlə, insan həyatında kiçik məktəb yaşı dövrü xüsusi yer tutur. İbtidai siniflərdə yaxşı oxumayan şagirdin sonrakı illərdə müvəffəqiyyətlə oxumasına az rast gəlinir. Bu, ümumi və psixi inkişaf, şəxsiyyətin formalaşması baxımından da belədir.

Məktəb psixoloqunun fəaliyyətində də kiçik məktəblilərlə iş daha çox yer tutur. Xüsusilə, məktəbə qəbul və I siniflərlə iş zamanı bu, daha çox hiss olunur.. Buna görə də biz məktəb psixoloqunun ibtidai sinif şagirdləri ilə fəaliyyəti üzərində ayrıca dayanmaq istərdik. Onlarla iş məktəbə qəbuldan başlayır və II–IV siniflərdə davam etdirilir. Uyğun cəhətlərlə yanaşı, biz hər bir sinif üçün spesifik olanları, başlıca cəhətləri, onlarla iş qaydalarını fərqləndirməyi daha məqsədəuyğun hesab edirik.

İkincilər yeni dərs ilinə artıq "təcrübəli" şagirdlər kimi başlayırlar. Məktəbə adaptasiya olunmaq, sinif yoldaşları ilə tanışlıq, onlar və müəllimlə qarşılıqlı münasibətlərin qurulması mərhələsi artıq başa çatmış olur. İndi onun məktəb həyatı haqqında, onu orada nələrin gözlədiyi barədə geniş təsəvvürləri vardır.

İkincilərin öz gələcək fəaliyyətləri ilə bağlı gözləmələri daha çox I sinifdəki vəziyyətlərindən asılıdır: "I sinifdə yaxşı oxuyurdum. Yəqin bu il də yaxşı oxuyacağam", "I sinifdə o qədər də yaxşı oxumurdu, görək, bu il necə olacaq?" və s. mülahizələri onların valideynləri də söyləyirlər.

İkincilərin bu şəkildə özünüqiymətləndirmələri onların fəaliyyətinə də təsir göstərir. Məlumdur ki, özünüqiymətləndirmə insanın özü haqqında bilikləri və özünə münasibətini əks etdirir. İkincilərin özünüqiymətləndirmələri bir tərəfdən təlim fəaliyyətləri, digər tərəfdən isə böyüklərin, xüsusilə müəllimin onlara verdiyi qiymətdən çox asılıdır. Eyni zamanda, ikincilərin təlim fəaliyyəti ilə bağlı özünüqiymətləndirmələri birincilərdən fərqlənir. Birincilər daha eqoistdirlər və onlarda özünüqiymətləndirmə daha yüksəkdir.

II sinifdə şagirdlərin təlim fəaliyyəti ilə bağlı özünüqiymətləndirmə aşağı düşür. III sinifdə vəziyyət dəyişir, özünüqiymətləndirmə yenidən yüksəlir. Psixoloji ədəbiyyatda bu vəziyyət "ikinci sinif fenomeni" adlanır.

İkincilərdə özünüqiymətləndirmənin aşağı düşməsi onların özlərinə daha tənqidi yanaşa bilmələri ilə əlaqədardır. Onlar öz təlim fəaliyyətlərini daha obyektiv qiymətləndirə bilirlər, lakin

bu qiymətləndirmənin imkanları, təcrübə onlarda hələ məhduddur. Bu isə müəyyən mənada onlarda özünəinamı azaldır.

İkincilər üçün qiymət və qiymətləndirmə vacib şərtlərdəndir. Məlumdur ki, qiymətləndirmə proses, qiymət isə prosesin rəqəmlə ifadə olunan nəticəsidir. Qiymətləndirmə prosesində fəaliyyətin müsbət və mənfi tərəfləri izah olunur, mühakimə yürüdülür, məsləhətlər verilir və yalnız bundan sonra nəticə olaraq qiymət açıqlanır.

Təcrübə göstərir ki, müəllimlər, əsasən, şagirdin fəaliyyətinə qiymət verirlər, onun özünü qiymətləndirmir, izahedici işə diqqət yetirmirlər. Buna görə də məktəbli fəaliyyətinin yalnız nəticəsinə qiymət verilir. "Niyə? Nə üçün?" sualları isə izahsız, cavabsız qalır. Şagird başa düşə bilmir ki, niyə bu gün "3" aldı, dünən isə "5" almışdı. Valideynlər də, bir qayda olaraq, tapşırığın yerinə yetirilməsi ilə qiymət arasındakı əlaqəyə az diqqət verirlər. Onlar, əsasən, müəllimin qiyməti ilə razılaşırlar.

Əlbəttə, böyüklərin köməyi olmadan şagird öz fəaliyyətinə tənqidi qiymət verməkdə çətinlik çəkir. Nəticədə tədricən şagird üçün qiymət öz əhəmiyyətini itirir. ***V.A.Suxomlinskinin*** bu barədə söylədiyi fikirlər önəmlidir: "Məktəb həyatının ilk günündən uşağın qarşısında bir büt dayanır – qiymət. Bəziləri üçün bu büt xeyirxah, mehriban, digərləri üçün qəddar, rəhmsizdir. Uşaq beləcə bütü aldatmaq, qiymət almaq xatirinə oxuyur və bu işdən zövq almağı bacarmır".

Valideynlərin uşağa münasibəti istər-istəməz onların aldıqları qiymətə uyğun şəkildə formalaşır. Uşaqlar qiymət və münasibət arasındakı bağlılığı tez və asanlıqla tuturlar: "Anamın məndən o qədər də xoşu gəlmir, çünki mən onun ümidlərini doğrulda bilmirəm. O istəyir ki, mən "əlaçı" olum, amma mən tez-tez "3" alıram" və s.

Qiymətlə bağlı Ş.A.Amonaşvilinin də fikirləri maraqlıdır. O, "5"-i qalib, "4"-ü ümidverici, "3"-ü laqeyd, "2"-ni məğlub, "1"-i məhvedici adlandırırdı.

Valideynin uşağa münasibəti də onun aldığı qiymətə adekvat qurulur. Xüsusilə uşaq valideynin ümidlərini doğrultmadıqda, daha doğrusu, onun gözlədiyi baş vermədikdə ata-ana daha aqressiv olur. Belə şəraitdə uşağın özünəinamı itir ki, bu da onun təlim maraqlarını azaldır.

Psixoloq valideynə başa salmalıdır ki, təlim fəaliyyətində başlıca yeri heç də qiymət yox, yeni biliklər qazanmaq tələbatı, məsuliyyət hissi, əməksevərlik, real bilik və bacarıq tutur. Eyni zamanda, izah olunmalıdır ki, təlim müvəffəqiyyəti uşağın uğur qazanmasının yalnız bir cəhətidir və bəzi amillərdən asılıdır. Bunların arasında valideynin uşağa inamı, onda öz gücünə inam yaratması, bu işdə övladına yardımçı olması heç də sonuncu yerdə dayanmır.

Məlumdur ki, uşağın təlim müvəffəqiyyətində onun ev tapşırıqlarını necə icra etməsi, dərsə hazırlaşması mühüm yerlərdən birini tutur. Ev tapşırıqlarının hazırlanmasında valideynin, xüsusilə ananın köməyi, uşaqla əməkdaşlığı da vacib şərtlərdəndir. Təcrübə göstərir ki, heç də həmişə belə əməkdaşlıq zəruri səmərə vermir. Bu hala xüsusilə şəxsiyyətin inkişafı baxımından daha çox rast gəlinir.

Əməkdaşlığın səmərəsizliyi bir sıra amillərlə bağlıdır. İlk növbədə nəzərə çarpan isə valideynlə uşağın ətraf mühiti dərk etməsi ilə idrak prosesi arasındakı ziddiyyətlə əlaqədardır.

Valideyn hər hansı bir materialı dəfələrlə uşağa izah etsə də, uşaq onu qavraya bilmir. Valideyn üçün asan olan materialın uşaq tərəfindən mənimsənilməməsi və ya çətinliklə mənimsənilməsi təəccüblü hesab olunur. Belə olduqda valideyn ya əsəbləşir, yaxud da övladını "küt" adlandırır. Uşaq üçün maraqlı, anlaşılmaz olan suallara valideyn cavab vermək istəmir, çünki bunları adi şeylər hesab edir və s. İdrak fəaliyyətindəki fərqli yanaşmaları psixoloqlar ***koqnitiv dissonans*** adlandırırlar.

Aşağıda ana və uşağın koqnitiv metodunun üst-üstə düşən və ya düşməyən parametrlərindən bəzilərini veririk:

– materialın öyrənilməsi yolları: ümumi qanunauyğunluqlardan konkret nümunələrə və ya əksinə, ayrı-ayrı faktlardan ümumi qanunauyğunluğa doğru;

– keçmiş materiallarla yeninin əlaqələndirilməsi, müqayisələr aparılması;

– materialın qavranılması forması;

– bu və ya digər fənnə maraq göstərilməsi;
– emosional uyğunluq.

Koqnitiv münaqişə materiala ümumiləşdirilmiş və ya konkret formada fərqli yanaşma zamanı da baş verir. Ümumiyyətlə, tədqiqatlar göstərir ki, qadınlarda (qızlarda) subyektiv, kişilərdə (oğlanlarda) obyektiv təhlil, yanaşma üstünlük təşkil edir. Bu, həyat və fəaliyyətin bütün sahələrində özünü göstərir.

Tədqiqatlar göstərir ki, ana ilə övlad arasındakı koqnitiv münaqişə bir çox hallarda uşağın təlimə neqativ münasibətinə səbəb olur. Bu isə, təbii ki, valideyn-övlad münasibətlərinin korlanması ilə nəticələnir.

II sinifdən III sinfə keçməklə şagirdin həyatında bir sıra əsaslı dəyişikliklər baş verir. III sinif kiçik məktəb yaşı dövründə mühüm, həlledici dövr hesab olunur. Tədqiqatlar və təcrübə göstərir ki, şagirdlər məhz III sinifdən başlayaraq təlimə şüurlu münasibət bəsləyir, fəallıq göstərir, bütün əlamət və keyfiyyətlərinə görə məktəb həyatına daxil olurlar. Bunların bir qismi məhz həmin yaşda intellektual inkişafın səviyyəsi, fiziki yetkinliyin müəyyən həddi, kollektivin formalaşması, müəllim-şagird münasibətlərinin müəyyən olunması, şagirdin sinifdə statusunun müəyyənləşməsi ilə bağlıdır.

Təcrübə göstərir ki, məhz II sinfin sonları, III sinfin başlanğıcında intellektual inkişafda sıçrayış baş verir. Məhz bu dövrdə verbal təfəkkür, zehni fəaliyyət formalaşır ki, bu da təlim fəallığının yüksəlməsinə təkan verir. Təfəkkür imkanlarının genişlənməsi digər idrak proseslərinin də: qavrayış, hafizə, diqqət və s. inkişafını sürətləndirir. Görkəmli uşaq psixoloqu D.B.Elkonin kiçikyaşlı məktəblilərin inkişaf xüsusiyyətləri barədə yazırdı: “Bu dövrdə hafizə fikirləşən, qavrayış düşünən rolunu yerinə yetirir”. Yəni idrak prosesləri bir-biri ilə daha sıx çulğalaşır, biri digərinin inkişafında maksimum yardımçı olur.

Eyni zamanda bu yaş dövründə şagird öz psixi proseslərini ixtiyari şəkildə idarə etməyi öyrənir. Təbii ki, bu xüsusiyyətlərdən müəllim və psixoloq tərəfindən inkişafetdirici təlim prosesində istifadə olunmalıdır. Valideynlərlə söhbətdə psixoloq hökmən bu xüsusiyyətlərə diqqət yetirməli, fəaliyyətlərinin əlbir qurulmasının vacibliyini onlara başa salmalıdırlar.

Üçüncülərdə diqqətin inkişafı da sürətlənir, ixtiyari diqqət, əsasən, formalaşır. Bu amil kiçik məktəb yaş dövründən təlim müvəffəqiyyətinə də təsir göstərir. Təcrübə göstərir ki, şagirdin təlim uğurları onun diqqətinin inkişaf səviyyəsi ilə birbaşa əlaqədardır.

Psixoloji tədqiqatlarla müəyyənləşdirilmişdir ki, diqqətin xüsusiyyətlərindəki fərqli inkişafa (diqqətin mərkəzləşməsi, davamlılığı, həcmi, paylanması, keçirilməsi) uyğun olaraq ayrı-ayrı fənlərdə şagirdin təlim müvəffəqiyyəti də fərqli olur. Riyaziyyatın mənimsənilməsində diqqətin həcmi, ana dilinin mənimsənilməsində diqqətin paylanması, oxu təlimində diqqətin davamlılığı başlıca yer tutur. Beləliklə, diqqətin ayrı-ayrı xüsusiyyətlərini inkişaf etdirməklə şagirdin müxtəlif fənlər üzrə təlim müvəffəqiyyətini yüksəltmək mümkündür, lakin maraqlı burasıdır ki, diqqətin ayrı-ayrı xüsusiyyətlərini eyni dərəcədə və eyni metodla inkişaf etdirmək mümkün deyil. Diqqətin həcmini inkişaf etdirmək digərləri ilə müqayisədə daha çətindir. Baxmayaraq ki, kiçik məktəb yaşı dövründə bu göstərici 2,1 dəfə yüksəlir, lakin diqqətin keçirilməsi və paylanmasını müəyyən qədər məşq etməklə daha çox artırmaq mümkündür.

Məktəb psixoloqu da deyilənləri həm öz fəaliyyətində nəzərə almalı, həm də sinif müəlliminə, valideynə bu barədə məsləhət verməlidir. O, müxtəlif oyun, tapşırıq və məşğələlərlə valideyni tanış etməli, ondan istifadə qayda və yollarını öyrətməlidir.

Məlumdur ki, kiçikyaşlı məktəblilər dərsin öyrənilməsində mexaniki əzbərçiliyə və təkrarlara istinad edirlər, lakin psixoloji tədqiqatlar göstərir ki, bu, o qədər də səmərəli metod deyil. Onlar bu metodla mexaniki yaddasaxlamaya nail olurlar, lakin mənanın yadda saxlanması, məntiqi hafizə təlim prosesi üçün daha səmərəli metod hesab olunur. Məntiqi hafizə daha çox təfəkkür prosesi ilə bağlıdır. Bu mənada L.N.Tolstoyun fikri diqqəti cəlb edir: “Bilik o zaman bilik olur ki, o, yalnız hafizəyə deyil, təfəkkürə əsaslanır”. Məsələnin bu cəhətini məktəb psixoloqu valideynlərə izah etməklə yanaşı, marağı olan valideynlərlə məşğələlər də aparmalı-

dır. Bütün bunlarla yanaşı üçüncülərin fəaliyyətində başlıca yeri oxu tutur. Vaxtilə ***D.Didro*** deyirdi: "İnsanlar oxumağa son qoyduqda, fikirləşməkdən də əl çəkmiş olurlar".

III sinifdə şagirdlər müstəqil intellektual məşğələ olan oxuya fərqli münasibət bəsləyirlər. Məlum olduğu kimi, uşaqların bəziləri çox və həvəslə oxuyur, kitabdan ayrılmır, digərləri isə əksinə, oxumağa, yazmağa meyil göstərmir, bu işi yalnız məcburiyyət qarşısında, həvəssiz yerinə yetirirlər.Aydındır ki, az və həvəssiz oxuyan şagirdlərin oxu texnikası da zəifdir. Oxu vərdişlərinin olmaması təlim müvəffəqiyyətlərinə də mənfi təsir göstərir. Digər vərdişlər kimi, oxu vərdişi də gərgin səy və iradə tələb edir. Əlbəttə, yalnız məktəbdə, dərs prosesində bu vərdişi yaratmaq ən azı vaxt məhdudluğundan mümkün deyil. Deməli, şagirddə oxu vərdişi yaradılması üçün hökmən bu işə valideynlər də cəlb olunmalıdırlar.

Psixoloqların fikrincə, oxu vərdişinin yaranmasında uşağın emosional vəziyyəti xüsusi əhəmiyyət kəsb edir. Valideynlər bilməlidirlər ki, uşaq onların köməyini, həvəsləndirməsini çox yaxşı qəbul edir, onda özünəinam hissi artır.

Oxu tələbatı heç də öz-özünə yaranmır, lakin burada "güc tətbiq" edilməsi də yolverilməzdir. Oxu vərdişi illər ərzində yaranır və valideynin özünün oxumağa marağı uşaqda da tədricən vərdiş yaratması üçün az əhəmiyyət kəsb etmir.

IV sinif kiçikyaşlı məktəblilərin bu mərhələdə təlim fəaliyyəti ilə məşğul olduqları, uşaqlığın sonuncu ilidir. Dördüncülər ibtidai məktəb məzunlarıdır. Bu mərhələnin ən böyük, yeni başlayacaq mərhələnin isə ən kiçik üzvləridir. IV sinifdə şagirdlərin əksəriyyətində fərdi təlim üslubu formalaşır. Bu, ev tapşırıqlarının yerinə yetirilməsi prosesində özünü daha bariz şəkildə göstərir. Bəziləri məktəbdən gələn kimi, bir çoxu isə müəyyən qədər istirahət etdikdən sonra ev tapşırıqlarının həllinə başlayırlar. Kimisi tez və asanlıqla işə başladığı halda, digərlərinin hazırlıq mərhələsinə müəyyən qədər vaxt lazım olur. Bəziləri fəaliyyətə çətin tapşırıqların, dərslərin icrası ilə başlayır, digərləri isə əvvələ asan işləri salırlar. Kimi qrafiklər, sxemlər, qrafik təsvirlər olan dərsləri, başqaları isə bədii təsvirə dair materialları daha asan qavrayırlar. Təlim materiallarının belə fərqli qavranılması və öyrənilməsi şagirdlərin fərdi-tipoloji xüsusiyyətləri, iş qabiliyyətləri, idrak imkanları, informasiyanı qavrama və təhlil etmə xüsusiyyətləri, ayrı-ayrı fənlərə maraqları ilə bağlıdır.

Ev tapşırıqlarını yerinə yetirmək, dərsə hazırlaşmaq üslubundan başqa, təlim bacarıqları və vərdişlərində, təlimin keyfiyyətində də bu fərqlər özünü göstərir. Bunlarla yanaşı, təlim müvəffəqiyyəti üçün hamıya lazım olan zəruri keyfiyyətlər də vacibdir:

– müəllimi dinləmək;
– dərs prosesində başlıca məqsəd və ideyaları tuta bilmək;
– dərsin məzmununu sadə və anlaşıqlı dillə çatdırmaq;
–müəllimin suallarına cavab vermək;
–mətnə dair suallar tərtib edə bilmək;
–informasiyaya uyğun nəticə çıxarmaq;
–fikirlərini yazılı şəkildə çatdırmaq;
–əlavə ədəbiyyat, ensiklopediya, sorğu kitabçaları, lüğətlərdən istifadə etməyi bacarmaq;
–öz işini düzgün qiymətləndirmək.

Bu bacarıqların əksəriyyəti fikri əməliyyat qabiliyyətləri hesab olunur: müqayisə etmək, oxşar və fərqli cəhətləri tapmaq, başlıca olanı ayıra bilmək, məntiqi nəticə çıxarmaq. Bütün bunları hələ ibtidai siniflərdə öyrənmək lazımdır, çünki sonrakı mərhələlərdə təlim yükü xeyli artır və mürəkkəbləşir. V sinifdən başlayaraq bu bacarıqlar daha vacib olur, xüsusi əhəmiyyət kəsb edir. İnformasiya bolluğu, məzmun mürəkkəbliyi şəraitində bu bacarıqları əxz etmək xeyli çətin başa gəlir.

İbtidai siniflərdə dərsliklə düzgün işləməyi bacarmamaq, yalnız əzbərçilik etmək o qədər də səmərəli metod deyil. Belə vəziyyətdə şagird tez yorulur, təlimin keyfiyyəti aşağı düşür, iş qabiliyyəti azalır.

IV sinifdə şagirdlərin çoxunun təlim maraqları diferensiallaşır, onlarda müxtəlif fənlərə fərqli münasibət yaranır. Hansısa fənni bəyənir, hansınasa az maraq göstərirlər.Bu və ya digər fənnə göstərilən maraq şagirdin fərdi qabiliyyətləri, meyilləri ilə bağlıdır. Bəzən elə şagirdlər olur ki, heç bir fənnə maraq göstərmirlər, lakin çoxdan sübut olunub ki, hər kəsin nəyəsə qabiliyyəti vardır. Sadəcə olaraq, həmin qabiliyyəti üzə çıxarmaq, inkişaf etdirmək lazımdır.

Şagirdin gündəlik həyatı yalnız məktəb divarları arasında, təlim fəaliyyəti ilə məhdudlaşmır. Şagirdin məktəbdən kənardakı həyatı onun inkişafı, şəxsiyyət kimi formalaşmasında heç də təlim fəaliyyətindən az rol oynamır, bəlkə də əksinə, daha əhəmiyyətli təsirə malik olur.

Biz bu şagirdlərlə bağlı məktəb psixoloqunun görməli olduğu işləri saymağa, konkret göstərməyə ehtiyac görmədik. Digər problemlərlə bağlı qeyd etdiyimiz işlər bu şagirdlərə də aiddir. Biz sadəcə olaraq, onların təlim fəaliyyəti, psixoloji xüsusiyyətləri ilə bağlı mühüm olanları göstərdik. Bu cəhətlərə həm müəllimlər, həm də məktəb psixoloqu əhəmiyyət verməli, öz fəaliyyətlərində nəzərə almalıdırlar.

**Ədəbiyyat**

1.Əliyev R.İ. Məktəbə psixoloji xidmətin aktual məsələləri. Bakı: “Nurlan”, 2004 .
2.Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: “Ozan”, 1998
3.Həmzəyev M.Ə. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: TS, 2000.
4.Kərimov Y.Ş. Məktəbəqədər yaşlı uşaqların nitq inkişafının metodikası. Bakı: “ MM–S”, 1997.
5.Детский практический психолог./ Под ред. О.А. Шаграевой, С. А. Козловой. Москва: «Академия», 2001.
6.Рогов Е.И. Настольная книга практического психолога. Москва: «Владос-пресс», 2002.

**Психологические особенности младшего школьного возраста и организация психологической помощи**
**резюме**

В статье исследуются психологические особенности младшего школьного возраста и проблемы адаптации их в школьной жизни. Показано, что данный возрастной период не ограничивается только лишь сменой вида деятельности. Они входят в новую среду, меняется система обоюдных взаимодействий. Это в свою очередь не легко дается школьникам младшего возраста. И в этом случае психолог должен вести с ними серьезную работу как по части учебной деятельности, так и по направлению адаптации к коллективу. В статье также рассматриваются вопросы по совместной работе психолога и родителей школьников для решения вышеприведенных задач.

**Psychological peculiarities of young pupils and organizing psychological service with them**

The article researches the problem within age features and psychological peculiarities of young pupils and their adaptation to school life. This age period is not restricted only with the shift of activity scope. They enter new environment and the interrelations system turns changed. And it doesn’t happen for young pupils easily. School psychologist should conduct them properly regarding both training activity and adaptation to collective. Likewise the article surveys contents of shcool psychologist’s joint work with parents.

**JURNAL AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA ALİ ATTESTASİYA KOMİSSİYASININ QƏRARI İLƏ TÖVSİYƏ OLUNAN NƏŞRLƏR SİYAHISINA DAXİL EDİLMİŞDİR.**

# ƏHMƏD YƏSƏVİ MƏNƏVİ KEYFİYYƏTLƏRƏ YİYƏLƏNMƏYİN VACİBLİYİ HAQQINDA

**Akif Abbasov,**
*ARTİ-nin elmi katibi,*
*pedaqogika üzrə elmlər doktoru, professor*
E-mail: a.abbasov@arti.edu.az



**Açar sözlər**: mənəviyyat, mənəvi keyfiyyətlər, tərbiyə, mənəvi tərbiyə, şəxsiyyət;
**Ключевые слова**: нравственность, нравственные качества, воспитание, нравственное воспитание, личность;
**Key words**: morality, moral qualities, education, moral education, personality.

İnsanın təşəkkül tapıb formalaşmasında tərbiyə özünəməxsus rol oynayır. Ona görə də istər ailədə, istərsə də məktəbəqədər, təhsil müəssisələrində gənc nəslin tərbiyəsi diqqət mərkəzində dayanır, onlarda mənəvi keyfiyyətlərin inkişaf etdirilməsi qayğısına qalırlar.

Mənəvi tərbiyə üzrə aparılan işlər uşaqlarda mənəvi şüurun, mənəvi təfəkkürün və mənəvi davranışın formalaşmasına kömək edir. Mütəfəkkirlər, tarixi şəxsiyyətlər, yazıçı və şairlərimiz tərbiyə, o cümlədən, mənəvi tərbiyəyə dair qiymətli fikirlər irəli sürmüşlər. Peyğəmbərimiz Həzrəti Məhəmməd (s.ə.s.) buyurmuşdu: "Tərbiyə valideynin öz övladına verdiyi ən böyük hədiyyədir".

Biz *yəsəviyyə* nəzəriyyəsinin banisi, din xadimi, türkləri birləşdirən, türk dilini XII əsrdə dünyanın ən inkişaf etmiş dilləri səviyyəsinə qaldırmış böyük mütəfəkkirin – Əhməd Yəsəvinin mənəvi keyfiyyətlərə yiyələnməyin vacibliyi haqqında fikirləri üzərində dayanmaq istəyirik.

Ə. Yəsəvi allah adamı idi. Nümunə götürülməli, pərəstiş edilməli insan idi. O,Türküstanda ilk türk-islam dövlətlərindən biri olan Qaraxanilərin hakim olduğu dövrdə yaşamışdır. Həmin vaxtlarda o, müqəddəs islam dininin təbliği və yayılması istiqamətində səmərəli fəaliyyət göstərmişdir. Ə. Yəsəvi türk dünyasını islam dəyərləri ətrafında birləşdirən çox böyük şəxsiyyət idi. Anadolunun türkləşməsində və müsəlmanlaşmasında böyük rol oynamışdır.

F.Qaraoğlu "Tarixdə iz buraxanlar: Əhməd Yəsəvi" adlı məqaləsində heç də təsadüfi olaraq yazmamışdır: "Onun dərin mənalı sözləri və tövsiyələri əhalisi köçəri olan qazax-qırğız məmləkətlərində təsirli olub. Ə.Yəsəvi təkkə ədəbiyyatının (xalq ədəbiyyatının ərəb, fars dillərində yazılmış dini mövzuda növüdür – **red**.) ilk təmsilçilərindən biri idi. O, vaxtının çoxunu Allah Təalaya ibadət etməklə və tələbələrinə dini elmləri öyrətməklə keçirərdi. Özünün və tələbələrinin ehtiyaclarını qarşılamaq üçün sənətlə məşğul olardı. Hər kəsə yaxşılıq edər, kimsəyə sıxıntı yaratmazdı. İnsanların səadəti və qurtuluşu üçün çalışardı" (1).

Ə. Yəsəvinin "Divan-i Hikmət" əsəri ayrı-ayrı hikmətlərdən ibarətdir. Qanı və canı ilə türk xalqına bağlı olan, öz millətini dərindən sevən, saf, nikbin, təmiz qəlbli, humanist bir insan olan böyük mütəfəkkir həmin hikmətlərdə insanları mərhəmətli, alicənab, əliaçıq və səxavətli olmağa çağırır, köməksizə əl uzatmağı, yardımında durmağı məsləhət görürdü. Diqqət edək:

Yaşayıb görsən könülü qırıq, məlhəm ol!
Elə məzlum yolda qalsa, yoldaşı ol!

Ə.Yəsəvi yetimləri sevindirməyin böyük savab olduğunu deyirdi. Onun nöqteyi-nəzərincə, "Qərib, kasıb, yetimləri hər kim sorar, Razı olar o qulundan Allah".

"Divan-i Hikmət"dəki altıncı hikmət insanları özlərində mərdlik, comərdlik, kişilik kimi keyfiyyətləri tərbiyə etməyə səsləyir. Bu keyfiyyətlərdən məhrum olanları kamil hesab etmir. Fikir verək:

Qul Xoca Əhməd, ər olmasan, ölmək yaxşı,
Qırmızı üzünün quru yerdə solması yaxşı.
Torpaq kimi iştirak altında olmağın yaxşı,
Zatı ulu Rəbbim, sığınıb gəldim sənə.

Ə.Yəsəvi öz əsərlərində, o cümlədən, "Divan-i Hikmət"də tamahkar, acgöz adamları da tənqid edirdi. Bu xüsusda deyirdi:

Dünya malın dolu verdim, doymaz gözün.

Bu fikirdən çıxan məntiqi nəticə budur ki, acgöz, tamahkar, xəsis adama dünyanın bütün varı-dövləti verilsə də, onun gözləri doymur.

Əhməd Yəsəvinin tənqid hədəflərindən biri də cahillər idi. O, yaxşı anlayırdı ki, cahil adamdan hər cür yaramazlıq, pislik, bədxahlıq gözləmək olar. "Azərbaycan dilinin izahlı lüğəti"ndə ***cahil*** sözünün mənasına belə aydınlıq gətirilir: "Oxumamış, savadsız, avam, nadan, anlamaz, qanmaz, heç şeydən xəbəri olmayan".

Ə.Yəsəvi cahilə aid qənaətlərini aşağıdakı şəkildə ifadə etmişdir:

Cahil ilə keçən ömrüm nar sakar,
Cahil olsan, cəhənnəm ondan çəkinir.
Cahil ilə cəhənnəmə doğru etməyin səfər,
Cahillər içində yarpaq kimi soldum mən iştə.
Cahillərdən yüz min cəfa gördüm mən iştə
Bir şey umma cahillərdən, qədrini bilməz,
Qaranlıq içində yol şaşırsan, yola salmaz...
Boyun büküb yalvarsan, əlini tutmaz,
Cahilləri şikayət edərək gəldim mən iştə.

Yuxarıda deyilənlərdən nəticə çıxaraq. Böyük mütəfəkkirə görə: 1.Cahil ilə keçən ömür hədərə gedər. 2. Cahildən cəhənnəm də çəkinir. 3.Cahillər içərisində insan fəal həyat mövqeyi tuta bilməz, yəni yarpaq kimi solar. 4.Cahil olan kəs insana yalnız qəm-qüssə gətirər, ona problem yaradar. 5.Cahilin yolunda nə qədər əlləşib-vuruşsan, axırda qədrini bilməz, qiymətləndirməz. 6. Cahil adamdan sənə xeyir gəlməz. 7. Cahil kimsəyə əl uzatmaz.

Ə.Yəsəvi həqiqət bilməyəni insan hesab etmirdi (36-cı hikmət).

Böyük mütəfəkkir yetimlərə xüsusi diqqət və qayğı tələb edirdi:

Yetimi görsəniz, incitməyin,
Qəribi görsəniz, dağ etməyin...

Ə.Yəsəvi məsləhət görürdü ki, insanlar unutmasınlar:

Yetimlər bu dünyada ezilmiştir.
Qariplerin işi çətindir ...
Qariplerin işi daim riyazettir,
Diri deyil, qarip ölü kimidir.

"Divan-i Hikmət"dəki 53-cü hikmət zalımların, zülm edənlərin tənqidinə həsr edilmişdir:

Zalim olub zülm edən, yetim könlünü ağrıdan,
Kara üzlü məhşərdə, qolunu arxada gördüm.

Ə.Yəsəvi sonda belə qənaətə gəlir ki, zülmkar gec-tez öz cəzasına çatacaq. Böyük mütəfəkkir insanlara yolunu azanları düz yola gətirməyi məsləhət görürdü:

Yoldan sapan günahkarları yola yönəlt (54-cü hikmət).

91-ci hikmət nəfs toxluğuna aiddir. Ə.Yəsəvinin fikrincə, insan nəfsinə hakim olmalıdır:

Nəfsin səni son anda kölə eylər.
Ağıllı isən, pis nəfsdən keçmək şikayətçi.
Günahına tövbə eyleyip, ağlayıb yürü,
Giderim deyib, yol başına çatıb dur.

Ə. Yəsəvi insanları dünyadan köç edənlərdən ibrət götürməyi məsləhət bilirdi. Diqqət edək:

Gedənləri görüb, sən də ibrət al,
İbrət alsan, yatdığın yerin olur gül bağçası.

Türk dilini XII əsrdə dünyanın ən inkişaf etmiş dilləri səviyyəsinə yüksəldən böyük türk mütəfəkkiri Əhməd Yəsəvinin irsi, onun mənəvi keyfiyyətlərə yiyələnməyin zəruriliyi və mənfi sifətlərdən uzaq olmaqla bağlı söylədikləri mühüm əhəmiyyət daşıyır. Onları yadda saxlamaq, gənc nəslə çatdırmaq lazımdır.

**Ədəbiyyat**


1. Qaraoğlu F. Tarixdə iz buraxanlar: Əhməd Yəsəvi. http://www.baki-xeber.com/siyaset/52510.html
2. Əhməd Yəsəvi. Divani-Hikmət. Bakı: "Çaşıoğlu", 2004.



**АХМЕД ЯСАВИ О ВАЖНОСТИ ОВЛАДЕНИЯ НРАВСТВЕННЫМИ КАЧЕСТВАМИ**
**резюме**

В статье рассказывается об идеях Ахмеда Ясави про нравственных качестваз. Отмечпется, что Ахмед Ясави – один из самых ярких личностей турецкой литературы и славился очень набожным человеком. С него надо было брать пример и боготворить. Поэтому его труды богаты воспитательными идеями. В данной статье автор исследует идеи Ахмеда Ясави о важности овладения моральными качествами.

**AHMED YASAVI ABOUT THE IMPORTANCE OF CALLING MORAL QUALITIES**
**summary**

The article tells about the ideas of Ahmed Yasavi about moral qualities. It is noted that Ahmed Yasavi is one of the most prominent personalities of Turkish literature and was famous for a very pious man. I had to take an example from him and idolize. Therefore, his works are rich in educational ideas. In this article, the author explores the ideas of Ahmed Yasavi about the importance of mastering moral qualities.


# MƏKTƏBƏQƏDƏR DÖVRDƏ UŞAQLARIN İNKİŞAFINDA MƏNƏVİ TƏRBİYƏNİN ROLU


**Almaz Əhmədova,**
ADPU-nun Məktəbəqədər təhsilin pedaqogika və metodikası
kafedrasının baş müəllimi





**Açar sözlər:** məktəbəqədər dövr, şəxsiyyət, milli-mənəvi dəyərlər, keyfiyyətin yüksəldilməsi, mənəvi tərbiyə, əməkdaşlıq, sosial mühit;

**Ключевые слова**: дошкольный этап, личность, национально-нравственные ценности, повышение качества, эмоциональное воспитание, сотрудничество, социальная среда;

**Key words:** preschool stage, the person, national-moral values, emotional upbringing, developing environment, cooperation, social environment.


Şəxsiyyətin formalaşmasının, gənc nəslin cəmiyyət üçün hazırlanmasının mühüm mərhələlərindən biri məktəbəqədər yaş dövrüdür. Uşaqların həyatının ilk illərində fiziki, əqli, mənəvi, estetik inkişafın düz gün qurulması, onların məktəbə hazırlanmaları sahəsində məktəbəqədər təhsil müəssisələrinin üzərinə böyük vəzifələr düşür.

Bu vəzifələr baxımından müstəqil Azərbaycan Respublikasının təhsil sistemində əsaslı islahatlar gedir. Təhsilin məzmunu, forma və metodlarında milli-mənəvi və ümumbəşəri dəyərlərə əsaslanmaqla ciddi dəyişikliklər aparılır. Belə bir dövrdə respublikanın ən kiçik vətəndaşlarının təlim-tərbiyəsi, onların məktəbə hazırlanmaları prosesinin keyfiyyətinin yüksəldilməsi xüsusi əhəmiyyət kəsb edir. Gələcək vətəndaşın şəxsiyyət kimi formalaşması isə təhsil sisteminin ilkin pilləsi olan məktəbəqədər müəssisələrdə qoyulur.

Məktəbəqədər təhsilin məzmununun yenilənməsi bu gün aktual problem kimi qarşıda durur və bu sahədə müəyyən işlər görülür.

Müasir təhsilimizin başlıca vəzifəsi dərin və hərtərəfli biliyə, bacarığa, yüksək mədəniyyətə, geniş dünyagörüşünə və milli-mənəvi dəyərlərə yiyələnən, Azərbaycanı dünyanın ən inkişaf etmiş dövlətlərindən birinə çevirməyə qadir olan vətənpərvər insanlar tərbiyə etməkdir.

Ümummilli lider H.Əliyevin milli-mənəvi və dini dəyərlərimiz haqqında bəyanatı gələcək nəsil üçün xüsusilə faydalıdır: "Hər xalqın öz adət-ənənələri, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik! Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, yaxud onları qəsdən təhrif edirsə, bu, bizi narahat etməlidir"(2).

Məlumdur ki, insanın yaşaması üçün onun mənəvi dünyasının formalaşması həlledici əhəmiyyət kəsb edir. Bu vəzifə isə çox zaman təhsil sisteminə aid edilir.

Təhsil Qanununda deyilir: "Təhsil sisteminin başlıca vəzifəsi… xalqının milli, əxlaqi, mənəvi və mədəni dəyərlərinə dərindən yiyələnən, onu qoruyan və daim inkişaf etdirən insan tərbiyə etməkdir" (1).

Buna görə də respublikamıza xalqımızın əsrlər boyu qoruyub saxlamış gözəl adət-ənənələri, yüksək milli, əxlaqi hissləri özündə cəmləşdirən, vətənpərvər, vətənin müdafiəsinə hər an hazır olan nəslin yetişdirilməsi vacibdir.

B.B.Zankovski yazır: "Uşaq şəxsiyyət olmağa o vaxt başlayır ki, o, öz-özünü dərk edir, yavaş-yavaş inkişaf edir və ətrafdakı hər şeyi özündə toplayır. Elə bir zaman gəlir ki, uşaq özünü digərlərindən ayırmağı öyrənir və nəinki başqaları üçün, eləcə də özü üçün şəxsiyyət olmağa başlayır"(7).

Məktəbəqədər təhsil müəssisələrində milli-mənəvi dəyərlərimizdən sistemli, planlı, müntəzəm istifadə olunduqda, uşaqların milli və ümumbəşəri dəyərlər ruhunda böyüməsi, onların bir vətəndaş, şəxsiyyət kimi formalaşması reallaşır.

İnsanın mənəvi inkişafı prosesi onun bütün həyatı boyu gedir, lakin əsas mənəvi cizgilər uşaq, yeniyetməlik və gənclik yaşlarında formalaşır. Sonradan yeni mənəvi keyfiyyətlər bir o qədər də yaranmır, lakin qazanılmış mənəvi keyfiyyətlər təkmilləşir, tərbiyədəki çatışmazlıqlar aradan qaldırılır.

Azərbaycan xalqının böyük mütəfəkkiri Nəsirəddin Tusi "Əxlaqi-Nasiri" əsərində yazır: "Uşaq süddən ayrıldıqdan sonra, hələ əxlaqı korlanmağa vaxt tapmamış onu tərbiyə etməyə, nizam-intizama öyrətməyə başlamaq lazımdır"(5).

Xalqımız əsrlər boyu özünün gözəl adət-ənənələrini, yüksək milli, əxlaqi hisslərini qoruyub saxlamış, nəsillərdəndən-nəsillərə ötürmüşdür.Xalqını, millətini, vətənini sevən insan ilk növbədə saf, yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik olmalı, öz xalqının milli-mənəvi dəyərlərini, tarixini dərindən bilməli, dövlət rəmzlərinə hörmət etməlidir.

Mənəvi tərbiyənin məzmununa vətənpərvərlik, humanizm, intizamlılıq, kollektivçilik, düzlük və doğruçuluq, dostluq və yoldaşlıq, xeyirxahlıq, qayğıkeşlik, haqqın, ədalətin gözlənilməsi, insana hörmət hissləri və s. daxildir. Bütün bunlar kiçikyaşlılarda valideynlərə, yaşlılara məhəbbət, hörmət, kiçiklərə qayğı, zəiflərə, kimsəsizlərə yardım, yoldaşa, dosta kömək, düzlük, doğruçuluq, dözümlülük, halallıq, xeyirxahlıq, səbrlilik, saflıq, təmizlik və s. kimi yüksək insani keyfiyyətlərin aşılanmasını asanlaşdırır. Bu keyfiyyətlər insanın mənəvi sifətini xarakterizə edir və onun davranışını ciddi təsir göstərir.

Uşaqların mənəvi tərbiyəsində böyük rolu təlim, təlimdənkənar və bağçada keçirilən müxtəlif tədbirlər oynayır.

Məktəbəqədər müəssisələrdə bu məqsədlə keçirilən təlim xarakterli məşğələlərin forma və məzmunu müxtəlifdir. Məşğələdə hər bir mövzu uşaqlara biliklə yanaşı, müəyyən tərbiyəvi keyfiyyət aşılayır ki, məhz bu, tərbiyəçidən böyük bacarıq, pedaqoji ustalıq və məharət tələb edir.

Kiçikyaşlı uşaqların mənəvi tərbiyə prosesində mənəvi şüur, hisslər, vərdişlər və motivlər vəhdətdə təşəkkül taparaq şəxsiyyətin əqidəsini yaradır və şəxsiyyətin mənəvi fəaliyyətini təmin edir. Kiçikyaşlı uşaqların mənəvi tərbiyəsi probleminə məşğələlərdə yer verilməsi onların öyrədilməsinə, onlara istinadən daha yüksək şəkildə dəyərlərin başa düşülməsinə şərait yaradır.

Məktəbəqədər təhsil müəssisələrində uşaqlara milli-mənəvi dəyərlərin aşılanması çox vacib məsələlərdəndir. Bütün bunlar kiçikyaşlılarda valideynlərə, yaşlılara məhəbbət, hörmət, kiçiklərə qayğı, zəiflərə, kimsəsizlərə yardım, yoldaşa, dosta kömək, düzlük, doğruçuluq, dözümlülük, halallıq, xeyirxahlıq, səbrlilik, saflıq, təmizlik və s. kimi yüksək insani keyfiyyətlərin aşılanmasını asanlaşdırır.

Təcrübə göstərir ki, tərbiyəçilər uşaqlarda mənəvi keyfiyyətlərin, milli mənlik şüurunun tərbiyə olunmasında milli dəyərlərdən lazımi səviyyədə istifadə etmirlər. Bunsuz isə uşaqların istər mənəvi inkişafına, istərsə də vətənpərvərlik ruhunda tərbiyəsinə nail olmaq mümkün deyil.

Məlumdur ki, təlim prosesində təhsil vəzifələri ilə yanaşı, tərbiyəvi vəzifələr də həyata keçirilir, lakin təlim prosesində yerinə yetirilən tərbiyənin əsasını müvafiq biliklərin, məlumatların verilməsi təşkil edir.

Məktəbəqədər təhsil müəssisələrində istər təlim, istərsə də təlimdənkənar vaxtlarda uşaqlarda milli mənlik şüurunu, milli ləyaqəti və vətəndaşlıq dəyanətini formalaşdırmaq; doğma yurdun, torpağın qorunması üçün çalışmaq qabiliyyəti və bacarığını təşəkkül etdirmək; uşaqları ekoloji biliklərlə silahlandırmaq; sözlə işin vəhdətini təmin etmək; vətənə, əməyə, əmək adamlarına məhəbbət hissi aşılamaq – cəmiyyətə layiq vətəndaş yetişdirmək tərbiyəçinin ümdə vəzifəsi olmalıdır.

Kiçikyaşlı uşaqların tələbatının ödənilməsi təlimlə yanaşı, asudə vaxtın səmərəli təşkilindən də asılıdır. Uşaqların mənəvi tələbatının ikinci xüsusiyyəti onun ailəsinin sosial mənafeyi və dünyagörüşü ilə sıx bağlı olmasındadır. Fəaliyyətə görə mənəvi tələbatlar aşağıdakı formalara ayrılır: intellektual əmək, bədii yaradıcılıq, mənəvi və estetik yetkinləşmə, insanlarla ünsiyyət və s.

Məktəbəqədər yaşlı uşaqların milli-mənəvi dəyərlər əsasında tərbiyəsində mühüm rol oynayan yollardan biri də təlimdənkənar tədbirlərdir. Təlimdənkənar tədbirlər uşaq bağçasında həyata keçirilən təlim-tərbiyə prosesinin tərkib hissələrindəndir. Bu işin həyata keçirilməsi pedaqoji kollektivin üzərinə düşür. Təlimdənkənar tədbirlər vasitəsilə uşaqların məşğələdə aldıqları bilik, bacarıq və vərdişlər daha da dərinləşir, möhkəmlənir. Bunlar biliyin yoxlanılması, təcrübə ilə müqayisəsi, sınaqdan keçirilməsidir.

Görkəmli pedaqoq V.A.Suxomlinski qeyd edirdi ki, "Sinifdənkənar iş, öz ideyasına görə, çox qiymətli tərbiyə vasitəsidir. Məhz burada müəllimlə şagird arasında daimi mənəvi ünsiyyət yaranır ki, bunsuz yüksək emosional mədəniyyət tərbiyəsi ola bilməz"(3).

Təcrübə göstərir ki, təlimdənkənar işlərin səmərəli formalarından istifadə edilməsi təlim-tərbiyənin yüksək səviyyədə qurulmasına və uşaqların hərtərəfli inkişafına təsir göstərir. Bunlar uşaqların görüş dairəsini genişləndirmək, fəallıq, müstəqillik, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək və mədəni davranış vərdişlərini yaratmaqla yanaşı, onlarda milli-mənəvi dəyərlərə hörmət, məhəbbət tərbiyə etməyin vasitələrindən birinə çevrilir.

Təlimdənkənar tədbirlərin səmərəliliyini təmin etmək üçün tərbiyənin məqsədyönlülük, hörmət, tələbkarlıq, yaş və fərdi xüsusiyyətlərin nəzərə alınması, dəyərlərə hörmət və s. prinsiplərə əməl edilməlidir.

Təlimdənkənar iş mütəşəkkil, məqsədyönlü pedaqoji prosesin tərkib hissəsi olaraq özünəməxsus məzmun və məqsədə malikdir.

Apardığımız araşdırmalar göstərmişdir ki, uşaqların milli-mənəvi dəyərlər əsasında tərbiyəsinə yönəldilən təlimdənkənar tədbirlərin kompleks şəkildə aparılması daha çox səmərə verir. Onlar məktəbəqədər yaşlı uşaqların hərtərəfli inkişafına kömək edir, uşaqlarda elmi dünyagörüşünün formalaşmasına təkan verir. Belə ki, uşaqlarda vətənə məhəbbət, böyüyə hörmət, xeyirxahlıq, qayğıkeşlik və s. müsbət keyfiyyətlərin yaranmasına kömək edir.

Təlimdənkənar tədbirlər zamanı uşaqların mənəvi tərbiyəsinə təsir göstərmək imkanları daha genişdir. Belə ki, məktəbəqədər tərbiyə və təlim proqramına dair müntəxəbatda proqram üzrə nəzərdə tutulan materiallardan başqa, tərbiyəçi öz işinə yaradıcı yanaşaraq, kiçikyaşlı uşaqların pedaqoji və psixoloji inkişaf xüsusiyyətlərini nəzərə almaqla, özü də əlavə oxu üçün materiallar

toplayır. Bu materiallardan, ana dilimizə tərcümə olunmuş kiçik həcmli hekayə, nağıl, təmsillərdən və s. istifadə zəruridir. Bunları nəzərə alaraq məktəbəqədər yaşlı uşaqlarda maraq formalaşdırmaq, onların mənəviyyatını zənginləşdirmək, digər xalqların adət-ənənələrinə hörmətlə yanaşmaq və bunların arasında xalqımızın qədim tarixi, zəngin mənəvi dəyərlərin daşıyıcısı olmasını erkən yaşlardan uşağa aşılamaq vacibdir.

Kiçikyaşlı uşaqlarla müntəzəm aparılan belə işlər insan həyatının çox qaynar, mürəkkəb, böhran mərhələsi olan yeniyetməlik dövründə uşaqların tərbiyəsi üzrə iş sistemini düşünülmüş şəkildə qurmaq üçün əsas verir.

Araşdırmalar göstərir ki, bədii əsərlərdən istifadə o zaman yüksək təlim-tərbiyə əhəmiyyəti kəsb edir ki, uşaqların məşğələ zamanı öyrəndikləri şeir, nağıl, hekayə və s. ədəbi mətnlərlə asudə vaxtda oxunan bədii əsərlər arasında məna yaxınlığı olsun və oxunan hər bir parça uşağın mənəvi aləminə təsir göstərsin.

Ailə tərbiyəsi şəxsiyyətin formalaşmasında ilk pillədir, sonrakı tərbiyə bu pillə üzərində qurulur. Məhz bu səbəbdən ailənin və məktəbin tərbiyəvi təsirlərinnin uzlaşdırılması zəruridir.

Ailə elə ilk kollektivdir ki, uşaq adamlarla ünsiyyətin, bu və ya digər sosial vəzifələri yerinə yetirməyin ilkin sosial təcrübəsini burada toplayır. Ata-ana uşağın ilk tərbiyəçiləridir və onun əsil vətəndaş kimi böyüməsi üçün cəmiyyət qarşısında məsuliyyət daşıyırlar. Uşaq ailənin başqa üzvləri ilə ünsiyyəti vasitəsilə sosial münasibətlərə daxil olur, onun xarakterinin, əməyə, mənəvi, ideya və mədəniyyət sərvətlərinə münasibətlərinin əsasları ailədə formalaşır.Uşaqların düzgün tərbiyə edilməsi onlarda dəyərli insani keyfiyyətlərin yaranmasına gətirib çıxarır.

Milli-mənəvi tərbiyə işinin məzmunu, ailədə uşaqların tərbiyəsi proqramı bir yandan uşağın yaşı və inkişafı ilə, digər tərəfdən ümumi pedaqoji məqsədlərlə müəyyən edilir. Burada mənəvi, fiziki, əqli, əxlaqi, əmək, estetik tərbiyənin kompleks aparılması vacibdir.

**Ədəbiyyat**


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: "Öyrətmən", 1993.
2. Əliyev H.Ə. Milli-mənəvi və dini dəyərlərimiz haqqında . "Azərbaycan müəllimi" 2001, 16–22 avqust.
3. Suxomlinski V.A. Ürəyimi uşaqlara verirəm. Bakı: " Maarif", 1979.
4. Rüstəmova N.M. Məktəbəqədər yaşlı uşaqların mənəvi tərbiyəsi. Bakı: 1992
5. Tusi X.N. Əxlaqi-Nasiri. Bakı: "Elm", 1989.
6. Педагогическая енциклопедия. (том 3.) Москва, 1966.
7. Занковский. Б.Б. Психология детства. Москва, «Наука»,1996.


**РОЛЬ МОРАЛЬНОГО ВОСПИТАНИЯ В ФОРМИРОВАНИИ ЛИЧНОСТИ РЕБЕНКА В ДОШКОЛЬНОМ ВОЗРАСТЕ**


**резюме**

В статье речь идет о роли морального воспитания в формировании личности ребенка в дошкольном возрасте. Известно, что для человеческой жизни формирование морального облика играет решающую роль. Формирование морального и нравственного облика обычно относят к вопросам образования. Отмечается, что основной задачей морального воспитания является подготовка совершенствованных и зрелых граждан, достойных обществу.


**THE ROLE OF MORAL EDUCATION IN PERSONALITY FORMATION CHILD IN PRESCHOOL AGE**


**summary**

The article deals with the role of moral education in shaping the personality of the child in preschool age. It is known that the formation of moral character plays a decisive role in human life. Forming a moral and moral image is usually referred to educational issues. It is noted that the main task of moral education is the training of improved and mature citizens who are worthy of society.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN TƏRBİYƏSİNDƏ AİLƏNİN ROLU

**Fəridə Səmədzadə,**
ARTİ-nin fəlsəfə doktoru hazırlığı üzrə dissertantı
E-mail:feridesemedzade@box.az



**Açar sözlər:** məktəbəqədər yaşlı uşaq, ənənə, ailə ənənələri, hörmət hissi, hörmət hissinin formalaşdırılması;

**Ключевые слова:** ребенок дошкольного возраста, традиция, семейная традиция, чувство уважения, формирование чувства уважения;

**Key words:** child of preschool age, tradition, family tradition, respect, respect, a sense of respect.

İnsanın formalaşmasında ən güclü amillərdən biri məhz ailədir. Hər bir ailənin qarşısında duran ən mühim vəzifələrdən biri dünyaya uşaq gətirmək və onu sağlam, hərtərəfli inkişaf etmiş vətəndaş, şəxsiyyət kimi yetişdirməkdir. Bu gün hər bir cəmiyyətin ehtiyacı sayılan mühüm amillərdən biri onun insan kapitalına malik olmasıdır.

Quruluş baxımından bəzi fərqləri ilə yanaşı, bütün cəmiyyətlərdə ailə qurumu cəmiyyətdəki funksiyalarının bəzilərini digər qurumlara dövr etməsinə baxmayaraq, başqalarının yerinə yetirməsi mümkün olmayan təməl funksiyaları qoruyub saxlamaqdadır. İstər dünyada, istərsə də ölkəmizdə son zamanlarda yaşanmaqda olan dəyişikliklərin müddəti texnoloji və iqtisadi şərtlərlə məhdudlaşmayıb, sosial və mədəni sahələrədə də öz təsirini göstərməkdədir. Bu dəyişikliklərdən təsirlənən qurumların başında ailə durur.

Uşaq dünyaya gəldiyi ilk gündən ailə onun həyatında xüsusi rol oynayır: onun sağlamlığının qayğısına qalır, mənəvi aləmini formalaşdırır, sosial həyata adaptasiya olunmasında əvəzedilməzdir. Uşağın şəxsiyyəti həyat və fəaliyyətində baş verən bütün ictimai əlaqələrin təsiri altında formalaşır. Valideynlərin mənəvi mədəniyyəti, onların həyat planları və istəkləri, sosial əlaqələri, uşaq şəxsiyyətinin inkişafında həlledici əhəmiyyətə malikdir. Valideyn məhəbbəti uşağın həyatının emosional, mənəvi və intellektual cəhətdən zənginləşməsinə kömək edir.

Ailənin parçalanması, boşanma halları nəticəsində təkvalideynli ailələrin get-gedə artması, cinayət işlərinin sayının çoxalması, böyük şəhərlərdə *küçə uşaqları* anlayışının meydana gəlməsi, zərərli vərdişlərin, fərdi və kütləvi şiddətin yayılması, psixoloji xəstəliklər və s. insanı, birbaşa cəmiyyəti təhdid edən problemlərin baş qaldırmasına səbəb olur.

Sosial problemlərin qarşısını almaq yolu bu dəyişikliklərdən xəbərdar olmaq, hesablanan struktur təhlilləri aparmaq və problemlərin həlli üçün lazımi tədbirləri görmək bu problemlərin həlli yollarıdır. Bu səbəbdən cəmiyyət həyatının əsas hədəfi olan ailə problemlərinin həlli yolunda tədbirlərin görülməsi haqqında məlumatların toplanması sosial dəyişiklik prosesində yaranmış sağlam siyasətin formalaşmasında vacibdir. Məhz bu baxımdan ailənin bütövlüyünün qorunması, həmçinin gücləndirilməsi, sosial rifahın artması, həmin istiqamətdə layihələrin inkişafı, dəstəklənməsi, onları həyata keçirmək üçün milli və beynəlxalq zəmində tədqiqatların aparılması olduqca vacibdir. Demək olar ki, dünyanın hər yerində bu məsələni tədqiq edən pedaqoqların ortaq fikri uşaq tərbiyəsinin olduqca mürəkkəb bir proses olmasıdır.

Görkəmli rus pedaqoqu K.D.Uşinski öz əsərlərində yazmışdır ki, uşaqları düzgün tərbiyə etməyin ən uğurlu yolu onu hərtərəfli öyrənib, düzgün istiqamətləndirməkdən ibarətdir. Bu işdə ən vacib rol ailənin üzərinə düşür. Uşaqlar dünyaya əvvəlcə ailə üzvlərinin gözləri ilə baxırlar. Valideynlərin öyrətdiklərini ən mühüm amil hesab edirlər. Uşaqların dünyaya, həyata dair fikirləri, dünyagörüşü ailənin ona aşıladıqları əsasında formalaşdırır.

Azərbaycanın dahi şairi Nizami Gəncəvi öz "Xəmsə"sində ata–oğul, ana–qız, valideyn–övlad münasibətləri haqqında dəyərli fikirlər söyləmişdir. Onun fikrincə, cəmiyyətdə tutduğu

mövqeyindən asılı olmayaraq, hər bir ata, valideyn övladına qayğı göstərməli, onun fəziləti və qəbahətli hərəkətləri üçün cəmiyyət qarşısında məsuliyyət daşımalı, övladının qəbahətlərinə güzəşt etməməlidir.

Görkəmli mütəfəkkirlər M.Füzuli, Ə.Xaqani, İ.Nəsimi, Ş.İ.Xətai, S.Ə.Şirvani və başqaları öz əsərlərində ailə tərbiyəsi, uşaqların tərbiyəsində ailənin oynadığı vacib rola diqqət yetirmişlər.

Ailə mühitini mühüm amil hesab edən H.Zərdabi bildirmişdir ki, uşaqlar tərbiyənin ilkin əlamət və keyfiyyətlərinə ailədə yiyələnirlər. Onlar yaxşını da, pisi də ailədə görürlər. Ona görə tərbiyənin də, tərbiyəsizliyin də ilk mənbəyi ailədir. O, bildirirdi ki, bu mühüm məsələnin öhdəsindən gəlməkdə çətinlik çəkən valideynlər vaxtında ciddi tədbirlər görməli, pedaqoji məsləhətlər almalıdırlar.

Öz əsərlərində ailə tərbiyəsinə geniş yer verən satirik şair M.Ə.Sabir uşaqların tərbiyəsində xüsusən ananın mühüm rolu olduğunu qeyd edir və onun əməyini yüksək qiymətləndirirdi. O, yazırdı ki, ana uşaqlarına tərbiyə verməyib, onlara qayğı ilə yanaşmazsa, günahı olmayan məsum uşaqlar tərbiyəsizlik nəticəsində səfalət və rəzalətə düşərlər. O, uşaqların düzgün tərbiyəsini ailənin ən böyük xoşbəxtliyi hesab edirdi.

N.Nərimanovun əsərlərində gələcəyin tərbiyəçiləri, cəmiyyətə faydalı insanların yetişdirilməsi üçün uşaqlara, xüsusən qızlara təhsil verilməsinin əhəmiyyətini vurğulayırdı. Onun fikrincə, uşaqları düzgün tərbiyə etmək üçün valideynlər özləri tərbiyəli olmalıdırlar.

Azərbaycanın pedaqoji fikir tarixi uşaq tərbiyəsi haqqında qiymətli fikirlərlə zəngindir.

“Ailə ictimai həyatın, dövlətin kiçik modelidir” – desək, yanılmarıq. Ailə valideynlər, uşaqlar və digər qohumlardan ibarət olan, cəmiyyətin əsasını təşkil edən ictimai bir qurumdur. Hər ailəni bir məktəb kimi düşünsək, valideynlər həmin məktəbin müəllimləri, uşaqlar isə şagirdləri olurlar.

Məktəbəqədər yaşlı uşağın tərbiyəsində əsas məqam mənəvi birliyin əldə edilməsi, valideynlərlə uşaqların mənəvi əlaqələridir.

Ailə nikah-qohumluq əlaqələri ilə bağlı olan, vahid fəaliyyətə əsaslanan, bununla da əhalinin artımı, nəsillərin davamlılığını, həmçinin uşaqların sosiallaşmasını, üzvlərinin bir-birinə bağlılığının qorunmasını həyata keçirən kiçik bir cəmiyyətdir.

Məktəbəqədər yaşlı uşaqların ilkin tərbiyəsində ailənin rolu olduqca böyükdür. Ailə konsepsiyası müxtəlif elmlər tərəfindən tədqiq olunur və buna görə də hər bir elmdə ailənin özünəməxsus tərifi vardır. Sosioloji baxımdan ailə dedikdə, qan qohumluğu və onun əsasında birləşən insan qrupu başa düşülməkdədir. Bu tərifi hüquq elmi belə tamamlayır: “Ailə hüquqi əlaqələr, nikahdan sonra ortaya çıxan və əlaqədar məsuliyyət növləri olan insan birliyidir”.

A.S.Makarenko uşaqların tərbiyəsində ailənin rolundan bəhs edərkən yazmışdır: “Siz həmişə valideyn olduğunuzu yadda saxlamalı və bilməlisiniz ki, oğlunuzu, yaxud qızınızı yalnız özünüz üçün tərbiyə etmirsiniz. Ailənizdə, sizin rəhbərliyiniz altında gələcək vətəndaş, xadim və mübariz böyüyür. Siz pis adam tərbiyə etsəniz, bunun bəlasını yalnız özünüz deyil, bir çox adamlar və bütün ölkə çəkəcəkdir”.

Məktəbəqədər yaşlı uşaqların tərbiyəsinin əsasını ailə tərbiyəsi təşkil edir. Uşaqların məhz bu dövrdə ailədə qazandıqları bilik, bacarıq və vərdişlər onların şəxsiyyətinin formalaşmasında təməl rolunu oynayır. Ailə tərbiyə müəssisiəsi kimi, uşaq həyatının vacib bir hissəsi olduğundan onun təsir müddəti baxımından başqa tərbiyə müəssisəsi ilə müqayisə edilə bilməməsi ilə şərtlənir. Ailədə uşaq şəxsiyyətinin təməli qoyulur və formalaşır. Ailə mühitində uşaq ilk müşahidələrini edir, ilk həyat təcrübələrini alır və kollektivdə necə davranmaq, ünsiyyət qurmaq lazım olduğunu öyrənir.

Bu yaşda uşaqların sosiallaşma prosesində ailənin rolunu qiymətləndirməmək mümkün deyil. Məktəbəqədər yaşda olan uşaqların sosiallaşması böyüməkdə olan gənc nəslin gələcək həyatına, məktəbdə, təhsil müəssisələrində qarşılıqlı ünsiyyətə, əlaqələrə uğurlu girişinin təməlidir. Bu yaşda ünsiyyət bacarıqları və sosial dərketmənin əsasları qoyulur. Uşaqlar davranış

normaları və niyyətləri, dəyərləri, yaşadıqları cəmiyyətə aid konsepsiyaları öyrənirlər. Onların psixikasının əsas sahələri arasında əlaqə yaranır ki, bu da psixikanın inkişafına təsir göstərir.

Kənd yerlərində, cəmiyyətdə mövcud olan ənənəvi ailə qurumlarının əksəriyyətində *ata-mərkəzli* ailə münasibətləri, qərarlar və seçimlər üstünlük təşkil edir. Ənənəvi ailə strukturunda cəmiyyətimizdə *ana-mərkəzli* ailə quruluşuna giriş olsa da, bu ailə strukturunda da atanın təsirinin davam etdiyini görürük. Ana-mərkəzli ailə quruluşunda uşaqların özləri qərar qəbul etmək, məsuliyyəti öz üzərinə götürmək, seçim aparmaq və ailə qərarlarında iştirakda müəyyən məhdudiyyətlər tətbiq oluna bilər. Uşaqlar inkişaf etməkdə olan fərd kimi deyil, ailənin müti üzvləri kimi qəbul olunur və valideynin istədiyi kimi böyüyürlər. Belə mühitdə böyüyən uşaqlar gənclik və yetkinlik yaşlarında demokratik davranışlar nümayiş etdirmirlərsə, onların həyatda problemləri ola bilər. Ailənin demokratik həyatı iş bölgüsü, ailə büdcəsinə qatqı, hər kəsin fikirlərinə hörmət, kədər və sevinci paylaşma, ailə şərəfinin qorunması ilə bağlıdır. Bundan əlavə, ailənin böyük üzvləri ilə uşaqlar arasında qarşılıqlı münasibətlərin intensivliyi də psixikanın, adaptiv bacarıqların inkişafına təsir göstərir. Uşaq ailədə daha çox ünsiyyət və fəaliyyətə cəlb olunduqca, özü də sahib olduğu bacarıqları arzusu, istəyi çərçivəsində reallaşdıra biləcəyini başa düşür.

Valideynlər uşaqların tərbiyəsi zamanı onun bir sıra metodlarından (təlqin etmə, şəxsi nümunə, məsləhət, rəğbətləndirmə, cəza və s.) istifadə edirlər. Uşaqların tərbiyəsi sadəcə valideynlərin təsiri ilə deyil, müxtəlif vasitələrlə də həyata keçirilir ki, bunlar da, ən azı, ailə tərbiyəsi qədər güclü təsirə malikdir. Bu vasitələrə folklor nümünələri, sözlə təsir etmək, ailə, məişət, valideyn nüfuzu, ətraf aləm, həyat tərzi, gün rejimi, telefon, kompüter, televiziya, əmək, ənənələr, bayramlar, musiqi, teatr, kino, bədən tərbiyəsi və s. aiddir.

Valideynlərin məhz məktəbəqədər yaşda uşaqlarını tanımaları, onların yaş dövrlərinə uyğun fərdi və cinsi xüsusiyyətlərini öyrənmələri, birlikdə daha çox səmərəli vaxt keçirə bilmələri olduqca vacibdir. Araşdırmalarımız göstərir ki, heç də bütün valideynlər bu metodları bilmir, ya da onlardan düzgün istifadə etməyi bacarmırlar.

Ümumiyyətlə, valideynlər ***avtoritar, demokratik*** və ***sərbəst*** olmaqla üç qrupa bölünürlər.

Hər bir ailədə obyektiv şəkildə müəyyən bir tərbiyə sistemi formalaşır. Burada tərbiyənin məqsədi, onun vəzifələrinin formalaşdırılması, həm də uşaqla əlaqədar münasibətlərdə tolerantlığa yol verilməsi nəzərə alınmaqla, tərbiyənin ümumi metod və priyomlarının müəyyən dərəcədə məqsədəuyğun tətbiqi həyata keçirilir.

Ailə cəmiyyət içində kiçik bir dövlət olduğundan, xoşbəxt ailə – xoşbəxt cəmiyyət deməkdir. Gənclər qurduqları ailənin məsuliyyətini ailəyə uşaq gəldikdə daha dərindən hiss etməyə başlayırlar. Ev, ailə insanın ən xoşbəxt, rahat olduğu yer olmalıdır. Yaşadığımız həyatın keşməkeşləri, problemləri, çətinlikləri ilə yanaşı, evdə də narahatlıq varsa, həyat dözülməz olmağa başlayır. Əgər ailə qurmağa qərar verilirsə, bu ailənin xoşbəxtliyi üçün qərar vermək və onu çox həssaslıqla tətbiq etmək lazımdır. Ailənin sağlam və möhkəm təməllər üzərində qurulması çox vacibdir. Buna görə də gənclər ilk növbədə ailə anlayışının mahiyyətini dərk etməli, daha sonra bu addımı atmalıdırlar. Bütün pedaqoji və psixoloji ədəbiyyatlarda qeyd olunduğu kimi, uşaqların tərbiyəsi ailədən başlayır. Yetişməkdə olan gənc nəsli düzgün tərbiyə etməyi bacaran millət mədəniyyətin ən yüksək pilləsinə qalxmaq hüququna malikdir.

**Ədəbiyyat**

1.Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə (IX sinif üçün dərslik). Bakı: "Maarif", 1989.
2. Ализаде А.Н. Аббасов. Семья. (Учебник для 9 класса). Баку: «Маариф», 1991.
3. Əlizadə Ə.Ə., Abbasov A.N. Ailə həyatının etika və psixologiyası (müəllim üçün vəsait). Bakı: "Maarif", 1989.
4. Abbasov A.N. Milli əxlaq və ailə etikası (universitetlər və kolleclər üçün dərslik). Bakı: "Mütərcim", 2015.
5. Suxomlinski V.A. Vətəndaşın doğulması. Bakı: "Maarif", 1975

**Роль семейных традиций в дошкольном образовании**
**резюме**

Роль семьи в воспитании дошкольника напрямую связана с надлежащим распространением семейных традиций воспитания как ответственных и морально воспитательных детей. Роль семьи как традиции в семье незаменима, когда дети морально сильны, тверды и терпимы. Семья защищает и укрепляет традиции и семейные традиции.

**The role of family traditions in preschool education**
**summary**

The role of the family in the upbringing of a preschooler is directly related to the proper propagation of family traditions of growing up as responsible and morally upbringing children. The role of family and the qualities as a tradition in that family is indispensable for children to become morally strong, firm and tolerant. Family protects and strengthens traditions and family traditions.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN HUMANİZM RUHUNDA TƏRBİYƏSİNİN VASİTƏ VƏ YOLLARI

**Vüsalə Əliyeva,**
ADPU-nun müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru
E-mail: **vusale2000@gmail.com**



**Açar sözlər:** məktəbəqədər müəssisə, məktəbəqədər yaşlı uşaqlar, tərbiyə, humanizm, humanizm tərbiyəsi;
**Ключевые слова:** детский сад; дошкольное, воспитание, гуманизм, воспитание гуманизма;
**Key words**: kindergarten; preschool, education, humanism, education of humanism.

Müasir dövrdə məktəbəqədər müəssisələrdə aparılan şəxsiyyətyönümlü təhsilin əsas prinsiplərindən biri humanistləşdirmədir. Bu prinsipin əsasını məktəbəqədər müəssisə, cəmiyyət və ailənin birgə əməkdaşlığı təşkil edir. Humanizm prinsipi yalnız demokratikləşdirilmiş təhsil proqramında öz əksini tapmır. Demokratikləşdirilmiş təlim həm də uşaqların gələcəkdə cəmiyyətdə öz layiqli yerlərini tutmalarına, dünyagörüşlərinin formalaşmasına şərait yaradır. Ümumiyyətlə, demokratik təhsildən əsas məqsəd mövcud cəmiyyətin tələblərinə uyğun vətəndaş tərbiyə etmək və şagirdləri ictimai həyata hazırlamaqdır.

Humanizm prinsipi tərbiyəçidən tələb edir ki, uşaqlara daha xoş, dəstəkləyici, ruhlandırıcı münasibət bəslənsin. Təlim prosesində humanizm o vaxt mümkündür ki, tərəflər arasında (tərbiyəçi-uşaq, uşaq-uşaq) inam, hörmət, dostluq və məhəbbət olsun. Bu prinsiplərə əməl etmədən məşğələdə əməkdaşlıqdan danışmaq olmaz. Bunlar humanistləşdirmə və demokratikləşdirmə prosesinin əsas şərtləridir. Beləliklə, aydın olur ki, müasir məşğələ təhsil islahatının prinsipləri üzərində qurulur.

Araşdırmalar göstərir ki, uşağın oxuya və yaza bilməsi dünyagörüşünün formalaşmasına güclü təsir göstərir. Təbii ki, uşaqların əksəriyyəti bu bacarıqlara məktəbdə yiyələnirlər. Unutmaq olmaz ki, insanın formalaşmasının əsasını həyatının ilk 6 ili təşkil edir. Bu müddət isə məktəbəqədər təhsil dövrünə təsadüf edir. Uşaqda təhsilə həvəs yaratmaq tərbiyəçi və valideynlərin əsas borcudur. Əgər uşaq ailədə daim kitab, qəzet, jurnal oxuyan valideynlərin əhatəsində böyüyərsə, bu, onda oxumaq həvəsini artırar. Beləliklə, ev şəraitinin və ailə üzvlərinin uşağın təlim həyatındakı fəallığında və məktəbə getmək həvəsinin yaranmasında çox əhəmiyyəti var.

Məşğələ prosesində uşaqlarda humanizmin formalaşdırılmasında tərbiyəçi amili ilə yanaşı, valideynlərin də özünəməxsus yeri vardır. Təlimin uşaq həyatındakı yerini dərinləşdirmək və inkişaf etdirmək tərbiyəçidən asılıdır. Tərbiyəçi uşağın qarşısındakı məsuliyyət və öhdəlikləri valideynə başa salmalı, lazım olduqda məktəbəhazırlıq qruplarında keçilən hər mövzu üzrə

validеyni maariflәndirmәlidir. Bu, tәlim prosesindә tәlәblәrdә vahidlik prinsipinin gözlәnilmәsinә şәrait yaradır.Yәni hәm tәrbiyәçi, hәm dә valideyn uşağa mәsәlәyә eyni hәll yolu ilә yanaşmağı göstәrmәlidirlәr.

İslahatların aparıldığı dövrdә tәlim-tәrbiyә işlәrinin, mәktәbәqәdәr tәhsilin keyfiyyәtinin yüksәldilmәsindә tәrbiyәçi-uşaq, uşaq-uşaq, tәrbiyәçi-valideyn, valideyn-uşaq münasibәtlәrinin düzgün qurulması vacibdir. Bu problem kurikulumun әsas tәlәbi olan "uşaqlara hәyati bilik vә bacarıqların verilmәsi"ndәn ibarәtdir.

Cәmiyyәtdә informasiyanın bolluğu, bәzi hallarda insanlararası münasibәtlәrdә müәyyәn problemlәrin meydana çıxması hәr bir şәxsin, ilk növbәdә, konkret hәyati bilik vә bacarıqlara yiyәlәnmәsini, dövrün tәlәblәrinә uyğun, müstәqil mövqeyә malik olmasını, Azәrbaycan dövlәtçiliyini inkişaf etdirmәk üçün zәruri sәriştәlilikl әri qazanmasını tәlәb edir. Bütün bunların tәmәli kiçik yaşlardan qoyulur. Uşaqların daim münaqişәli ailәdә böyümәlәri, valideynlәrin sәrt münasibәtlәri, bağçada tәrbiyәçilәrin bәzilәrinin laqeyd, düzgün olmayan (tәhqir etmәk, döymәk vә s.) münasibәt qurmaları uşaqlarda paxıllıq, nifrәt, inamsızlıq kimi hisslәrin formalaşmasına sәbәb olur. Bu da tәbii ki, uşaqların hәm tәlimә marağının zәiflәmәsinә, hәm dә gәlәcәkdә onlar üçün böyük problemlәrin yaranmasına tәsir göstәrir. Mәhz buna görә dә mәktәbәqәdәr tәhsil müәssisәlәrindә bu münasibәtlәrә daim diqqәt yetirilmәsi vacibdir.

Mәşğәlә prosesindә humanizm dedikdә, daha çox öhdәlikli cәlb olunma, qarşılıqlı fәaliyyәt başa düşülür. Uşaqlar birgә fәaliyyәt zamanı müәyyәn mәsuliyyәt daşıyır, hәm dә bütün fәaliyyәt prosesindә әmәkdaşlıq edә bilirlәr.

Tәcrübә göstәrir ki, tәrbiyә prosesindә humanizm prinsipinin tәtbiqi zamanı yüksәk sәviyyәli nәticәlәrin әldә olunması ilk növbәdә tәrbiyәçidәn asılıdır. Tәrbiyәçi bu problemin mahiyyәtinә dәrindәn bәlәd olmalı, respublikada hәyata keçirilәn tәhsil islahatlarının tәlәblәrini nәzәrә almalıdır. Tәrbiyәçi üçün vacib olan әsas qabiliyyәtlәri aşağıdakı kimi qruplaşdırmaq olar:
1) elmi biliklәr; 2) dünyagörüşü; 3) uşaqlara yanaşma tәrzi; 4) öyrәtmә bacarığı; 5) şәxsi keyfiyyәtlәr.

Humanizm prinsipi üzәrindә qurulan mәşğәlәdә uşaqların hәm marağı, fәallığı, hәm dә insanlıq üçün gәrәkli keyfiyyәtlәrin nәzәrә alınması vacibdir.

Uşaqlarda qorxu, stress kimi psixoloji proseslәr daha sürәtlә yarandığından onların öyrәnmә fәaliyyәtinә mәnfi tәsir göstәrir. Tәrbiyәçi mәşğәlәdә humanist, demokratik vә әmәkdaşlıq mühiti yaratmağı bacarmalıdır ki, psixoloji gәrginliyin yaranmasının qarşısını ala bilsin. Tәrbiyәçi әmәkdaşlıqla yanaşı, uşaqlar arasında sağlam rәqabәt yaratmağı da bacarmalıdır. Humanist mühitdә böyüyәn vә sağlam rәqabәtin nә olduğunu anlayan uşaqlar xalqın parlaq gәlәcәyidir.

Mәşğәlә prosesindә tәrbiyәçi uşaqlarda inam hissi yaratmalıdır, yәni o, uşaqlara onların hәr hansı tapşırığın öhdәsindәn gәlә bilәcәklәrinә inandığını hiss etdirmәlidir. Bu zaman uşaqlar fәallaşır vә problemi daha mәqsәdli hәll etmәyә çalışırlar.

Uşaqların öyrәnmә fәaliyyәti elә tәşkil olunmalıdır ki, bütün qrupun işi fәrdlәrin müvәffәqiyyәti, müştәrәk uğuru kimi ortaya çıxsın. Humanizm prinsipinә әsaslanan bu prosesdә tәrbiyәçi uşaqların inkişafına tәkan verdiyi kimi, onlar da tәrbiyәçinin fәaliyyәtini nizamlayırlar.

Fәaliyyәtindә humanizm prinsipini әsas götürәn tәrbiyәçi uşaqların psixi, fiziki inkişafına düzgün tәsir göstәrmәklә yanaşı, sosial inkişafına da imkan yaradır. Biliklәrә sәrbәst yiyәlәnmәk, onları nümayiş etdirmәk, yoldaşlarının fikrinә hörmәtlә yanaşmaq vә s. bu kimi cәhәtlәr uşağın sosial inkişafını sürәtlәndirir.

Tәrbiyәçi uşaqlarla әmәkdaşlıq qurduqda onun fәrdi xüsusiyyәtlәrini, tәlim maraqlarını vә tәrbiyәvi amillәrinin rolunu nәzәrә almalıdır. Professor Ә.Ağayev yazırdı: "Hәr bir fәal, işgüzar Azәrbaycan müәllimi (tәrbiyәçi) şagirdlәrin sosial şәraitini, ictimai mühitini, milli mentalitetini, adәt-әnәnәlәrimizi, fәnnin, mövzunun fundamentallığını vә ya praktikliyini, fәnlәrarası әlaqәni, hәtta biliklәrin inteqrasiyasını, yaş vә anlam, hәyat tәcrübәsi sәviyyәsini, pedaqoji-metodik, psixoloji-iradi xüsusiyyәtlәri nәzәrә almalı, prosesin tәşkilinә yaradıcı yanaşmalıdır". [2]

Təcrübə göstərir ki, problem baxımından məşğələ mühitini üç kateqoriyaya – yarış, fərdi və qrup əməkdaşlığına ayırmaq olar.

1. ***Yarış*** – bəzi uşaqların qalib gəldikləri zaman digərlərinin məğlub olduqları, kimin ən yaxşı olduğunu üzə çıxarmaq üçün şagirdlərin bir-biri ilə bəhsə girdikləri təlim mühitidir. Bu təlim mühitinin həyata keçirilməsi zamanı aşağıdakı xüsusiyyətlər üzə çıxır:

- Uşaqlar *qalib gəlmək* və *məğlub olmaq* anlayışını başa düşür və qəbul edirlər.
- Digər uşaqlarla sağlam rəqabət aparırlar.
- Qiymətləndirmə fərdi aparılır.
- Tərbiyəçi yarış prosesində mühüm metodları istiqamətləndirir.

2. **Fərdi** təlim mühitində uşaq öz yoldaşlarının fəaliyyəti ilə maraqlanmır, məqsədinə çatmaq üçün fərdi fəaliyyət göstərir. Təlim mühitində aşağıdakı xüsusiyyətlər üzə çıxır:

- Uşaqlar müstəqil fəaliyyət göstərirlər.
- Uşağın rəqibi özüdür.
- Uşağın yoldaşları ilə birgə fəaliyyəti imkansızdır.
- Məşğələnin məqsədi hər bir uşağın bilik səviyyəsini öyrənməkdir.
- Məqsədinə çatmaq üçün fərdi çalışır.
- Qiymətləndirmə fərdidir və digər nəticələrlə müqayisə olunmur.
- Tərbiyəçi kömək edən, dəstəkləyəndir.

3. Nəticəyə əsasən, qrup üzvlərinin ya birlikdə qalib gəldikləri, ya da məğlub olduqları, ortaq məqsədlər ətrafında bərabər fəaliyyət tələb edən, **qrup əməkdaşlığına** əsaslanan təlim mühitidir. Bu prosesdə aşağıdakı xüsusiyyətlər nəzərə alınır:

- Məqsəd hər uşaq üçün əsas olaraq göstərilir.
- Fərqli qabiliyyətləri, bacarıqları, mənimsəmə xüsusiyyətləri olan uşaqlara görə qruplar yaradılır, onlar burada biliklərə yiyələnirlər.
- Qruplarla məşğələnin məqsədinə nail olmaq fəaliyyəti daha asan həyata keçirilir.
- Hər bir uşaqdan yoldaşları ilə yaxşı münasibətdə olması tələb edilir.
- Fikirlər,ideyalar,düşüncələr paylaşılır.
- Qrup üzvləri həm məsuliyyət daşıyır və problemlə bağlı öz qrupuna kömək göstərir, həm də müqayisə aparır, dəstək vermək bacarığını nümayiş etdirirlər.
- Qiymətləndirmə zamanı qrup üzvlərinin qrupun fəaliyyətinə köməyi əsas götürülür.
- Qrupların uğurları bir-biri ilə müqayisə edilir. Uşaqların fərdi müvəffəqiyyəti isə müqayisə edilmir.
- Tərbiyəçi kömək edən, dəstəkləyən, istiqamətləndirən, problemi yaradandır.

Bu məşğələ kateqoriyalarından göründüyü kimi, qrup əməkdaşlıq mühiti daha səmərəli və məqsədəuyğundur.

Məşğələ prosesində uşaq əməkdaşlığının qurulmasında qruplarla işin xüsusi yeri vardır. Qruplarla öyrənmə uşaqların ortaq məqsədə çatmaq üçün məsuliyyət daşımağa və bir-birindən öyrənmələrinə şərait yaradan məşğələ mühitidir. Öyrənmədə uğurun qiymətləndirilməsi tək-tək uşaqların deyil, qrupların müqayisə olunmasına əsaslanır.

Bildiyimiz kimi, məktəbəqədər müəssisədə aşılanan münasibətləri insan sonrakı illərdə cəmiyyət həyatına tətbiq edir. Bu istiqamətdə tərbiyəçi–uşaq münasibətlərinin humanistləşdirilməsi günün tələbi kimi ön plana çəkilir.

Humanizm prinsipinin riayət olunmadığı məşğələ prosesində uşaqlarda özünə inamsızlıq, qorxu, stress, çətinlikdən qaçmaq, ünsiyyətsizlik, məsuliyyətsizlik, təlimdə geridə qalma və s. bir sıra mənfi xüsusiyyətlər formalaşır. Bütün bunlar uşaqların təlim müvəffəqiyyətlərinin və cəmiyyət üçün yararlı şəxsiyyət kimi formalaşmalarının qarşısını alır.

Tərbiyəçi təkcə qrupla, məşğələ prosesində deyil, valideynlərlə də əməkdaşlıq etməyi bacarmalıdır, çünki uşağın psixoloji inkişafına mənfi təsir göstərən amillərdən biri də ailədə və

bağçada tələblərdə vahidlik prinsipinin gözlənilməməsidir. Bunun qarşısını almaq üçün tərbiyəçi çalışmalıdır ki, valideynlərlə geniş əməkdaşlıq aparsın.

Tərbiyəçi–valideyn əməkdaşlığı uşağın məsuliyyətini artırır. Belə əməkdaşlıq zamanı tərbiyəçi uşağın inkişafı üçün ailə vəziyyətini aydınlaşdırır.

Humanizm psixologiyasının liderlərindən biri olan K.Rocers tərbiyəçilərə təlim-tərbiyə prosesində uşaqların şəxsiyyətinə qayğıkeş münasibət göstərməyi məsləhət bilirdi. O, şəxsiyyətyönümlü təhsillə bağlı doqquz göstərici vermişdir. Bunlara akademik uğur, "Mən" konsepsiyası, bağçaya münasibət, kreativlik, konformizm, həyəcanlanma, nəzarətin azaldılması, əməkdaşlıq və təşəbbüskarlıq daxildir. Bu problemlə bağlı apardığı tədqiqatda o göstərir ki, təlim-tərbiyə prosesinin mərkəzində uşaq şəxsiyyətinin inkişafı dayanarsa, daha çox uğur qazanmaq mümkündür. Bu zaman uşaqların təlimə, bağçaya, tərbiyəçiyə maraqları artır və onlar məşğələdə sərbəst münasibət və əməkdaşlıq qururlar, nitqləri inkişaf edir.

Prof. Əjdər Ağayev təhsilin demokratikləşdirilməsi və humanistləşdirilməsini üç istiqamətdə təhlil etmişdir:

1) təhsilin idarə edilməsində –təhsilin, təlim-tərbiyə prosesinin təşkili, həyata keçirilməsinə nəzarət və rəhbərlikdə;

2) təlim prosesinin təşkili və həyata keçirilməsində (tədris planlarında, proqram və dərsliklərdə, müəllim-şagird münasibətlərində, müəllimin ünsiyyəti və davranışında, hökmlərində, meyil və maraqların, qabiliyyətlərin nəzərə alınmasında, düzgün qiymətləndirilməsində, təlimin prinsip və metodlarının məqsədyönlü seçilməsində, ayrı-ayrı fənlərin imkanlarından səmərəli istifadə edilməsində);

3) tərbiyə prosesinin təşkili və tərbiyəvi tədbirlərin həyata keçirilməsində bu istiqamətlər eyni zamanda bir-biri ilə sıx əlaqədə, qarşılıqlı tamamlama vəhdətində nəzərdə tutulur (2, səh.11)

Təhsilin humanistləşdirilməsi tələb edir ki, məşğələ prosesində bütün uşaqların şəxsiyyətinə hörmətlə yanaşılmalı, heç bir halda onların ləyaqət təhqir olunmamalıdır. Uşaqların fiziki və psixi fəallığının, müstəqillik və təşəbbüskarlığının inkişaf etdirilməsinə təlim-tərbiyə prosesində şərait yaradılmalıdır.

**Ədəbiyyat**


1. Mehrabov A.O., Abbasov Ə., ZeynalovZ., Həsənov R. Pedaqoji texnologiyalar. Bakı: "Mütərcim", 2006.
2. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: "Adiloğlu", 2006.
3. Mehrabov A.O. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: "Mütərcim", 2007.
4. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Bakı: "Nurlan", 2007.
5. Əlizadə H.Ə. Tərbiyənin demoqrafik problemləri. Bakı: "Maarif", 1993.
6. Nəzərov A., Məmmədov R. Pedaqoji ustalıq (mühazirə xülasələri). Bakı: "Müəllim", 2008.
7. Sarıyev Ə. Müəllim – şagird münasibətləri haqqında. Bakı: "Maarif", 1981.


**ЭФФЕКТИВНОСТЬ И СПОСОБЫ ОБУЧЕНИЯ ГУМАНИЗМА У ДОШКОЛЬНИКОВ.**


**резюме**

В статье отражаетя демократизированный образовательный анализ принципа сотрудничества. Демократизированное обучение создает возможности для детей формировать свои взгляды на общество и формировать их взгляды на будущее. Основой принципа гуманизма является сотрудничество садовода, общества и семьи.

Еще важнее следовать принципу гуманизма в процессе обучения. Потому что в процессе обучения дети нуждаются в большей заботе, искренности и уверенности в себе. Каждый ребенок играет большую роль в процессе обучения, если к нему относятся с уважением, вниманием и заботой.


**EFFICIENCY AND METHODS OF TRAINING IN HUMANISM OF PRESCHOOL CHILDREN.**


**summary**

The article reflects the democratized education analysis of the principle of cooperation. Democratized learning creates opportunities for children to shape their outlook in society and shape their outlook in the future. The basis of the principle of humanism is the cooperation of the gardener, society and the family.

It is important to follow the principle of humanism in the learning process. Because in the learning process children need more care, sincerity and self-confidence. Each child takes a great part in the learning process if he or she is treated with respect, attentiveness, and car.

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA İSLAM

**Səadət Həsənova,**
ARTİ-nin aparıcı elmi işçisi, pedaqogika
üzrə fəlsəfə doktoru, dosent
hasanovaseadet51@gmail.com



**Acar sözlər**: tərbiyə, həyat, milli kolorit, gənclərin tərbiyəsi;
**Ключевые слова:** воспитание, жизнь, национальный колорит, воспитание молодежи;
**Key words :** education, life, national colorit, education youths.

Azərbaycanın görkəmli filosof şairi, şərqin humanist mütəfəkkiri Nizami Gəncəvinin "Xəmsə"si böyük pedaqoji ensiklopediyadır. Bu zəngin irsdə irəli sürülən təlim-tərbiyə ideyaları müasir dövrdə də öz əhəmiyyətini itirməmişdir.

Dahi şairimizin əsərlərində qoyulan ideyalar millilikdən ümumbəşəri səviyyəyə yüksəldiyindən insanın kamilliyə çatmasında əvəzsiz mənəvi xəzinədir. Tərbiyənin elə bir sahəsi yoxdur ki, Nizami öz əsərlərində ona toxunmasın.

Nizaminin tərbiyə nəzəriyyəsinin əsas məqsədi insanı əxlaqi cəhətdən saflaşdırmaq, kamilləşdirmək, həmişə haqq-ədalətə sövq etməkdir. İnsanı insanlıq səviyyəsinə yüksəldən onun tərbiyəsidir. Yalnız düzgün tərbiyə almış şəxslər əsl insan səviyyəsinə yüksələ bilmişlər.

Nizami əsərlərində Qurani-Kərimə, Məhəmməd Peyğəmbərin kəlamlarına istinad edirdi. Dahi şair əsərlərini həmişə cənabi-Haqqa xitab edən bir alqış və minacatla başlamışdır.

Nizamiyə görə, məktəb elm və mədəniyyət məbədi olmaqla məhdudlaşmır, eyni zamanda yeni elmi kəşflər etmək üçün imkan yaradır. O,dinin tədrisini də lazım bilməklə istər elm, istərsə ruhani elmlər sahəsində kamil olmağı məsləhət görürdü. Nizami üçün dünyanın yaradıcısı olan Allah birdir. O, Allah ki:

Göyləri xəlq edib, yaraşıq verən,
Saysız ulduzlara nur, işıq verən,
Bizə qorxu, ümid, şadlıq, qəm verən,
Günəşli və aylı bir aləm verən,
Bu yeri, bu göyü Odur saxlayan,
Onun varlığına şahiddir cahan.

Nizamidə idrak obyekti insanın özü, mövcud əşyalar aləmi və Allahdır.

Nizaminin dövründə islam cəmiyyəti bir tərəfdən şiəlik və sünnilik məzhəbləri arasında gedən mübarizə, o biri tərəfdən isə, sufilər və şəriətçilər arasındakı mübahisələr içərisində çalxalanırdı. Şair Allaha inanan, peyğəmbərə bağlı dindar və sadiq bir müsəlman idi. O, islam cəmiyyətini parçalayan məzhəb və firqələrin apardığı mübarizənin fövqündə duran, fanatizm, səbirsizlik və təmkinsizlikdən uzaq, kamil bir təbiət və əxlaq sahibi idi.

Şair öyüd və nəsihətlərində oğlunun mənəvi tərbiyəsi və cəmiyyətdə tutacağı mövqe ilə maraqlandığını müvafiq və kafi dərəcədə açıqlamışdır. Şairin oğluna yazdığı nəsihətamiz parçaları müdrik bir atanın, alimin gələcək nəslə etdiyi nəsihətləridir. Həmin nəsihətlərdə dahi şair ilk növbədə elm öyrənməyi, lazımi sənət sahibi kimi cəmiyyətə yararlı insan olmağı tövsiyə edir. Şairin "Oğlum Məhəmmədə nəsihət" başlığı altında müxtəlif illərdə yazdığı şeirlər deyilənlərə sübutdur:

Qaç o sözlərdən ki, mənasız, boşdur,
İlahi elmləri öyrənmək xoşdur.

Bunu qeyd etmək yerinə düşər ki, Nizami təvazökarlıq və qənaətə riayət edərək, zahidanə, sadə bir həyat sürmüşdür.Təvazökarlıq Nizaminin həyatının ana xətti olmuşdur. Firdovsi məşhur "Şahnamə"sini Qəznəvilər sarayında ona ayrılmış xüsusi otaqda, min bir qulluq görərək və ona vəd edilən qızıl üçün yazmış, sonra isə qalan haqqı üstündə davası ilə əfsanəyə çevrilmiş mübahisəsi ilə məşhur ikən, Nizami bütün poemalarını kimsədən heç bir şey ummadan, Gəncədəki dərvişxanəsinin dörd divarı arasında yazmışdır. Öz ruzisini isə o, başqalarının "əl süfrəsindən yox", "ruzi verən Allah"dan gözləmişdir.

Süfrəsindən adamların yoxsa nəsibim,
Ruzi verən Tanrıyadır mənim ümidim.

Nizami Gəncəvinin bütün yaradıcılığını diqqətlə nəzərdən keçirsək, görərik ki, onun bu qədər dərin mənalı əsərlərinin hamısı minacatla başlanır və Məhəmməd Peyğəmbərin tərifi ilə davam etdirilir. "İqbalnamə"nin minacatında o, yazır :

Bəndənin ümidi sənsən, ilahi,
Yoxdur səndən başqa onun pənahı.
Olmuş-olacağı sənsən yaradan,
Sənin kəraminə möhtacdır insan.

"İsgəndərnamə"də öz vəziyyətini təsvir edərkən, bilavsitə bildirir ki, o, "Allaha sığınmaqdan başqa qayğısı olmayan bir mütəfəkkirdir".

Ona bəslənən ehtiram və etibarın nə dərəcədə olduğunu şairin bir xatirəsindən anlaya bilərik: Sultan Qızıl Arslan yanına çağırdığı şairin gəldiyindən xəbər tutarkən eyş-işrət məclisində imiş. Şairin möminliyinə hörmət əlaməti olaraq, məclis bir anda dayandırılır. Nizami içəri girərkən padşah ayağa qalxır və qonağı həyəcanla qarşılayır. Onlar qucaqlaşırlar və Qızıl Arslan Nizamini min bir rica ilə başda oturdaraq, məclisdəkiləri buraxır, "Bu gün ancaq Nizami ilə görüşəcəyəm, çünki onun söhbəti meydən daha nəşəli və neydən daha ahənglidir"– deyir. Nizami bu hadisəni öz əsərlərində belə yad etmişdir: "Onun yanına möhtaclar Kəbəyə gedən kimi getdim. Onun yanından isə Məhəmməd meracdan qayıtdığı kimi qayıtdım". Allahın hüzuruna çıxmaq haqqı, Nizaminin fikrinə görə, əvvəl peyğəmbərlərə, sonra da şairlərə verilmişdir.

"Xəmsə"dəki poemalardan "Məxzən-ül-Əsrar" ("Sirlər xəzinəsi") təlqinedici bir əsərdir. "Pənc gənc"in ("Beş xəzinə") ilk xəzinəsini təşkil edən bu poema özündən sonra gələn dörd əsərdən forma baxımından da fərqlənir. Bu əsərdə nə bir eşq hekayəsi, nə də bir hökmdarın dünyanı fəth etməsi təsvir olunmur. "Sirlər xəzinə"sinin yazılmasında əsl məqsəd şairlik deyil, filosof şeyx Nizaminin öz əxlaqi fikirlərini daxildən gələn bir istəklə oxuculara təqdim etməsidir. Bu baxımdan əsərə dini təbliğ edən müqəddəs kitab demək olar.

Şairin qənaətincə, müsəlmanlığın Allah haqqında əsas əqidəsi də budur: "Bütün varlıqları o vücuda gətirib: zəif torpaq, yer üzü onun bayrağı altına sığınmışdır. Biz onun üzərində dururkən, o, öz-özünə, heç bir dayağı olmadan durmuşdur. Onun varlığının müəyyən bir şəkli və surəti yoxdur, kimsəyə bənzəməz, dəyişməz, ölməz. Biz hamımız fani ikən, o, əbədidir. Aliliklə müqəddəsliyə sahib olan odur".

Allaha həmd və sənadan sonra Məhəmməd Peyğəmbərin tərifi gəlir. Nizami bu əsərində "Peyğəmbərin tərifi"ni ("nət-i-nəbi") dörd dəfə təkrarlayır. Nizaminin dediyinə görə, hökmü qiyamətə qədər sürəcək ən böyük bilik və hidayət sahibi olan rəhbər – Məhəmməddir. Böyük bir peyğəmbər sifətilə o, Allahla daimi və səmimi münasibətdədir. Merac bu ruhi münasibətin bir rəmzidir. Nizami Məhəmməd Peyğəmbəri (s.ə.s.) mədh edərkən sufilikdə Allahla ruhi təmas əqidəsinin bir rəmzinin göründüyü ehtimal olunan merac dastanına xüsusi diqqətlə, dəfələrlə qayıdır.

Nizami dindardır, lakin bu, yalnız mərasimçilikdən ibarət olan quru bir dindarlıq deyildir. Nizami bütün varlıqların yaradıcısı olaraq Allahı tanıyır. Öz-özünə mövcud ikən varlığının forması olmayan, kimsəyə bənzəməyən, dəyişməyən və ölməyən bir Allah... O, bu Allaha tapınır. Bu tapınmada o, səmimi və fədakardır.

Ümumiyyətlə, təkallahlılıq və varlıqda təsəvvür etdiyi vəhdət Nizamini yeganə həqiqət sisteminə gətirib çıxarır. Nizamiyə və yaşadığı dövrün hakim əqidəsinə görə, həqiqət dində təzahür edir. Bunun üçündür ki, Nizami ən çox idealizə etdiyi qəhrəmanı İsgəndərin yalnız dünyaya hakim bir cahangir olması ilə kifayətlənməmiş, eyni zamanda onu peyğəmbərlik pilləsinə də qaldırmışdır.

Bir mühüm xüsusiyyət də odur ki, Nizaminin qəhrəmanları müxtəlif dinlərə mənsubdurlar. Bu cəhət Nizami dnyagörüşündə tolerantlığın nə dərəcədə yüksək yer tutduğunun göstəricisidir.

Nizami mövzularının genişliyi, məzmun dərinliyi, onun bədii-estetik dəyərləri ilə üst-üstə düşür. İ.V.Höte Nizami Gəncəvini "Bütün zamanların və xalqların şairi" hesab edirdi. H.Heyne isə emosional bir hissiyyatla yazırdı: "Almaniyanın öz böyük şairləri var... lakin onlar Nizami ilə müqayisədə kimdirlər ki?".

Qədim mənbələrdə nüfuzlu tarixçilərin, şərqşünasların da təsdiq etdikləri məlumata görə, Nizami Gəncəvinin iyirmi min beyti (qırx min misra) müharibələr, qarətlər, yanğınlar, zəlzələlər nəticəsində itib-bataraq, dövrümüzə gəlib çatmayıb, ancaq bu əvəzsiz itkiyə baxmayaraq, Nizami Gəncəvi dünya ədəbiyyatşünaslığında Homer, Vergili, Dante ilə, onun "Xosrov və Şirin", Leyli və Məcnun", "Yeddi gözəl" kimi böyük məhəbbət dastanları isə dünya ədəbiyyatının "Dafnis və Xloya", "İsmin və İsminiya","Hero və Leandr" kimi nümunələri ilə bir sırada durur.

870 ildən çoxdur ki, Nizaminin məskəni kitabxanalar, elm mərkəzləri, universitetlərdir və bu gün Oksford Universiteti kimi qədim və nüfuzlu bir təhsil, elm ocağında yaradılmış yeni mərkəzin də Nizami Gəncəvinin adını daşıması xarakterik və sanballı bir faktdır. Professor Y.Bertelsin 1940-cı ildə Bakıda nəşr olunmuş "Böyük Azərbaycan şairi Nizami" kitabı ingilis dilinə tərcümə edilərək nəhəng bir auditoriyaya təqdim olunmuşdur. Bu təqdimatın da Oksford Universiteti ilə bağlılığı mühüm bir göstəricidir.

Nizami Gəncəvi hər hansı ictimai formasiya təzahürlərinin və maraqlarının fövqündədir. Bəşəriyyətin keçdiyi siyasi-içtimai mərhələlər – feodalizm, sosializm, kapitalizm ona münasibətdə, onun qiymətləndirilməsində heç bir rol oynamır, çünki Nizami yaradıcılığı öz bədii-estetik və ictimai-fəlsəfi səviyyəsinə, əhəmiyyətinə görə 870 il bundan əvvəl neçə müasir, aktual idisə, bu gün də elədir.

**Ədəbiyyat**


1. Nizami Gəncəvi. "Xəmsə"
2. Babayeva T. Nizami Gəncəvinin ədəbi irsində şəxsiyyət problemi. Bakı, 2000.
3. Kərimli T. Nizami və tarix. Bakı: "Elm", 2002.
4. Rzasoy S. Nizami poeziyası: Mif-tarix konteksti. Bakı: "Ağrıdağ", 2003.
5. Arzumanlı V. Nizami Gəncəvinin dünya şöhrəti. Bakı: "Qartal", 1997.


**ИСЛАМ В ТВОРЧЕСТВЕ НИЗАМИ ГЯНДЖЕВИ**

**резюме**


В статье идет речь об исламе в творчестве Н.Гянджеви. Приводится примеры из разных его произведений. Отмечается, что на протяжении более чем 870 лет обиталищем Низами является библиотеки, научные центры и университеты, и сегодня созданный новый центр им. Низами Гянджеви на старейшем и наиболее влиятельном образовательном центре, как Оксфордский университет, является тому характерным и замечательным показателем.


**ISLAM IN CREATIVITY BY NIZAMI GANJEVI**

**summary**


The article deals with Islam in the works of N. Ganjavi. Examples from his different works are given. It is noted that for more than 870 years Nizami has been inhabited by libraries, research centers and universities, and today a new center created for them Nizami Ganjavi at the oldest and most influential educational center, like the University of Oxford, is a characteristic and remarkable indicator.

# AZƏRBAYCAN BƏSTƏKARLARININ YARADICILIĞINDA MUĞAM

**Zemfira Sultanova,**
ADPU, Musiqi və onun tədrisi metodikası
kafedrasının baş müəllimi

**Açar sözlər:** musiqi, muğam, bəstəkar, əsərlər, folklor;
**Ключевые слова:** музыка, мугам, композитор, произведение, фолклор;
**Key words:** music, muqam, composers, works, folklore.



Muğam respublikamızın musiqi mədəniyyətinin uzun əsrlik tarixi inkişaf yolu keçmiş, professional şifahi xalq yaradıcılığı sahəsidir. Uzun illərin məhsulu olan bu mənbə qaynar həyat bulağıdır. Milli musiqi məktəbi məhz bu mənbədən bəhrələnmiş, öz dərin köklərini həmin möhkəm bünövrəyə bağlamışdır. Bu, bir-iki müəllifin dəbdə olan ekzotikaya təsadüfi müraciəti olmayıb, ictimai hərəkatın dərin sosial və bədii meyli ilə stimullaşır.

"Folklor – keçmişin əks-sədası, eyni zamanda, indinin uca səsidir". Sərrast deyilmiş bu sözlər qədim və müasir muğam sənətinə də aid oluna bilər. Onu yaşadan, ona bilavasitə yeni rəng, həyat verən professional bəstəkarlıq məktəbi oldu.

Azərbaycan bəstəkarlıq məktəbinin banisi Ü.Hacıbəyov ilk milli operanı yaradarkən ("Leyli və Məcnun", 1908) muğamlara müraciət etmişdir. Bu opera mügam əsasında qurulduğuna görə *muğam operası* adlandırılır. Bununla əlaqədar, Azərbaycan musiqişünasları qeyd edirdilər ki, "Leyli və Məcnun" operasında muğamdan sitat şəklində istifadə olunur. Belə bir cəhət unudulur ki, bunlar artıq bir muğam dəstgahının istfadəsi demək deyil. Əsərdə muğamların ayrı-ayrı şöbələrindən istfadə olunur. Deməli, muğamın dəstgah kontеksti pozulur. Bu, artıq muğamdan istifadə olunmasının müəyyən bir növüdür.

Ü.Hacıbəyov nə üçün məhz bu janra müraciət etmişdir? Hər şeydən əvvəl, bu, muğamın Şərq musiqi təfəkküründə kamil, yüksək səviyyəli bir janr olması ilə izah edilir. Dahi Ü.Hacıbəyovun "Azərbaycan xalq musiqisinin əsasları" kitabında muğam şifahi musiqi ənənələrinin kamil forması kimi şərh edilir. Muğamın sadəliyi sükut və hərəkətsizlik təsiri bağışlaya bilər, lakin bu, primitivlik deyil. Klassik nümunə olan muğam şərq musiqi təfəkkürünün kamil bir formasıdır.

Muğam – Şərq professional musiqisinin inkişafı yolunda yüksək pillədir. Bu pillə inkişafın son ucalıq nöqtəsidir. Sadəcə belə bir fakta nəzər yetirək: bu günədək Şərq professional musiqi sənətində muğamdan kamil, ondan yetkin, çox inkişaf etmiş, yeni mərhələlərə aparacaq heç bir yeni janr, yeni forma yaranmamışdır.

Ü.Hacıbəyovun "Leyli və Məcnun" operasında muğamdan başqa bir yolla istifadə olunmasını qeyd edə bilərik. Bu yol öz zəngin keyfiyyətlərini operada istifadə olunan "Heyratı","Simayi-Şəms","Ovşarı","Arazbarı" zərb muğamlarında tapır.

Ü.Hacıbəyovun sonrakı illərdə, daha dəqiq desək, inqilaba qədərki dövrdə yazdığı "Şeyx Sənan", "Harun və Leyla", "Rüstəm və Zöhrab", "Şah Abbas və Xurşud Banu", "Əsli və Kərəm" operalarında muğamdan istifadə təcrübəsi davam etdirilirdi. Bu operalarda muğam, demək olar ki, operanın bütün əsas formalarını (*ariya, ariozo, duet, ansambl* və s.) əvəz edir. Bu operalarda muğam, müəyyən dramaturji məqsədə tabe etdirilərək, ondan müstəqil musiqi forması kimi, bütöv şəkildə istifadə olunur. Muğam epizodları isə nota salınmamışdı və ifaçılar muğamı bəstəkarın göstərdiyi lad əsasında oxuyurdular. Bunlar "muğam operası" adını almışlar.

Azərbaycan musiqisində muğamlardan istifadə sonrakı illərdə də özünü göstərir, məsələn, R.Qliyerin "Şahsənəm" operasında muğamın melodiyası dəyişilməmiş şəkildə qalır. Bu, operanın müqəddiməsində istfadə olunan "Arazbarı" zərb muğamının işlənməsidir.

Ü.Hacıbəyovun ənənələrini davam etdirən bəstəkarlardan M.Maqomayev "Şah İsmayıl" və Z.Hacıbəyov "Aşıq Qərib" muğam-operalarını yaratmışlar.

İnqilabdan sonrakı dövrdə bəstəkarlar öz yaradıcılıq təcrübələrində muğama müraciətdə başqa metodlar tətbiq edirlər. Artıq Azərbaycan bəstəkarlarının əsərlərində nota salınmayan musiqi parçalarına rast gəlinmir. Muğam öz keyfiyyətini, özünəməxsusluğunu itirmədən hamılıqla qəbul olunmuş musiqi sənəti formalarına yaxınlaşır. Bu isə onun bütün dünya xalqlarına anlaşıqlı olması, Azərbaycan xalq musiqisinin zəngin abidələrinin tanınması üçün geniş imkanlar açır.

Muğamın Azərbaycan bəstəkarlarının yaradıcılığında istifadəsindən danışarkən, ilk növbədə, xalq musiqisini dərindən bilən Ü.Hacıbəyovun yaradıcılığı qeyd olunmalıdır. Ü.Hacıbəyov xalq melodiyalarından istifadə edərək, son dərəcə milli əsərlər yaradıb. Onun əsərləri Azərbaycan xalq musiqisinin lad–intonasiya xüsusiyyətləri ilə zənginləşib. Ü.Hacıbəyov ilk Azərbaycan bəstəkarıdır ki, muğamın özünəməxsus ladlarının intonasiya əsaslarını musiqi incəsənətinin müasir metodları ilə birləşdirə bilib. Muğam Ü.Hacıbəyovun yaradıcılığında harmonik və polifonik metodlarla zənginləşdi. Ü.Hacıbəyov muğamın melodik əsası üçün onun özünün lad-intonasiya xüsusiyyətlərindən irəli gələn harmonik və polifonik dil kəşf etdi. Ondan sonra gələn bəstəkarlar da öz əsərlərində muğama müraciət etmişlər.

C.Cahangirov "Arazın o tayında" vokal-simfonik poemasının girişində xalqın ağır həyatının musiqi dilində təsviri üçün "Humayun" muğamının inkişaf prinsiplərindən istfadə etmişdir. C.Hacıyev "Sülh uğrunda" simfonik poemasında əzilən xalqın ağır həyatının təsvirini vermək üçün köməkçi mövzuda "Şüştər" muğamının inkişaf prinsiplərindən istifadə etmişdir. S.Hacıbəyovun "Karvan" simfonik lövhəsində "Şur" muğamının ənənələri məharətlə verilmişdir. Bu ladın intonasiya əsasına istinad edən bəstəkar rəngarəng təsviri səhnələr yarada bilmişdir. Z.Bağırovun arfa üçün "Çahargah rapsodiyası" "Çahargah" muğamı üzərində qurulub.

Q.Qarayev yaradıcılığına muğamın melodik əsasına özünəməxsus yanaşma xasdır. Bir neçə misal çəkək: "Yeddi gözəl" baletindəki valsda bəstəkar "Çahargah" muğamının lad-intonasiya əsasından istifadə edib. II simfoniya, "Passakalye və üçlü fuqa"da, "Leyli və Məcnun" simfonik poemasında köməkçi mövzu kimi muğam əsaslarından istifadə olunmuşdur.

Azərbaycan bəstəkarlarının yaradıcılığında istifadə olunan muğamsayağı üslub polifonik formalara da daxil olmuşdur. Q.Qarayevin "Fortepiano üçün 24 prelüd" əsərinin IV dəftərindəki füqanı buna misal göstərmək olar.

C.Quliyevin fortepiano üçün Azərbaycan muğamları əsasında yazdığı yeddi pyesi, E.Dadaşovanın fortepiano üçün variasiyalarını, "Şüştər" (fortepiano, simli kvartet üçün konsert), N.Əliverdibəyovun orqan üçün yazılmız "Bayatı-Şiraz" muğamını, xor yaradıcılığında N.Əliverdibəyovun a kapella xor üçün yazılmış "Bayatı–Şiraz" muğamını, orera əsərlərində, məsələn, C.Cahangirovun "Xanəndənin taleyi", F.Əmirovun "Sevil" operası və simfonik əsərlərində, C.Hacıyevin "IV simfoniya"sında, A.Əlizadənin IV "Muğam simfoniyası"nda, A.Məlikovun "V simfoniya"sında, M.Quliyevin "III simfoniya"sında və s. muğam ladlarından istifadə olunmuşdur.

Azərbaycanda yaranan bu yeni janr başqa Şərq ölkələrinə böyük təsir göstərir. Son illərdə orta Asiya respublikalarında simfonik musiqidə muğamdan istifadə olunması özünü aydın göstərir. Tacikistanda Ş.Sayfutdinovun tenor və simfonik orkestr üçün yazdığı "Uşaq poeması", Z.Şahidinin "Buzrux" və Y.Sabzakovun "Şammanomdan səhifələr",

Özbəkistanda M.Tadkiyevin "Şairin məhəbbəti" simfonik poemalarını, M.Maxmudovun "Navo" simfoniyasını və s. misal göstərə bilərik.

Yeni janrın – simfonik muğamların yaranmasından danışarkən qeyd etməliyik ki, bu janr bilavasitə Azərbaycanda meydana gələn simfonik janrla qarşılıqlı əlaqədədir. Burada biz Ü.Hacıbəyov, M.Maqomayev, A.Zeynallı, Q.Qarayev, C.Hacıyev, F.Əmirov və Niyazinin ilk simfonik əsərlərini nəzərdə tuturuq.

Bu cəhəti də qeyd etmək istərdik ki, Azərbaycan bəstəkarlarının muğama müraciəti heç də təsadüfi deyil. Bildiyimiz kimi, muğam dramaturji nöqteyi-nəzərdən Azərbaycan peşəkar şifahi musiqisinin olduqca zəngin bir janrıdır. Bəstəkarların bu yanra müraciət etmələri onun qarşısında daha geniş bədii imkanlar açır.

1948-ci ildə F.Əmirovun yaratdığı simfonik muğam janrı nəinki respublikamızda, bütövlükdə dünya musiqi tarixində yeni janrın başlanğıcını qoydu. Bu janrın yaranması ilə Azərbaycan musiqisində qədim Azərbaycan peşəkar şifahi musiqi ənənələrinin zəngin bir növü olan muğam Avropa simfonik vasitələri ilə birləşir. Bu yeni janr Azərbaycan musiqisinin inkişafı nəticəsində meydana gəldi.

Azərbaycan bəstəkarlıq məktəbində muğamdan istifadənin ən yüksək nümunəsi F.Əmirovun simfonik əsərləridir: "Şur", "Kürd-ovşarı" (1948) və "Gülüstan. Bayatı-Şiraz" (1971). Bəstəkar qarşısına çətin bir vəzifə qoymuşdu: impovizasiya janrı olan muğamı simfonik musiqinin klassik forması səviyyəsinə qaldırmaq. O bu işin öhdəsindən bacarıqla gəldi.

F.Əmirov tərəfindən yaradılan bu yeni janr sonrakı illərdə başqa bəstəkarlar tərəfindən inkişaf etdirilmişdir. Belə ki, 1949-cu ildə Niyazi "Rast", 1951-ci ildə isə S.Ələsgərov "Bayatı-Şiraz" simfonik muğamlarını bəstələmişlər. Nəhayət, 1971-ci ildə də F.Əmirov bu janra müraciət edərək, "Gülüstan.Bayatı-Şiraz" simfonik muğamını yazmışdır.

F.Əmirovun "Şur" və "Kürd-ovşarı" simfonik muğamları dünya şöhrəti qazanmışdır. Hələ XX əsrin 50-ci illərində bu əsərlər ABŞ-da Leopold Stokovskinin idarəsi ilə Boston filarmoniyasında, simfonik orkestrin ifasında səslənmiş, bir sıra xarici ölkələrdə vala yazılmışdır. Bu günə kimi bu simfonik muğamlar dünya səhnələrində fəal yaradıcılıq həyatı yaşayır.

F.Əmirov ömrünün sonuna qədər zəngin Azərbaycan xalq musiqisinə bağlı olub. O, bir sıra qədim Azərbaycan xalq mahnılarını toplayıb, nota salmışdır. Bəstəkarın yaradıcılığında xalq mahnılarının işləmələrinə də rast gəlirik. Nəhayət, bəstəkar öz yaradıcılığında Azərbaycan muğam sənətinə böyük diqqət yetirirdi. Bütün qeyd olunan cəhətlər, bəstəkarın şəxsi istəyi və həvəsi Şərqdə ilk dəfə yeni bir janr olan simfonik muğamı yaratmağa imkan verdi.

Muğamın Azərbaycan bəstəkarlarının yaradıcılığında rolu, istifadə yolları haqqında danışarkən caz-muğam – mili Azərbaycan cazının banisi V.Mustafazadə də yada düşür. Bütün qeyd olunanlar muğamın bəstəkarların yaradıcılığında yeni imkanlar açacağını güman etməyə əsas verir.

**Ədəbiyyat**

1. Axundov İ. Azərbaycan muğanları. Bakı: "Mütərcim", 2015.
2. Mir-Bağırzadə S.A. İncəsənət tarixi. (dərslik). Bakı, MSA, 2012.
3. Məhərrəmova İ. F.Əmirovun simfonik muğamlarının bəzi üslub xüsusiyyətləri. www.musigi-dunya.az.

**МУГАМ В ТВОРЧЕСТВЕ АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ**
**резюме**

В статье рассказывается об использовании мугама в творчестве азербайджанских композиторов. Долголетие мугама состоит в том, что композиторы создавали свои произведения, используя мугам, не изменяя его основу. Отмечается, что такие композиторы, как У.Гаджибеков в опере «Лейли и Меджнун», М.Магомаев в опере «Шах Исмаил», Ф.Амиров в симфоническом мугаме «Шур», «Кюрд овшары», Ниязи в симфоническом мугаме «Раст» и другие композиторы создали свои произведения на основе мугамов.

**TO MUHAM IN THE WORKS OF AZERBAIJAN COMPOSERS**
**summary**

The article describes the use of tugat in the works of Azerbaijani composers. The longevity of mugham is that composers created their works using mugham, without changing its basis. Such composers as U. Hajibeyov in the opera "Leyli and Majnun" and others, M. Magomayev in the opera. "Shah Ismail", F. Amirov in the symphonic mugam "Shur", "Kurd Ovshary", Niyazi in the symphonic mugam "Rast" and other composers wrote their works on the basis of mugams.

# ЖАНР РОМАНСА В ТВОРЧЕСТВЕ С. РАХМАНИНОВА

**Нелли Абутидзе,**
Азербайджанский государственный
педагогический университет



**Ключевые слова:** жанр, композитор, романс, сочинение, тема;
**Açar sözlər:** janr, bəstəkar, romans, əsər, mövzu;
**Key words:** genre, composer, romanse, composition, theme.

Романс – жанр, сыгравший исключительную роль в развитии русской музыкальной культуры. Особые качества, связанные с синтетической природой (единении музыки и слова) демократического по своей сути жанра, высокая степень художественного обобщения способствовали его широкому распространению и развитию. Он всегда являлся выразителем чувств и настроений эпохи, своеобразным откликом на дух времени. Можно сказать, что почти все русские композиторы обращались к нему, создавали созвучные реалиям дня достойные сочинения.

Этот жанр занимает значительное место и в творчестве С.Рахманинова. Интересен тот факт, что романсы создавались им все время параллельно с сочинениями для фортепиано.Естественно, что такое соприкосновение, не могло не породить определенного взаимодействия между ними, выраженного в общности образных сфер, сходстве стилистических приемов. В то же время, нельзя не отметить, что в каждом из жанров раскрываются специфические черты, присущие только ему. В результате, произведения этих жанров, дополняя друг друга, в целом позволяют увидеть широкую панораму творческих исканий композитора. Именно этим можно определить масштабность, размах и значимость вокальных сочинений Рахманинова, которые так присущи его фортепианным произведениям: особенность фактуры, пианистически разнообразной и довольно сложной, страстность, патетика, концертность.Таким образом, романс превращается в открытое, очень яркое и убедительное высказывание.

Исследователи творчества Рахманинова ставят его романсы на один уровень с оперой, которая всегда являлась глашатаем серьезных идей и трибуном, поднимающим важные нравственные и социальные проблемы. Но романс у Рахманинова, прежде всего, лирический по своей природе. В рассматриваемом жанре новаторство композитора проявляется во внутреннем усложнении и обогащении лирической сферы сочинения. Здесь он опирается на характерные для русского романса традиции – особую общительность, пафос лирического высказывания. Именно в этом русле раскрывается проблематика романсов Рахманинова. В произведениях композитора, в частности, в романсах раскрывается психологическая составляющая, драматизм и неопределенность того исторического периода, в которой он жил и творил. Действительность провоцировала создание сочинений полных скорби, глубоких размышлений, бунтарства. Но, несмотря на столь тревожные темы, композитор не теряет веры в торжество разума, красоты, любви. Чувство любви – то качество, которое так мощно проявляется во всем его творчестве: любовь к природе, человеку, жизни. Рахманинов всем сердцем любит Родину и все свое существо определяет ею: «Моя родина определила мой талант и мое мировоззрение». (2, стр. 617).

Основным критерием отбора текста для вокальных сочинений композитора является не только яркость, эмоциональная выразительность, но и глубина заключенной в них мысли. При музыкальном воплощении текста композитор руководствуется логикой, как определителем структуры романса, его динамического строения, драматургии. В свою очередь, поэтический текст оказывает не меньшее влияние на мелодию, в которой выделяются, акцентируются особо значимые речевые моменты. Объемность музыкального изложения соединяется с психологическими нюансами, фиксирующие как сам текст, так и подтекст. Если говорить о взаимодействии этих составляющих, то естественно, что их степень и характер в каждом романсе индивидуальны и зависят от конкретного замысла. Таким образом, одна из важных составляющих творческой индивидуальности композитора выражена в единстве лирической выразительности и широты вокальной мелодии с уважительным отношением к слову и тщательной отработкой декламационных тонкостей. Как отмечает Ю. Келдыш: «Стремясь к обобщенной передаче душевных состояний в динамике и развитии, С.Рахманинов вместе с тем чутко и внимательно следует за смысловыми и выразительными оттенками словесного текста». (3, стр.119). Говоря о своеобразии рахманиновского творчества, всегда отмечается сочная красочность оркестровой звучности, необычайная оригинальность гармонического письма, полифоническое мастерство, особая энергия, которая захватывает дух и держит постоянное напряжение. Но, будучи достойным продолжателем знаменитых классиков русской музыкальной культуры, С.Рахманинов особо ярко проявляет свою лирическую сущность дарования в мелодии, которая всегда находится у него на первом плане. «Большие композиторы всегда и прежде всего обращали внимание на мелодию, как на ведущее начало в музыке. Мелодия – это музыка, главная основа всей музыки, поскольку совершенная мелодия подразумевает и вызывает к жизни свое гармоническое оформление.Мелодическая изобретательность в высшем смысле этого слова– главная жизненная цель композитора». (4, стр. 556). Бесспорным, замечательным свидетельством этой стороны дарования выдающегося русского композитора является одно из самых вдохновенных, глубоко самобытных сочинений вокального жанра «Вокализ». В этом сочинении нашли воплощение, те свойства лирической мелодии, которые так характерны для творчества Рахманинова в целом. В нем весьма органично соединились принципы русской песенности, преломленные через индивидуальную рахманиновскую интонационность, с характерными для музыкального искусства начала XVIII века стилевыми приемами. Необычайно широкая, певучая мелодия получает столь естественное развитие, что воспринимается как единое дыхание. Слияние свободы течения мелодии и той непринужденности, которая так изысканна и притягательна с чертами присущими строгой классичности, а именно: аккордами сопровождения, такими ровными и размеренными, применение некоторых полифонических приемов (имитации, контрапункты), инструментальное звучание самой вокальной мелодии позволило создать сочинение, которое можно охарактеризовать не иначе, как великолепный шедевр музыкального искусства.

Большое значение в вокальном творчестве С.Рахманинова занимает жанр вокального монолога, в котором, в свойственном ему лирическом аспекте, звучит тема судьбы. Этот жанр является традиционным для русского романса вообще и музыкально-поэтические образные сферы, затронутые в нем, многообразны. Одним из этих образов является природа. В сочинениях С.Рахманинова, посвященных природе остро слышится лирическое восприятие родины, любование ее красотами, созерцательность, восторженность. Надо бы отметить, что для многих из них характерна символика, которая является данью тому времени, когда происходили глобальные изменения в жизни общества. Не остался в стороне от этого направления и С.Рахманинов. Наиболее ярко данная тематика нашла воплощение в романсе «Весенние воды» на стихи Ф.И.Тютчева. Современниками это сочинение было воспринято как символ пробуждения общества, чему способствовал

образ весеннего половодья и могучих стихийных сил природы, так зримо созданных автором. Интересно отметить, что предвестником данного романса явилось произведение Чайковского «День ли царит». Не ставя целью повествования проводить сравнительную характеристику между ними, отметим те качества, которые присущи романсу С.Рахманинова. Все музыкальные составляющие данного сочинения отмечены невероятной активностью и устремленностью: мелодия, наполненная упругими призывными мотивами, партия фортепиано, сравнимая с мощными лавинами, впоследствии преобразующимися в аккорды, звучание которых напоминает раскачивание колоколов и полное неудержимой энергии движение вперед. Романс несет в себе большую значимость, нежели просто картина природы. Он звучит как гимн жизни, наполненной радостным ожиданием.

Одна из замечательных страниц вокального творчества С.Рахманинова связана с характерной, традиционной для русских композиторов жанровой разновидностью – восточным романсом. Он представлен несколькими сочинениями, среди которых выделяется «Не пой, красавица!» на слова А.С.Пушкина. Надо отметить, что данное сочинение великого поэта всегда привлекало к себе композиторов разных поколений, не исключая и наших современников. Интересен тот факт, что время создания данного сочинения относится к 1893 году, когда С.Рахманинову было всего лишь девятнадцать лет.

Необычно соотношение между вокальной и фортепианной партиями – это великолепная находка композитора, в которой заключен глубокий психологический смысл: основная тема, песня героини в большинстве случаев поручена фортепиано, вокальная же партия звучит, как своеобразный подголосок, вторящий инструменту. Такое великолепное, оригинальное воплощение вокального и фортепианного начал, их взаимоотношение способствует созданию высокохудожественного, великолепного, по своей сути, сочинения большого мастера. Разнохарактерная тематика романсов, своеобразное развитие этого жанра С.Рахманиновым, выраженное союзом музыки, поэтического текста и другими составляющими, позволяют говорить о серьезных возможностях, заключенных в его сочинениях, для общекультурного развития и объемного видения мира обучающемуся этому высокому искусству молодому поколению.

**Литература**


1. Алексеев Д. С.В. Рахманинов. Жизнь и творческая деятельность. Москва,1954.
2. Брянцева В. С.В. Рахманинов. Москва, 1976.
3. Келдыш Ю. Рахманинов и его время. Москва, 1973.
4. Литературное наследие . (в 3-х томах, т.1). Москва, 1978.


**S. RAXMANİNOVUN YARADICILIĞINDA ROMANS JANRI**

**xülasə**


Məqalədə qeyd olunur ki, S.Raxmaninovun yaradıcılığında vokal lirikaya hər zaman böyük yer ayrılmışdır. Rus vokal lirikasının şedevrləri sayılan əsərlərini o, hələ gənc olarkən yazmışdır. Qeyd etmək lazımdır ki, bu əsərlər zəngin səs duyumu, fakturanın müxtəlifliyi ilə seçilir. Onun romanslarında fortepiano müşayiəti çox zaman vokal partiya ilə eyni dərəcədə, bəzən də aparıcı yer tutur. S.Raxmaninovun romansları tələbələrin həm musiqi savadının inkişafı üçün önəmli material, həm də pedaqoji repertuarda vacib əhəmiyyətə malik olan əsərlərdir.


**ROMANCE GENRE IN S. RAKHMANINOV'S WORKS**

**summary**


Among all S.Rakhmaninov's works vokal lyrics always had a great place. From his youth he managed to create works which are considered the masterpiece of russian vocal lyriks. Themes which are represented in his works are of great diversity. The piano accomponement often takes en equal part with the vocal one though frequently demonstrating its significantly dominating role. S.Rakhmaninov's Romances take a vital place in the students' pedagogical repertoire